Azərbaycan Hüquq Jurnalı

№2-2024
ISSN 1810-9055
DOI: 10.61638/AZLAWJL

Baş redaktor:
Əmir Əliyev (Bakı, Azərbaycan)

Baş redaktorun müavini:
Pərvanə Bayramova (Bakı, Azərbaycan)

Redaksiya Heyətinin sədri:
Turqay Hüseynov (Bakı, Azərbaycan)

Redaksiya Heyətinin üzvləri:
Məsumə Məlikova (Bakı, Azərbaycan)
Rüstəm Məmmədov (Bakı, Azərbaycan)
Nizami Səfərov (Bakı, Azərbaycan)
Əli Rzayev (Bakı, Azərbaycan)
İbrahim Quliyev (Bakı, Azərbaycan)
Kamil Səlimov (Bakı, Azərbaycan)
Şəhla Səmədova (Bakı, Azərbaycan)
Əfsər Sadıqov (Bakı, Azərbaycan)
Mayis Əliyev (Bakı, Azərbaycan)
Firuzə Abbasova (Bakı, Azərbaycan)
Ziyafət Əsgərov (Bakı, Azərbaycan)
Zaur Əliyev (Bakı, Azərbaycan)
Şükür Yusifov (Bakı, Azərbaycan)
Əlizadə Məmmədov (Bakı, Azərbaycan)
Əsmər Əliyeva (Bakı, Azərbaycan)
Fethi Gedikli (İstanbul, Türkiyə)
Cavid Abdullazadə (Ankara, Türkiyə)
Adel Abdullin (Kazan, Rusiya Federasiyası)
Elvin Teymurov (Moskva, Rusiya Federasiyası)
Viktoriya Romanova (Moskva, Rusiya Federasiyası)
Yuri Boşitski (Kiyev, Ukrayna)
Oleksandr Merejko (Kiyev, Ukrayna)
Azər Əliyev (Halle-Wittenberg, Almaniya)
Florian Riehl (Vürzburq, Almaniya)
Tamara Zarandia (Tbilisi, Gürcüstan)
Daulet Baydeldinov (Alma-Ata, Qazaxıstan)
Tomas Davilius (Vilnus, Litva)

Məsul katib:
Şahin Məmmədrzalı (Bakı, Azərbaycan)

Bu jurnal 2002-2012-ci illər ərzində gənc alim Elçin Qarabalovun redaktorluğu altında dərc edilmiş və Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının elmi nəticələrin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlərin siyahısına daxil edilmişdir. 2018-ci ildən jurnalın fəaliyyəti Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin təşəbbüsü ilə davam etdirilir. Məqsəd Azərbaycan hüquq elminin inkişafına töhfə verməkdir və onun beynəlxalq müstəvidə tanınmasına nail olmaqdır.

©Bakı Dövlət Universiteti, Hüquq fakültəsi, 2024

MÜNDƏRİCAT

KORPORATİV HÜQUQ

Farhad Karagusov, Balzhan Baisheva

QAZAXISTANDA KORPORATİV MÜNASİBƏTLƏRİN TƏNZİMLƏNMƏSİ SİSTEMİNƏ MÜXTƏLİFLİK, ƏDALƏTLİLİK VƏ İNKLÜZİVLİK PRİNSİPLƏRİNİN TƏTBİQ EDİLMƏSİ (ingilis dilində) 5

PROSESSUAL HÜQUQ

Etibar Əliyev

MÜASİR DÖVRDƏ MEDİASİYAYA MÜRACİƏTİN NORMATİV HÜQUQİ TƏNZİMLƏNMƏSİ 16

Lalə Məmmədova

MƏHKƏMƏNİN HÖKM VƏ YA QƏRARLARINA YENİ AÇILMIŞ HALLAR ÜZRƏ BAXILMASI ÜÇÜN ƏSASLAR 30

BEYNƏLXALQ HÜQUQ

Leyla Həşimova

MADDİ MƏDƏNİ İRS OBYEKTLƏRİNİN BEYNƏLXALQ DÖVRİYYƏSİ: BEYNƏLXALQ VƏ MİLLİ HÜQUQİ TƏNZİMETMƏ (rus dilində) 40

İNFORMASİYA HÜQUQU

Gülnaz Rzayeva

KONSTİTUSİYAYA DƏYİŞİKLİYƏ ZƏRURƏT VARMI: AZƏRBAYCANDA İNFORMASİYA SAHƏSİNDƏ HÜQUQ VƏ AZADLIQLARA DAİR NORMALARDA ZİDDİYYƏTLƏR 49

Elnur Hümbətov

ELEKTRON DÖVLƏT VƏ ELEKTRON DEMOKRATİYANIN İNKİŞAFI: İNSAN HÜQUQ VƏ AZADLIQLARININ QORUNMASINA DAİR YENİ HÜQUQİ TENDENSİYALAR 63

TİBBİ HÜQUQ

Fatimə Hüseynova

SƏHİYYƏ SAHƏSİNDƏ BEYNƏLXALQ HÜQUQ NORMALARININ MİLLİ HÜQUQİ İMPLEMENTASİYASININ PRİNSİPLƏRİ 76

MÜLKİ HÜQUQ

Xanımana Qafarova

DONDURULMUŞ EMBRİON VƏRƏSƏ, YOXSA MÜLKİYYƏTDİR: NƏZƏRİYYƏ VƏ TƏCRÜBƏ 85

İNSAN HÜQUQLARI

Mələkxanım Rəhimova
LAYİQLİ HƏYAT HÜQUQLARI SFERASINDA BEYNƏLXALQ ƏMƏKDAŞLIĞIN HÜQUQİ TƏNZİMLƏNMƏSİ 94

Siyavuş Bağırov
AZƏRBAYCANLILARIN ERMƏNİSTAN SSR-DƏN 1988-1991-Cİ İL DEPORTASİYA EDİLMƏSİNƏ ERMƏNİSTAN DÖVLƏT MÜSTƏQİLLİYİ HAQQINDA BƏYANNAMƏ VƏ ERMƏNİSTAN KONSTİTUSİYASI PRİZMASINDAN QİYMƏT VERİLMƏSİ: ERMƏNİSTAN RESPUBLİKASININ KONSTİTUSİON AKTLARININ ŞƏRHİ (ingilis dilində) 106

SOSİAL HÜQUQİ TƏDQİQAT

Le Thı Thu Phuong, Le Thı Thanh Tam
XƏSTƏLƏRİN PSİXOSOSİAL DƏSTƏK XİDMƏTLƏRİNDƏN MƏMNUNLUQ SƏVİYYƏSİ: HÜQUQİ TƏNZİMLƏMƏ VƏ PRAKTİKİ MƏSƏLƏLƏR (rus dilində) 117

Farhad Karagusov, Balzhan Baisheva. Qazaxıstanda korporativ münasibətlərin tənzimlənməsi sisteminə müxtəliflik, ədalətlilik və inklüzivlik prinsiplərinin tətbiq edilməsi // Azərbaycan Hüquq Jurnalı. 2024 (№2), s. 5-15. DOI: 10.61638/WDGB2874

КОРПОРАТИВНОЕ ПРАВО

ВНЕДРЕНИЕ ПРИНЦИПОВ РАЗНООБРАЗИЯ, СПРАВЕДЛИВОСТИ И ИНКЛЮЗИВНОСТИ В СИСТЕМУ РЕГУЛИРОВАНИЯ КОРПОРАТИВНЫХ ОТНОШЕНИЙ В КАЗАХСТАНЕ

ФАРХАД КАРАГУСОВ*, БАЛЖАН БАИШЕВА**

Резюме

Настоящая презентация содержит мнение авторов относительно особенностей правового регулирования корпоративного управления, наиболее целесообразного сочетания внешних механизмов побуждения и внутрикорпоративной мотивации к обеспечению разнообразия, справедливости и инклюзивности (так называемая концепция DEI) в систему корпоративного управления в казахстанских компаниях. Упомянутый анализ проводился на различных теоретических основах, международных и национальных практических базах. Полученные результаты можно считать важными для совершенствования национального законодательства Казахстана в этой области.

Ключевые слова: *корпоративные отношения, правовая база, гражданское законодательство, корпоративное управление, правовое регулирование, корпоративное право, предмет регулирования.*

I. Введение

Корпоративные отношения представляют собой особую область отношений, регулируемых гражданским законодательством. Специфика корпоративных правоотношений заключается в существовании отдельных оснований возникновения прав и обязанностей в этой области общественных отношений (в частности, решения собраний, акт учреждения юридического лица, решения его органов, нормы закона и положения применимых национальных стандартов корпоративного управления, корпоративные политики и раскрытие информации), наличии особого круга субъектов этих правоотношений (отдельной категории юридических лиц, их должностных лиц и заинтересованных сторон / стейкхолдеров), существовании обязанностей должностных лиц компании, которые не являются имущественными, но нарушение которых может повлечь имущественную ответственность (т.н. фидуциарные обязанности – fiduciary duties), возможности привлечении к имущественной ответственности за причиненные компании убытки по иску третьего лица, известному как производный иск (derivative action).

* Доктор юридических наук, профессор, член Международной академии сравнительного права (IACL) / fsk2906@gmail.com

** Преподаватель политической экономии, магистр психологии / balzhan.baisheva@gmail.com

С учетом этого, объективным представляется существование отдельной отрасли законодательства (преимущественно / преобладающим образом являющейся составной частью гражданского законодательства), нормы которого своим объектом регулирования имеют именно корпоративные отношения. Она называется корпоративным законодательством. А отрасль юридических знаний, посвященных изучению и развитию корпоративных отношений, можно называть корпоративным правом. В разных правовых системах (в зависимости от того, как именуются являющиеся субъектами этих отношений юридические лица – хозяйственные общества, корпорации или компании) корпоративное законодательство может также именоваться законодательством о компаниях или правом компаний – corporate law, company law.

II. Корпоративные отношения и корпоративное законодательство

Примечательным является то, что в казахстанском праве отсутствуют легальные дефиниции корпоративных отношений и корпоративного законодательства. Да, в наличии таких дефиниций не усматривается особых выгод. В то же время чрезвычайно важным является однозначное законодательное признание того, что корпоративные отношения регулируются именно гражданским законодательством. Такое признание представляется объективным, потому что субъекты корпоративных отношений (сами корпорации / компании, их участники / акционеры и должностные лица, а тем более – стейкхолдеры) по отношению друг к другу являются самостоятельными и равноправными право субъектными персонами (и эта объективность вытекает из норм Гражданского кодекса (ГК)).

Законодательная констатация этого обстоятельства в нормах ГК представляется необходимой для того, чтобы оградить сферу гражданского оборота, и в частности – корпоративных отношений, от применения не свойственных для регулирования гражданских отношений методов, которое в конечном счете приводит к искажению правовой и социальной действительности.

Следует всегда помнить, что корпоративное законодательство – это (как и гражданское право в целом) право свободного человека, позволяющее ему самостоятельно и без принуждения принимать решения относительно своего имущества и своих отношений с другими лицами, но требующее от него ответственности за собственные действия и недопустимости нарушать права других лиц. Современные нам события, происходящие в мире, свидетельствуют о том, что недостаточная охрана законодательной основы гражданских свобод, равенства субъектов имущественного оборота, автономии воли, диспозитивности в регулировании контрактных отношений, ограничения злоупотреблений

положением и т.п. может привести к катастрофическим социальным, экономическим и политическим последствиям.

В то же время, юридические понятия корпорации, корпоративного законодательства и корпоративных правоотношений должны получить однозначную, прежде всего, теоретическую основу. В казахстанском праве пока еще нет окончательно согласованных позиций относительно содержания этих понятий.

Анализировать разные точки зрения по этим вопросам в рамках этого выступления нет возможности. Однако отметим, что в определении того, что есть корпоративные отношения, за основу можно взять мнение М.К. Сулейменова о том, что корпоративные отношения – это отношения, «связанные с участием в корпоративных организациях или с управлением ими» [9, с. 23 – 24]. При такой позиции, однако, дискуссионным является вопрос о том, включают ли (должны ли включать) корпоративные отношения также и отношения по учреждению юридического лица (хотя эти вопросы чаще всего регулируются корпоративным законодательством).

В свою очередь, субъектом регулирования именно корпоративным законодательством следует признавать только такие корпорации, которые построены на отделении участия в уставном капитале юридического лица от управления им, на его юридической самостоятельности и его имущественной ответственности по своим обязательствам, а также на управлении им только под ответственность его надлежащим образом сформированных органов.

Корпоративным законодательством не регулируются отношения, не связанные с деятельностью и управлением юридических лиц, являющихся хозяйственными обществами, компаниями. Регулирование хозяйственных товариществ, кооперативов, некоммерческих объединений осуществляется нормами ГК и законодательных актов, не составляющих собой нормы корпоративного законодательства.

III. Корпоративное управление: основные особенности и тенденции развития

Особой областью корпоративных отношений является корпоративное управление. Согласно Принципам корпоративного управления ОЭСР в редакции 2023 года, корпоративное управление представляет собой «систему взаимоотношений между менеджментом компании, её советом директоров, её акционерами и заинтересованными лицами. Корпоративное управление также определяет структуру, с помощью которой устанавливаются цели компании, а также способы достижения этих целей и мониторинг результатов деятельности» [7, с. 6].

В казахстанском праве имеется легальная дефиниция этого понятия, отраженная в актах регулирования банковской деятельности. Она во много

сходна с определением, предложенным в Принципах ОЭСР, однако в орбиту отношений по корпоративному управлению она также включает руководящих работников и (почему-то!) аудиторов банков. Хотя и предназначенная регулировать статус банков, при необходимости, эта дефиниция, являясь правовой нормой, может применяться по аналогии.

В свою очередь, казахстанский Кодекс корпоративного управления (ККУ) определяет корпоративное управление, в полной мере воспроизводя дефиницию, содержащуюся в Принципах ОЭСР [3, с. 4]. Сам ККУ не является источником правового регулирования, будучи предназначенным служить национальным стандартом корпоративного управления в Казахстане [4, ст. 26-2]. Однако, поскольку ККУ разработан и согласован не в полном соответствии с применимыми нормами закона (принятыми после утверждения ККУ), его признание и использование именно как такого национального стандарта еще остается не бесспорным. Вместе с тем, безусловно, он в любом случае сохраняет свою ценность как источник идей для формирования собственных систем корпоративного управления в отдельных компаниях.

Несмотря на то, что все эти определения позволяют получить представление о субъектах и содержании отношений в области корпоративного управления, они представляются не безупречными с юридической точки зрения, поскольку, например, в качестве субъектов отношений предусматривают неправосубъектные образования (в частности, органы компании), а также недостаточно определенно указывают на объект соответствующих правоотношений.

Поэтому, в традициях казахстанской правовой теории представляется целесообразным определить корпоративное управление как систему управления корпорацией, включающую организационную структуру компании, ее внутренние правила и бизнес-процессы, а также практику их соблюдения, с помощью которых осуществляется руководство деятельностью компании, контроль над ней, и обеспечивается соблюдение прав заинтересованных сторон.

Субъектами отношений по корпоративному управлению являются сама компания в лице ее органов и ее должностные лица, а также ее акционеры / участники, осуществляющие свои права в отношении компании посредством реализации компетенции общего собрания акционеров / участников или подачи производного иска.

С учетом вышеизложенного, следует понимать, что ГК практически не регулирует корпоративное управление. Более того, корпоративное управление не регулируется в полном объеме и нормами собственно корпоративного законодательства. И философским вопросом является то, насколько корпоративное законодательство вообще должно регулировать корпоративное управление.

В частности, законодательство может (и должно) обеспечить соблюдение только некоторых из компонентов надлежащего корпоративного управления (они отражены в предложенном выше определении корпоративного управления). Более того, видится необходимым усиление законодательного регулирования по целому ряду соответствующих моментов (в частности, в регулировании корпоративного устройства, статуса должностных лиц компании и, возможно, в требовании утверждения некоторых корпоративных политик и кодексов (не только, кодекса корпоративного управления) компаний).

Вместе с тем, опыт свидетельствует о том, что существенным компонентом надлежащей системы корпоративного управления является (и должна признаваться) практика соблюдения в компании собственных политик и правил. При этом соответствующие процедуры и такое соблюдение не могут хоть в какой-то степени эффективно регулироваться законом.

Следует понимать, что основой / залогом хорошей практики корпоративного управления является не столько закон, сколько предположение / презумпция ответственного и профессионального отношения корпоративных должностных лиц (директоров и менеджеров) компаний. В обеспечении соответствия такой презумпции закон ограничен в возможностях воздействия. Например, закон может требовать избрания определенного числа независимых директоров, но обеспечение их действительной независимости и объективности суждений, контроль надлежащей оценки исполнения ими своей роли и многие другие аспекты не могут обеспечиваться законом. Это может быть лишь хорошей практикой поведения директоров и менеджеров.

Поэтому в большинстве вопросов, относящихся к корпоративному управлению законодательное регулирование просто невозможно. В связи с этим политики и методологи в области корпоративного управления рассчитывают на сознание тех, кто вовлечен в эту сферу отношений: без ответственного и осознанного подхода достижение целей корпоративного управления (в т.ч. целей устойчивого развития) может быть иллюзорной идеей. Например, научные исследования последних лет показали, что присутствие женщин в советах директоров компаний способствует улучшению работы советов, но формальное соответствие рекомендации о гендерном разнообразии в составах советов директоров еще не привело какому-то ощутимому устойчивому улучшению ситуации в глобальном масштабе, а тем более - на локальном уровне в Казахстане.

Современной моделью корпоративного управления считается такая интегрированная система, которая в процессе управления компаниями, ведения их деятельности и их взаимоотношений с заинтересованными сторонами учитывает экологические, социальные и управленческие факторы (ЭСКУ / ESG) в целях содействия устойчивому развитию.

Упомянутые ЭСКУ-факторы (ESG-факторы) также определяются как факторы устойчивого развития, которые должны приниматься во внимание, в частности, при формировании и осуществлении корпоративного управления на уровне отдельных компаний.

Ключевой характеристикой такого корпоративного управления является профессиональное стратегическое руководство компанией, осуществляемое советом директоров. В зависимости от того, насколько сознательно и продуманно сформирован ее совет директоров, зависит успех существующего в компании корпоративного управления. В связи с этим на глобальном уровне продолжается поиск и продвижение новых подходов для того, чтобы идея ESG-интегрированного корпоративного управления стало повсеместной практикой. Одной из таких современных концепций, которые позволяют смотреть на процесс улучшения в компаниях под отдельным углом зрения, является концепция DEI (diversity, equity, inclusivity) – разнообразие, справедливость, инклюзивность.

Разнообразие, справедливость и инклюзивность часто группируются вместе, поскольку они взаимосвязаны, и только в таком сочетании проявляется их истинное влияние.

Разнообразие относится к тому, кто представлен в составе органов компании и в трудовом коллективе в целом. Некоторые примеры разнообразия на рабочих местах включают гендерное разнообразие (каков состав мужчин, женщин и небинарных людей в данной популяции?), возрастное разнообразие (являются ли члены совета директоров или работники компании в целом представителями в основном одного поколения или есть смешанные возрасты?), этническое разнообразие (имеют ли члены совета директоров или работники компании в общие национальные или культурные традиции, или они имеют разное происхождение?).

Справедливость означает справедливое обращение со всеми людьми, при котором существующие нормы, практика и политика гарантируют, что идентичность не будет предсказывать возможности или результаты на рабочем месте. Справедливость отличается от равенства тонким, но важным образом. В то время как равенство предполагает, что ко всем людям следует относиться одинаково, справедливость учитывает уникальные обстоятельства человека, соответствующим образом корректируя обращение, чтобы конечный результат был равным.

Инклюзивность относится к тому, как сотрудники воспринимают свое рабочее место, и в какой степени компанией охватываются все ее сотрудники, позволяет ли она им вносить значимый вклад развитие компании. Компании, которые намерены нанимать разнообразную рабочую силу, также должны стремиться развивать достаточно инклюзивную культуру, чтобы все сотрудники чувствовали, что их голоса

будут услышаны, что крайне важно, если организации хотят сохранить свои таланты и раскрыть потенциал своей разнообразной рабочей силы.

Помимо способствования прибыльности компании, выделяется следующие еще пять ключевых областей, в которых инклюзивность и разнообразие могут существенно повлиять на общую эффективность компании: привлечение талантов (организации, которые следят за демографическим профилем своих сотрудников, могут лучше удерживать лучших сотрудников, одновременно следя за тем, чтобы разнообразные таланты не были потеряны), улучшение качества принятия корпоративных и управленческих решений (разнообразие позволяет использовать множество точек зрения в периоды, когда необходимы более совершенные навыки решения проблем и видение), повышение понимания клиентов и инноваций (разнородные команды обычно более инновационны и лучше предвидят изменения), повышение мотивации и удовлетворенности сотрудников, а также улучшение глобального имиджа компании [7].

Советы директоров являются агентами критических перемен. Эффективные советы директоров – это такие, которые продолжают выяснять, делают ли они и руководство компании достаточно усилий для стимулирования изменений, и если да, то в какой степени. Сегодня повестки дня советов директоров более насыщены, чем когда-либо прежде, а проблемы и новые области, за которыми советам директоров необходимо быть в курсе, только возрастают. Поскольку компании стремятся создать более справедливые и сбалансированные органы управления с реальным разнообразием взглядов, директорам необходимо продолжать уделять внимание гендерному паритету для достижения прогресса.

Разнообразие в советах директоров компаний имеет огромное значение. Состав совета директоров является важным аспектом корпоративного управления, одним из столпов ESG-профиля компании. Считается, что более гендерно-разнообразный совет директоров может лучше представлять компанию или идентифицироваться со своими клиентами, предлагать разнообразные идеи и помогать компании конкурировать и адаптироваться к изменениям в своей отрасли [6].

Согласно исследованиям, представительство женщин в советах директоров и на руководящих должностях приводит к повышению производительности (положительная рентабельность капитала, рентабельность активов, рентабельность инвестиций), более высоким бухгалтерским доходам и положительному влиянию на управление рисками и взаимодействие с сообществом. Например, компании с большим гендерным разнообразием в совете директоров на 60% чаще снижают интенсивность энергопотребления, на 39% чаще сокращают выбросы парниковых газов и на 46% чаще сокращают потребление воды. При этом во всем мире женщины занимают лишь 19,7% мест в советах

директоров, 6,7% председателей советов директоров, 5% постов генеральных директоров и 15,7% должностей финансовых директоров [2].

По вопросу формирования совета директоров концепция DEI основывается на том, что важно не использовать по умолчанию исторические профили опыта при избрании членов совета директоров. Нужно всегда задавать такие вопросы, как: имеем ли мы необходимое сочетание навыков и опыта, чтобы добиться успеха в свете сложностей сегодняшнего дня; в какой степени мы, как совет директоров, соблюдаем осторожность при выборе кандидатов в совет директоров или высшее руководство; собираемся ли мы по умолчанию сужать поиск кандидатов с историческим опытом предыдущего опыта работы генеральным директором, или мы готовы пойти на риск, чтобы найти лидеров будущего; насколько много внимания мы уделяем предыдущим должностям в руководстве или совете директоров по сравнению с набором навыков, способностей, лидерства и деловой хватки, которые могут непреднамеренно исключать ряд высококачественных кандидатов-женщин?

При этом необходимо проявлять творческий подход к созданию эффективной практики управления компанией, спрашивать себя: какие творческие решения могут применять руководство и совет директоров, чтобы предоставить женщинам больше возможностей для получения опыта управления; рассматривали ли мы возможность размещения кандидатов с высоким потенциалом в советах директоров наших дочерних компаний или других организаций, чтобы стимулировать не только наши собственные органы управления, но и корпоративные каналы продвижения в более широком смысле?

В свою очередь, применительно к членам трудового коллектива при реализации кадровой политики компании и обеспечения внутреннего карьерного роста работников компании также очень важно регулярно проверять данные и прогресс действующей в компании системы продвижения с помощью анализа таких вопросов, как: уделяем ли мы достаточно времени проверке наших данных и результатов наших усилий по продвижению женщин; как быстро в состав наших топ-менеджеров добавляются женщины; продвигают ли наши системы продвижения женщин такими же темпами, как и мужчин; теряем ли мы женщин-лидеров в процессе продвижения? [1]

IV. Заключение

Мы являемся свидетелями активных изменений на локальном и глобальном уровнях во многих аспектах деятельности: экономической, экологической, образовательной, геополитической и других. Следование политике DEI, которая нацелена на справедливую интеграцию в процессы развития и управления компании людей разнообразной идентичности, дает

возможность компаниям развиваться устойчиво и сбалансированно. Если органы компаний будут отражать существующее разнообразие в обществе, то в них будут полноправно включены представители разных категорий граждан, то такие компании естественным образом будут работать на благо всего общества.

Так как такой подход не может регулироваться законодательно, он должен стать частью корпоративных политик / внутренних правил каждой компании и осознанно соблюдаться ими в своей ежедневной практике.

REFERENCES:

1. A Deloitte Global report on gender diversity on boards and women in leadership: Women in the boardroom, 8th edition.
   URL: https://www.deloitte.com/us/en/insights/topics/leadership/women-in-the-boardroom.html (last access 22.04.2024).
2. IFC, Women on Boards and in Business Leadership: Breaking down women's barriers to board directorships and senior management positions.
   URL: https://www.ifc.org/en/what-we-do/sector-expertise/corporate-governance/women-boards-business-leadership (last access 25.04.2024).
3. Kazakhstan corporate governance code, approved by the decision of the Presidium of the National Chamber of Entrepreneurs of the Republic of Kazakhstan "Atameken" No. 4 dated April 27, 2021 and agreed upon by the Agency for Regulation and Development of the Financial Market of the Republic of Kazakhstan dated November 21, 2023 (in Russian / *Казахстанский (страновой) кодекс корпоративного управления, одобренный решением Президиума Национальной палаты Предпринимателей Республики Казахстан «Атамекен» № 4 от 27 апреля 2021 года г. и согласованный Агентством по регулированию и развитию финансового рынка Республики Казахстан от 21 ноября 2023 года*).
   URL: https://atameken.kz/uploads/content/files/Кодекс%20финиш.pdf (last access 22.04.2024).
4. Law of the Republic of Kazakhstan dated July 4, 2013 No. 129-V "On the National Chamber of Entrepreneurs of the Republic of Kazakhstan", with amendments.
   URL: https://adilet.zan.kz/rus/docs/Z1300000129 (last access 22.04.2024).
5. McKinsey & Co., What is diversity, equity, and inclusion? (17.08.2022).
   URL: https://www.mckinsey.com/featured-insights/mckinsey-explainers/what-is-diversity-equity-and-inclusion (last access 24.04.2024).

6. MLPF&S, Women: the X-factor (07.03.2018).
URL: https://mlaem.fs.ml.com/content/dam/ML/bulletin/PDFs/ml_women-the-X-factor-BAML-Report.pdf (last access 22.04.2024).
7. OECD (2023), G20/OECD Principles of Corporate Governance 2023, OECD Publishing, Paris.
URL: https://doi.org/10.1787/ed750b30-en (last access 22.04.2024).
8. Rules for the formation of a risk management and internal control system for second-tier banks, branches of non-resident banks of the Republic of Kazakhstan, approved by the Resolution of the Board of the National Bank of the Republic of Kazakhstan dated November 12, 2019 No. 188 (in Russian / *Правила формирования системы управления рисками и внутреннего контроля для банков второго уровня, филиалов банков-нерезидентов Республики Казахстан,утвержденные постановлением Правления Национального Банка Республики Казахстан от 12 ноября 2019 г. № 188*).
URL: https://adilet.zan.kz/rus/docs/V1900019632 (last access 24.04.2024).
9. Suleymanov M.K. Civil law and corporate relations: problems of theory and practice. Collection of materials of annual civilistic readings, May 13–14, 2013. - Almaty, 2013 (in Russian / *Сулейменов М.К. Гражданское право и корпоративные отношения: проблемы теории и практики. Сборник материалов ежегодных цивилистических чтений, 13 – 14 мая 2013 г. - Алматы, 2013*).

Qazaxıstanda korporativ münasibətlərin tənzimlənməsi sisteminə müxtəliflik, ədalətlilik və inklüzivlik prinsiplərinin tətbiq edilməsi

FARHAD KARAGUSOV*, BALZHAN BAISHEVA**

Annotasiya

Bu məqalədə Qazaxıstan şirkətlərində korporativ idarəetmə üçün qanunvericilik bazasının xüsusiyyətləri, korporativ idarəetmə sistemində müxtəlifliyi, ədalətliliyi və inklüzivliyi (sözdə DEI konsepsiyası) təmin etmək üçün xarici təşviq mexanizmləri və daxili korporativ motivasiyanın ən uyğun kombinasiyası ilə bağlı müəlliflərin fikirləri əks olunmuşdur. Qeyd edilən təhlillər müxtəlif nəzəri əsaslandırmalar, beynəlxalq və milli praktiki əsaslar üzrə aparılmışdır. Əldə edilən nəticələr Qazaxıstanın bu sahədə milli qanunvericiliyinin təkmilləşdirilməsi üzrə əhəmiyyətli hesab edilə bilər.

Açar sözlər: *korporativ münasibətlər, qanunvericilik bazası, mülki qanunvericilik, korporartiv idarəetmə, hüquqi tənzimetmə, korporativ hüquq, tənzimetmə subyekti.*

* Hüquq elmləri doktoru, professor, Beynəlxalq Müqayisəli Hüquq Akademiyasının (IACL) üzvü / email: fsk2906@gmail.com

** Siyasi elmlər üzrə müəllim, psixologiya üzrə magistr / email: balzhan.baisheva@gmail.com

Farhad Karagusov, Balzhan Baisheva. Qazaxıstanda korporativ münasibətlərin tənzimlənməsi sisteminə müxtəliflik, ədalətlilik və inklüzivlik prinsiplərinin tətbiq edilməsi // Azərbaycan Hüquq Jurnalı. 2024 (№2), s. 5-15. DOI: 10.61638/WDGB2874

Implementation of principles of diversity, fairness and inclusivity into the system of regulation of corporate relations in Kazakhstan

FARHAD KARAGUSOV*, BALZHAN BAISHEVA**

Abstract

This presentation contains the authors' opinion regarding the features of the legal framework for corporate governance, the most appropriate combination of external incentive mechanisms and internal corporate motivation to ensure diversity, equity and inclusion (the so-called DEI concept) in the corporate governance system in Kazakh companies. The mentioned analyzes were conducted on various theoretical bases, international and national practical bases. The obtained results can be considered important for improving the national legislation of Kazakhstan in this field.

Keywords: *corporate relations, legal framework, civil legislation, corporate governance, legal regulation, corporate law, subject of regulation.*

Redaksiyaya daxil olma tarixi: 03.05.2024
Çapa qəbul: 23.09.2024

* Doctor of Laws, professor, Member of the International Academy of Comparative Law (IACL) / email: fsk2906@gmail.com

** Lecturer of political sciences, LL.M. in psychology / email: balzhan.baisheva@gmail.com

Etibar Əliyev. Müasir dövrdə mediasiyaya müraciətin normativ hüquqi tənzimlənməsi // Azərbaycan Hüquq Jurnalı. 2024 (№2), s. 16-29. DOI: 10.61638/UTDI5280

PROSESSUAL HÜQUQ

MÜASİR DÖVRDƏ MEDİASİYAYA MÜRACİƏTİN NORMATİV HÜQUQİ TƏNZİMLƏNMƏSİ

ETİBAR ƏLİYEV*

Annotasiya

Məqalədə müasir dövrdə mediasiyaya müraciətin normativ hüquqi tənzimlənməsi barədə məsələ elmi kontekstdə nəzərdən keçirilir. Qeyd edilir ki, mediasiyaya müraciət proseduru həyata keçirilərkən müəyyən mediasiya münasibətləri yaranır. Yaranan bu cür münasibətlər müvafiq mediasiya-hüquq normaları vasitəsi ilə qaydaya salınaraq tənzimlənir. Müvafiq mediasiya-hüquq normaları isə, əsasən, aşağıda göstərilən normativ hüquqi aktlarda təsbit olunmuşdur: Azərbaycan Respublikasının Konstitusiyası, Azərbaycan Respublikasının Mülki Məcəlləsi, Azərbaycan Respublikasının Mülki-Prosessual Məcəlləsi, "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikasının Ailə Məcəlləsi, Azərbaycan Respublikasının Əmək Məcəlləsi, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi, Azərbaycan Respublikasının İnzibati-Prosessual Məcəlləsi, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Qərarları, Azərbaycan Respublikası Ali Məhkəməsinin aidiyyəti üzrə müvafiq qərarları və s.

Açar sözlər: *mübahisələrin alternativ həlli, mediasiya prosesi, mübahisə tərəfləri, mediasiyaya müraciət, normativ hüquqi tənzimlənmə, mediasiya-hüquq normaları.*

I. Giriş

Məlum olduğu kimi, dünyada cərəyan edən qloballaşma və sosial-iqtisadi transformasiyalar şəraitində müstəqil Azərbaycan Respublikasında mediasiya fəaliyyəti ilə bağlı ictimai münasibətlərin günbəgün inkişaf edərək, kütləvi xarakter alması tendensiyası müşahidə edilir [7]. Beynəlxalq aləmdə insan hüquqlarının qorunması üzrə fəaliyyət ictimai-sosial hadisə kimi hər bir ölkənin milli infranstrukturda vacib yer tutur [2]. Belə ki, ölkənin hərtərəfli tərəqqisi üçün insan hüquqlarının təminolunma səviyyəsi əsas göstərici kimi önəmli amillərdən biri sayılır. Azərbaycan Respublikası öz tarixi dövlət müstəqilliyini bərpa etdikdən sonra Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə dünya birliyinin tamhüquqlu üzvünə çevrilmiş, əsas qanun olan Konstitusiya referendum yolu ilə qəbul edilmiş, bir sıra qlobal layihələr gerçəkləşərək, ənənəvi sosial-iqtisadi və idarəetmə mexanizmlərində ciddi dəyişikliklər baş verməklə ölkədə yeni infrastruktur sahələri yaranmış, beynəlxalq əlaqələr sferası genişlənmiş, hüquqi dövlət quruculuğu istiqamətində silsilə qanunvericilik aktları qəbul edilərək, insanların azad, təhlükəsiz və fiziki cəhətdən sağlam mühitdə yaşaması, müstəqilliyin möhkəmlənməsi və məhkəmə-hüquq sektorunun inkişafı istiqamətində bir çox əhəmiyyətli tədbirlər həyata keçirilmişdir. Təsadüfi deyil ki, ulu öndər Heydər Əliyev bu istiqamətdə öz fikirlərini belə ifadə etmişdir: "Azərbaycanda insan hüquqlarının qorunması, insan azadlıqlarının təmin edilməsi həmişə diqqət mərkəzində olmuşdur. İnsan

* Hüquq elmləri doktoru, professor / Bakı Dövlət Universiteti / email: a-etibar@rambler.ru

hüquq və azadlıqlarının müdafiəsi dövlətin ali məqsədidir" [4; 5]. Belə ki, hər kəsin doğulduğu andan toxunulmaz, pozulmaz və ayrılmaz hüquq və azadlıqlara malik olması barədə müddəalar Konstitusiyada, konkret olaraq, öz əksini tapmış, eləcə də insan hüquqlarının müdafiə üsulları müəyyənləşdirilmişdir. Müdrik Ulu Öndərin elmi əsaslara söykənən ictimai-siyasi və sosial-iqtisadi sferalarda çoxaspektli inkişaf kursu bazar iqtisadiyyatına keçid və dünyada baş verən qloballaşma prosesi fonunda ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən zənginləşdirilərək, yeni çalarlarla və uğurla davam etdirilir. Gələcəyə istiqamətlənmiş bu sosial-iqtisadi və hüquqi islahatlar bütün sahələrdə, o cümlədən əhaliyə hüquqi xidmətlərin göstərilməsi sektorunda öz müsbət nəticələrini verməkdədir. Dövlət başçısı İlham Əliyevin dediyi kimi, "Azərbaycanın müasir inkişaf dövründə hüquqi dövlət quruculuğu və insan hüquqlarının müdafiəsi sahəsində səylərin gücləndirilməsi dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyən edilmişdir. Azərbaycan Respublikasında insan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsi ümumdövlət vəzifəsi hesab edilir. Hər bir vətəndaşın hüququnun qorunması bizim üçün çox önəmlidir. Biz qanunun aliliyinin təmin olunduğu, yüksək səviyyədə şəffaflıq olan, hər bir insanın sülh və əmin-amanlıq şəraitində yaşadığı və bütün azadlıqlardan istifadə etdiyi cəmiyyət qururuq" [6]. Bu gün Azərbaycanda vətəndaş cəmiyyətində müşahidə olunan dinamik sosial-iqtisadi inkişaf və beynəlxalq münasibətlər sisteminə inteqrasiya insan hüquqlarının müdafiəsi sahəsində təminat mexanizmlərinin və müvafiq infrastrukturun təkmilləşdirilməsini, maddi-texniki bazanın modernləşdirilməsini, bu istiqamətdə işlərin beynəlxalq standartlara tam uyğun aparılmasını, bütövlükdə hüquq idarəetmə sisteminin ölkənin sosial-iqtisadi inkişafındakı rolunun daha da artırılmasını zəruri edir. Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planının təsdiq edilməsi (2006-cı il), "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Fərmanın (2019-cu il) imzalanması, "Mediasiya haqqında" Azərbaycan Respublikası Qanununun (2019-cu il) və digər normativ hüquqi aktların qəbul edilməsi söylənilən fikirlərə parlaq nümunədir. Eyni zamanda, qeyd etməliyik ki, nüfuzlu ictimai təşkilat olan Heydər Əliyev Fondu insan hüquqları sahəsində müvafiq müdafiə vasitələrinin inkişaf etdirilməsini öz fəaliyyət istiqamətlərindən biri kimi müəyyənləşdirmişdir və bu fəaliyyət sferasına aid proqram və layihələrin həyata keçirilməsində fəal iştirak edir. Bu baxımdan, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun Prezidenti, İSESKO-nun xoşməramlı səfiri xanım Mehriban Əliyeva tərəfindən ölkədə insan hüquqlarının müdafiəsi sahəsində fəaliyyətin gücləndirilməsinə və inkişafına, gənc hüquqşünas kadrlar nəslinin formalaşmasına göstərilən diqqət və qayğı, eləcə də verilən real töhfələr təqdirəlayiqdir. Müasir dövrdə yaradılmış koordinasiya nəticəsində Azərbaycanda beynəlxalq aləmdə qabaqcıl təcrübəyə əsaslanan mediasiya institutu təşəkkül tapmış və bu fəaliyyət növünün inkişaf etdirilərək, daha da genişlənməsi üçün münbit şərait yaradılmışdır. Belə ki, 12 fevral 2020-

ci il tarixində "Mediasiya Şurası" qeyri-kommersiya hüquqi şəxsin təsis edilməsi, eləcə də regionlarda müasir standartlara uyğun mediasiya təşkilatlarının yaradılması prosesləri ədliyyə sisteminin inkişafında yeni mərhələ olmaqla yanaşı, bu sahədə islahatların müasir çağırışlara uyğun davam etdirilməsinə rəvac vermişdir [7]. Göstərilən fundamental amilləri və mediasiya fəaliyyəti sferasında ictimai münasibətlərin pozitiv inkişaf meyillərini diqqətə çəkərək, bu kontekstdə mediasiya hüquq elmi sahəsinin müasir meyar və standartlar çərçivəsində tədqiq olunması aktuallıq kəsb edir. Cəmiyyətdə mediasiya fəaliyyəti ilə bağlı müəyyən növ ictimai münasibətlər əmələ gəlir ki, həmin münasibətlərin hüquqi tənzimlənməsi müvafiq hüquq normaları vasitəsi ilə həyata keçirilir. Bu kimi hüquq normalarının məcmu halında birləşməsi mediasiya hüququ adlanır və o, Azərbaycan Respublikasında milli hüquq sistemində insan hüquqları kontekstində kompleks hüquq institutu statusuna malik olan tərkib hissə kimi formalaşma mərhələsindədir. Qeyd etməliyik ki, vətəndaş cəmiyyətində hər kəsin azadlıq hüququ vardır. Belə ki, Azərbaycan Respublikasının Konstitusiyası vətəndaşların azadlıq hüququnu təsbit edir (maddə 28). Azadlıq hüququ, mahiyyət etibarilə, vətəndaşların öz iradəsi əsasında davranış imkanını ehtiva edir. Davranış imkanı isə vətəndaşların istənilən hərəkəti etmək hüququdur, yəni potensial imkanıdır, istəyidir [23, s. 9]. Belə hüquqdan faydalanaraq, vətəndaşlar öz aralarında yaranan mübahisələri üçüncü tərəfin (mediatorun) iştirakı ilə qarşılıqlı razılıq əsasında həll edirlər. Bu proses mediasiya adlanır. Mediasiya prosesinin həyata keçirilməsi zamanı yaranan ictimai münasibətlər mediasiya qanunvericiliyi ilə tənzimlənir [28, s. 4]. Məhz mediasiya münasibətlərini tənzimləyən müvafiq hüquq normalarının sistemi mediasiya hüquq institutunu yaradır.

II. Qanunvericiliyin təhlili

Mediasiya haqqında mövcud qanunvericiliyə əsasən, mediasiya dedikdə mübahisə tərəfləri arasında yaranmış situasiyanın mediatorun vasitəçiliyi ilə, qarşılıqlı razılıq əsasında həll edilməsi istiqamətində həyata keçirilən proses nəzərdə tutulur [28, s. 3].

Qeyd etməliyik ki, mediasiya prosesinin həyata keçirilməsi prosedurları mediasiya haqqında qanunvericiliklə xüsusi qaydada tənzimlənir. Belə ki, mediasiya prosesi Azərbaycan Respublikasının Ailə Məcəlləsi (1999-cu il), Əmək Məcəlləsi (1999-cu il), Mülki Məcəlləsi (1999-cu il), Mülki-Prosessual Məcəlləsi (1999-cu il), İnzibati Xətalar Məcəlləsi (2015-ci il), İnzibati-Prosessual Məcəlləsi (2009-cu il), "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanunu (2019-cu il), "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu (1999-cu il), Azərbaycan Respublikası Nazirlər Kabinetinin 05.09.2019-cu il tarixli 384 nömrəli Qərarı ilə təsdiq edilmiş "Mediatorların peşəkar etik davranış qaydası", Azərbaycan Respublikası Nazirlər Kabinetinin 05.09.2019-cu il tarixli 385 nömrəli Qərarı ilə təsdiq edilmiş "Mediasiya prosesinin həyata keçirilməsi Qaydası", Mediasiya

Şurasının 15.04.2020-ci il tarixli qərarı ilə təsdiq edilmiş "Mediatorların davranışı ilə bağlı Reqlament", mediasiya təşkilatının daxili nizamnamə qaydası və digər normativ hüquqi aktlara əsasən həyata keçirilir [22; 32].

Mediasiya haqqında qanunvericiliyə görə, mülki işlər və kommersiya münasibətləri (xarici elementli mübahisələr də daxil olmaqla),eləcə də ailə, əmək və inzibati hüquq münasibətlərindən irəli gələn mübahisələr üzrə tərəflər mediasiya prosesində bilavasitə və ya nümayəndələri vasitəsilə iştirak edirlər. Tərəflər mediasiya prosesində vəkillərin, tərcüməçilərin, müvafiq sahədə ekspert və mütəxəssislərin köməyindən, eləcə də informasiya hüquqlarından [15] istifadə edə bilərlər. Tərəflərin razılaşması ilə mediasiya prosesində digər şəxslərin də iştirak etməsi mümkündür (MHQ, maddə 24.4) [20, s. 22]. Burada söhbət mediasiya prosesində daha çox iştirak edən təmsilçi (müvəkkil) şəxs kimi vəkildən gedir.

Fiziki və hüquqi şəxslərə yüksək keyfiyyətli hüquqi yardımın göstərilməsi üzrə vəkillik fəaliyyətinin əsas prinsipləri, vəkillərin hüquqi statusu və onların özünüidarəsinin əsasları "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikasının 28 dekabr 1999-cu il tarixli 783-IQ nömrəli Qanunu (VFQ) ilə müəyyən edilir [18, s. 20; 13; 29].

Belə bir məqamı xüsusilə qeyd etməliyik ki, məhkəmə icraatı prosesindən fərqli olaraq, mediasiya proseduru tarixi faktlar, milli mentalitet, səbəbiyyət əlaqələri, mübahisə edən tərəflərin hüquqları və arqumentləri nəzərə alınmaqla, tam fərqli bir konsepsiyaya əsaslanır [8, s. 85-115]. Belə ki, qeyd edilən amillər mübahisə edən tərəflər arasında barışıq sazişi əldə etmək üçün əsas sayılmır, yəni burada mühakimə vəziyyəti yaranmır. Sözügedən konsepsiyanın düzgün dərk edilməsi, təbii ki, hüquqi yardım göstərən şəxslərin mediasiya prosesində konstruktiv iştirakı və mübahisə edən tərəflərə proses ərzində effektiv dəstək verilməsi üçün olduqca aktualdır. Mediasiya prosesində əsas diqqət mübahisə edən tərəflərin gələcəkdə yarana biləcək ehtiyac, mənafe və maraqlarına fokuslanır. Eyni zamanda, tərəflər üçün onların bir-birini qarşılıqlı başa düşmək və mübahisəni təfsilatı ilə dərk etmək məqsədilə interaktiv format və əməkdaşlıq şəraiti yaradılır; belə şəraitdə tərəflər mübahisə üzrə müvafiq həll yolu imkanı əldə edirlər. Belə hal mediator tərəfindən idarə edilən və asanlaşdırılan, xüsusi struktura malik olan, qeyri-rəsmi və könüllü xarakter daşıyan müəyyən bir prosesdə təzahür edir.

Mübahisə işi üzrə mediasiya prosesində aktiv əməkdaşlıq və konstruktiv yanaşma təqdim edən yardımçı şəxslər mediasiyanı idarə edən mediatorlara araşdırılan problem üzrə razılaşma variantlarına fokuslanmaqda səmərəli köməklik göstərməklə, tərəflərin real maraq, tələb və ehtiyaclarını daha əhatəli şəkildə ehtiva edən barışığın əldə olunmasına dəstək verə bilərlər. Söhbət mediasiya prosesində təmsilçilik institutundan gedir [3, s. 8-14].

Mediasiya prosesinə fokuslanmağın, eləcə də onu aydın dərk etməyin bir neçə üsulu mövcuddur ki, həmin üsullardan biri "mediasiya hərəkətlərini" mübahisə edən tərəflərin tələb və maraqlarını daha aydın müəyyənləşdirməyə, eləcə də situasiyanı ətraflı şərh etməyə müvafiq imkan yaradan effektiv proses kimi nəzərdən keçirməkdən ibarətdir.

Məlum olduğu kimi, mediasiya prosesində mübahisələndirilən məsələ üzrəhər bir tərəfin irəli sürdüyü tələbin, mövqenin, xahişin altında maraq vardır. Azərbaycan dilinin izahlı lüğətinə görə, maraq bir şeyə diqqət göstərmək, bir şeyi bilmək, öyrənmək həvəsi, meyili, arzusu deməkdir [11, s. 235].

Mübahisələrin alternativ həlli mediasiya prosesi vasitəsilə həyata keçirilir. Mediasiya prosesi dedikdə mübahisə üzrə qərar qəbuletmə prosesi, tələblər irəli sürən və öz mövqelərini, maraqlarını arqumentlər ilə əsaslandıran tərəflər arasında formalaşan qarşılıqlı təsir mexanizmi başa düşülür. Lakin, mediasiya prosesi mərhələlərinin əsasında duran fundamental reallıq ondan ibarətdir ki, mübahisə tərəfləri yalnız onların mövqelərinin necə qəbul edilməsindən deyil, həm də onların maraqlarının necə təmin edilməsindən asılı olaraq, müvafiq qərar qəbul edirlər.

Mediasiyasahəsindəki bilikləri ötürmək və iştirakçıların mediasiyasahəsindəki bacarıqlarını yeniləmək üçün "ADR Center"in mediasiya mərhələləri üzrə metodologiyası uzunmüddətli praktikaya əsaslanaraq, mediasiya prosesinin mərhələlərini aşağıdakı kimi fərqləndirir: hazırlıq, birgə sessiya, fərdi sessiyalar və yekun sessiya [12, s. 44-45; 25].

Göstərilən dörd əsas mərhələ mediasiya haqqında sorğunun – müraciətin daxil olması tarixindən mediasiya prosesininyekunlaşması vaxtına qədər xronoloji ardıcıllıqla bölünür. Belə ki, mediasiyaya müraciətlə bağlı proses mediatorun və tərəflərin "hazırlanması" ilə başlayır - birinci mərhələ, birgə açılış sessiyası və ya "məlumatlandırma" mərhələsi ilə davam edir - ikinci mərhələ. Növbəti üçüncü mərhələ olan fərdi sessiyalar da, faktiki olaraq, iki etapdan ibarətdir – "araşdırma" və "danışıqlar". Yekun mərhələ isə yekun sessiyadır - dördüncü mərhələ; bu mərhələyə tərəflərin razılıq əldə edə bilib-bilməməsindən asılı olmayaraq, mediasiya prosesinin yekunlaşdırılması üçün lazım olan bütün zəruri işlərin həyata keçirilməsi daxildir.

Mediasiya hüquq institutunun xüsusi hissəsi müəyyən struktur tərkib hissələrdən ibarətdir ki, mediasiya prosesinin əsasları subinstitutu onlardan biri sayılır [8, s. 8-45]. Mediasiya prosesinin əsasları dedikdə mübahisələrin alternativ həll (MAH) və mediasiyaya müraciət, mübahisələrin yaranma səbəbləri, təhlili və dinamikası, mübahisələrin yaranmasının və həll edilməsinin mərhələləri, mübahisələrin həllinə psixoloji maneələr, mediasiyaya müraciətin formaları, mediasiya prosesi və onun mərhələləri, eləcə də mediasiyanın həyata keçirilməsi ilə bağlı yaranan digər münasibətləri tənzimləyən hüquq normalarının sistemi başa düşülür.

Mediasiya prosesinin ilkin, yəni başlanğıc mərhələsi məhz mediasiyaya müraciətdən başlayır. Məlum olduğu kimi, cəmiyyətdə tarixən mübahisələrin alternativ həll (MAH) spektri təşəkkül tapmışdır. Mediasiya da unikal proses olaraq, MAH spektrinin əhatə dairəsinə daxildir. Mediasiya haqqında qanunvericiliyə görə, mediasiya dedikdə mediatorun (mediatorların) vasitəçiliyi ilə tərəflər arasında yaranmış mübahisənin qarşılıqlı razılıq əsasında həlli ilə bağlı müəyyən olunan proses nəzərdə tutulur [28, s. 3]. Bu kontekstdə mediasiyaya müraciət proseduru xaotik şəkildə deyil, qanunvericiliklə müəyyənləşdirilmiş

qaydada normativ hüquqi aktlar əsasında həyata keçirilir. Bu mövzunun araşdırılmasında əsas məqsəd də məhz bu aspektin tədqiq edilməsindən ibarətdir.

Eyni zamanda, hüquq ədəbiyyatı səhifələrində göstərilir ki, mübahisələrin həlli üzrə proseslərdə aşağıda göstərilən formatlar ehtimal edilir [12, s. 10-18]:

-transformativ mediasiya;

-asanlaşdırıcı mediasiya;

-qiymətləndirici mediasiya;

-zərərçəkmiş-təqsirkar mediasiyası;

-Ombudsman proqramları üçün mediasiya;

-məhkəmə mediasiyası və s.

Mediasiyanın həyata keçirilməsi üçün ilkin şərt kimi tərəflər arasında yaranmış və ya yarana biləcək mübahisə faktoru çıxış edir. Söhbət mülki işlər və kommersiya mübahisələri (xarici elementli mübahisələr də daxil olmaqla), ailə münasibətlərindən irəli gələn mübahisələr, əmək münasibətlərindən irəli gələn mübahisələr və inzibati hüquq münasibətlərindən irəli gələn mübahisələrdən gedir (MHQ, maddə 3). Mediasiya qanunvericiliyində təsbit edilmiş hüquq normalarına uyğun olaraq, ailə və əmək münasibətlərindən irəli gələn mübahisələr üzrə məhkəməyə müraciət etməmişdən əvvəl ilkin mediasiya sessiyasında iştirak tələb olunur (MHQ, maddə 28, 29). Ona görə də, müvafiq mübahisəyə baxılması üçün mediasiyaya müraciət ilkin mərhələ kimi vacib əhəmiyyət kəsb edir.

Qeyd etməliyik ki, mübahisəictimai münasibətlərin tərkib hissəsi kimi, adətən, tərəflərin eyni bir məsələ ilə bağlı ziddiyyətli maraqlara malik olduqlarına inandıqda əmələ gəlir [16, s. 16-30]. Başqa sözlə ifadə etsək, mübahisə - fikirlərin, mövqelərin, mülahizələrin uzlaşmayaraq kəsişməsidir və bu zaman tərəflər öz mövqeyini müdafiə edərək qarşı tərəfin dəlillərini və ya arqumentlərini təkzib etməyə çalışır. İctimai münasibətlər inkişaf edərək mürəkkəbləşdikcə, mübahisələrin də qəlizliyi və əmələgəlmə səbəbləri daha da çoxalır. Göstərilən bu amillər mübahisənin yaranmasına və ağırlaşmasına, eyni zamanda, onun praktik və hüquqi həllinə də təsir edir.

Mübahisənin məzmununu təşkil edən aspektləri, şərti olaraq, iki qrup üzrə fərqləndirmək mümkündür:

1. Mübahisənin "məqsədi" (motiv və arqumentləri) və açıq aspektləri;

2. Mübahisənin aşkar olmayan (görünməyən) və aşkar edilməli olan "subyektiv" aspektləri.

Bu, o deməkdir ki, mübahisə edən tərəflər tətbiq ediləcək mediasiya qanunvericilik aktlarına, sübutedici amillərə, faktlara və mövcud situasiyaya, habelə mübahisənin görünən aspektlərinə aktiv diqqət yetirməklə öz hüquqi mövqelərini formalaşdırırlar; belə vəziyyəti aktiv yanaşma da adlandırmaq olar. Bununla yanaşı, mübahisə tərəfləri mübahisənin əsl səbəb və motivlərini, həmçinin mübahisənin narahatlıqlar, qavrayışlar, qorxular, emosiyalar, duyğular, ehtiyaclar, dəyərlər və ya maraqlar kontekstində müəyyən edilən subyektiv aspektləri nəzərdən qaçırırlar; belə mövqeyə passiv yanaşma deyilir.

Qeyd edilən amillər mediasiyaya ilkin müraciət zamanı nəzərə alınarsa, həm mübahisə edən tərəflər, həm də mediator mübahisənin əsl mahiyyətini, mövcud situasiyanı və özlərinin həmin mübahisənin əmələ gəlməsində rollarını daha yaxşı və aydın anlaya bilərlər.

Mediasiyaya müraciətin normativ hüquqi tənzimlənməsi ilə bağlı məsələ üzrə qeyd etməliyik ki, mediasiyaya müraciət proseduru həyata keçirilərkən müəyyən mediasiya münasibətləri yaranır. Yaranan bu cür münasibətlər müvafiq mediasiya-hüquq normaları vasitəsi ilə qaydaya salınaraq tənzimlənir. Müvafiq mediasiya-hüquq normaları isə, əsasən, aşağıda göstərilən normativ hüquqi aktlarda təsbit olunmuşdur:

- "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanunu [28, s. 18-31]. Adıçəkilən qanunda (MHQ) mediasiyaya müraciətlə bağlı ictimai münasibətləri tənzimləyən müvafiq hüquq normaları öz əksini tapmışdır. Bu kontekstdə, məsələn, aşağıdakıları göstərə bilərik: maddə 21.5 – mediasiya prosesi barədə təklifin göndərilməsi, maddə 21.6 – tərəflərdən birinin mediasiya prosesinin tətbiqi barədə zəruri məlumatların və ya yazılı formada təklifin qarşı tərəfə göndərilməsi, maddə 21.7 – göndərilmiş təklif 10 gün ərzində cavablandırılmadıqda və ya hər hansı formada rədd edildikdə mediasiya prosesinə avtomatik xitam verilməsi, maddə 29.1 – ilkin mediasiya sessiyasında iştirak etmək üçün müraciət edən tərəflərə mediator tərəfindən mediasiya prosesinin mahiyyətinin, üstünlüklərinin və qaydalarının izah edilməsi, tərəflərlə birgə və ayrılıqda görüşlər keçirilməsi, maddə 31.1 – məhkəmə mediasiyası zamanı məhkəmə icraatı müddətinin dayandırılması, maddə 35.1 – mediasiya prosesi tətbiq edildikdə tərəflər arasında mübahisə üzrə qanunla nəzərdə tutulan iddia müddəti axımının dayandırılması və s. müddəalar;

- Azərbaycan Respublikasının Mülki Məcəlləsi [19, s. 268-273]. Sözügedən normativ hüquqi aktın (MM), məsələn, XVIII fəsli (maddə 372-384) "İddia müddəti" adlanır. Burada iddia müddətinə anlayış verilir, habelə iddia müddətinin müəyyənləşdirilməsi, iddia müddətinin tətbiqi və s. məsələlər barədə müddəalar yer almışdır. Belə ki, başqa şəxsdən hər hansı hərəkəti yerinə yetirməyi və ya yerinə yetirməkdən çəkinməyi tələb etmək hüququna müddət şamil edilir. Hüququ pozulmuş şəxsin iddiası ilə hüququn müdafiəsi üçün müddət iddia müddəti sayılır. Ümumi iddia müddəti on il, müqavilə tələbləri üzrə iddia müddəti üç il, daşınmaz əşyalarla bağlı müqavilə tələbləri üzrə iddia müddəti altı il, vaxtaşırı icra edilməli öhdəliklərdən irəli gələn tələblər üzrə iddia müddəti isə üç il təşkil edir. Tələblərin ayrı-ayrı növləri üçün MM ilə ümumi müddətə nisbətən qısaldılmış və ya uzadılmış xüsusi iddia müddətləri təyin edilə bilər. Bu qaydalar, əgər qanunla ayrı hal müəyyənləşdirilməyibsə, xüsusi iddia müddətlərinə də şamil edilir və s.;

- Azərbaycan Respublikasının Mülki-Prosessual Məcəlləsi [20, s. 33-221]. Bu məcəllədə (MPM) mediasiyaya müraciət proseduru həyata keçirilən zaman faydalı ola biləcək kifayət qədər müvafiq hüquq normaları təsbit edilmişdir. Məsələn, MPM-in X fəsli (maddə 128-133) prosessual müddətlərə, XVIII fəsli

(maddə 254-258) iş üzrə icraatın dayandırılması, XX fəsli (maddə 261-262) iş üzrə icraata xitam verilməsi barədə müddəalara həsr olunmuşdur və sairə;

- Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi (İXM). İnzibati hüquq münasibətlərindən irəli gələn mübahisələrlə bağlı mediasiyaya müraciət prosesinin həyata keçirilməsi zamanı İXM-də təsbit edilmiş müvafiq hüquq normalarından istifadə oluna bilər [21, s. 62-93]. Məsələn, göstərilən məcəllənin III bölməsi "İnzibati xətalar haqqında işlər üzrə icraat" adlanır (maddə 48-98). Həmin bölmədə inzibati xətalar haqqında işlər üzrə icraata dair ümumi müddəalar, inzibati xətalar haqqında işlər üzrə icraatın iştirakçıları, onların hüquq və vəzifələri, inzibati xəta haqqında iş üzrə sübutlar və onların qiymətləndirilməsi, eləcə də icraatla bağlı digər tədbirlərin təmin edilməsi istiqamətində praktiki cəhətdən vacib müddəalar ehtiva olunur və s.;

- Azərbaycan Respublikasının İnzibati-Prosessual Məcəlləsi [18, s. 368-430]. Məcəllədə (İPM) prosessual müddətlər, proses iştirakçıları, iddianın növləri, iddia müddəti və s. barədə müvafiq hüquq normaları təsbit edilmişdir (maddə 22-39) ki, onlar da mediasiyaya müraciət prosesində əhəmiyyət kəsb edə bilər;

- Azərbaycan Respublikasının Ailə Məcəlləsi [24]. Adəçəkilən normativ hüquqi aktda (AM) ailə hüquqlarının müdafiəsi (maddə 7), ailə münasibətlərindən irəli gələn mübahisələrin mediasiya vasitəsilə həlli (maddə 7-1), ailə münasibətlərinə iddia müddətinin tətbiqi (maddə 8) və s. ilə bağlı müddəalar yer almışdır;

- Azərbaycan Respublikasının Əmək Məcəlləsi [32]. Məcəllədə (ƏM) göstərilir ki,fərdi əmək mübahisələri mediasiya vasitəsilə həll oluna bilər. Fərdi əmək mübahisələri ilə bağlı məhkəməyə müraciət etməmişdən əvvəl "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada ilkin mediasiya sessiyasında iştirak tələb olunur (maddə 294). Fərdi əmək mübahisələrinin həllində iddia müddətləri xüsusi qaydada tənzimlənir. Belə ki, məsələn, işçi öz hüququnun pozulduğunu aşkar etdiyi gündən etibarən 3 təqvim ayı ərzində fərdi əmək mübahisələrinə baxan orqana müraciət edə bilər; həmçinin ziyan vurulmaqla bağlı yaranmış əmək mübahisələrinin həlli üçün işçi, hüququnun pozulduğunu aşkar etdiyi gündən etibarən 1 il ərzində məhkəməyə müraciət edə bilər. İşçilərin həyat və sağlamlığına vurulmuş zərərin ödənilməsi haqqında tələblərə iddia müddəti şamil edilmir.Göstərilən müddətlər üzürlü səbəblərdən – iddiaçının xəstələnməsi, ezamiyyətdə, yaşayış yerindən kənarda məzuniyyətdə olması, yaxın qohumunun ölməsi və digər obyektiv hallarla bağlı səbəblərdən ötürülərsə, fərdi əmək mübahisəsinə baxan orqan buraxılmış müddəti bərpa edərək mübahisəyə mahiyyəti üzrə baxa bilər. Eyni zamanda, ƏM-də qeyd edilir ki,iddiaçının «yaxın qohumu» dedikdə, işçinin atası, anası, babası, nənəsi, əri (arvadı), uşaqları, bacıları, qardaşları, qudaları, ərinin (arvadının) valideynləri, qardaşları, bacıları başa düşülməlidir (maddə 296). Məcəllədə həmçinin müəyyən edilmişdir ki, mediasiya prosesinin tətbiqi ilə əlaqədar iddia müddətinin axımının dayandırılması məsələsi MHQ ilə müəyyən edilir və s.;

- "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanunu [27, s. 136]. Bu normativ hüquqi aktda da (VMQ) mediasiyaya

müraciətlə bağlı münasibətlərin tənzimlənməsində əhəmiyyətli ola biləcək müvafiq hüquq normaları təsbit edilmişdir. Məsələn, müraciət etmək hüququ (maddə 1), vətəndaşların müraciətlərinə dair tələblər (maddə 6), vətəndaşların yazılı müraciətlərinin qəbulu, qeydiyyatı və onlara baxılması qaydası (maddə 7), müraciətə baxılması müddəti (maddə 10) və s. müddəalar;

- Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Qərarları [30]. Mediasiya fəaliyyətinin həyata keçirilməsi ilə bağlı münasibətlərin nizama salınmasında müvafiq hüquq normalarının şərh edilməsinə dair adıçəkilən orqanın qərarları hüququn mənbəyi kimi mühüm rol oynayır. Nümunə qismində aşağıdakı qərarları göstərə bilərik: məsələn, Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Mülki Məcəlləsinin 373.2 və 384.0.4-cü maddələrinin şərh edilməsinə dair" 3 iyun 2013-cü il tarixli Qərarı (Qərarda qeyd edlir ki, MM-in 384.0.4-cü maddəsində nəzərdə tutulan əşya hüquqlarının müdafiəsi ilə əlaqədar tələblərə iddia müddətinin şamil edilməməsi kredit müqavilələrindən yaranan münasibətlərə aid edilə bilməz); Konstitusiya Məhkəməsi Plenumunun"Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 155-ci maddəsinin həmin Məcəllənin 4.3–4.6, 55.2, 152.1.6 və 152.1.6-1-ci maddələri ilə əlaqəli şəkildə şərh edilməsinə dair" 14 dekabr 2022-ci il tarixli Qərarı (Qərarda deyilir ki, Azərbaycan Respublikası Konstitusiyasının 60-cı maddəsinin I hissəsində təsbit edilmiş məhkəmə müdafiəsi hüququnun təmin edilməsi məqsədi ilə, Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 155.1-ci maddəsinə uyğun olaraq, ilk iddia ilə birlikdə baxılmaq üçün qarşılıqlı iddia verən cavabdehdən həmin Məcəllənin 4.3–4.6-cı maddələrinə əsasən kommersiya mübahisələri, həmçinin ailə və əmək münasibətlərindən irəli gələn mübahisələr üzrə məhkəməyə qədər nizamlama qaydalarına (pretenziya və mediasiya) riayət edilməsi tələb olunmur) və digər qərarlar;

- Azərbaycan Respublikası Ali Məhkəməsinin Qərarları [31]. Mediasiya fəaliyyətinin həyata keçirilməsi ilə bağlı yaranan münasibətlərin tənzimlənməsi istiqamətində Ali Məhkəmənin göstərdiyi mütəmadi diqqət və qəbul etdiyi qərarlar vacib əhəmiyyət kəsb edir. Belə ki, 2022-ci il 28 yanvar tarixində Azərbaycan Respublikası Ali Məhkəməsində Mediasiya Şurasının idarə heyətinin üzvləri və aidiyyəti struktur qurumlarının üzvləri ilə müvafiqdiskussiyalar keçirilmiş, eləcə də iclasda "Mediasiya haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqindən irəli gələn və məhkəmələrdə mediasiya fəaliyyəti ilə bağlı yaranmış aktual məsələlərin müzakirəsi aparılmışdır. Görüş zamanı "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 3 aprel tarixli Fərmanına uyğun olaraq, həyata keçirilən məhkəmə-hüquq islahatlarının yeni mərhələsinin əsas məqsədinin hüquq sisteminin müasir dövrün tələblərinə cavab verən inkişafına nail olunması, Mediasiya Şurasının yaradılmasının və mediasiya fəaliyyətinin həyata keçirilməsinin məhz bu istiqamətdə görülmüş mühüm addım kimi qiymətləndirilməsi, xüsusilə, vurğulanmışdır. Bu sırada Ali Məhkəmənin bir neçə Plenum qərarlarının adlarını çəkmək yerinə düşər: "İnzibati mübahisələrə dair işlər üzrə məhkəmə qaydasında tətbiq edilən müvəqqəti xarakterli müdafiə

tədbirləri haqqında" Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun Qərarı (04.10.2023-cü il); "İnzibati mübahisələrə dair işlər üzrə məhkəmə qaydasında tətbiq edilən müvəqqəti xarakterli müdafiə tədbirləri haqqında" Qərarın tətbiqi ilə bağlı məhkəmələrin fəaliyyətinin monitorinqinin aparılmasına dair Ali Məhkəmə Plenumunun Qərarı (04.10.2023-cü il); Vahid məhkəmə təcrübəsi baxımından əhəmiyyətli olan məhkəmə aktlarının indeksləşdirilməsi Qaydaları (04.11.2023-cü il); "Xarici elementli kommersiya mübahisələrində qanunvericiliyin tətbiqi təcrübəsi haqqında" Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun Qərarı (14.12.2023-cü il); "Xarici elementli kommersiya mübahisələrində qanunvericiliyin tətbiqi təcrübəsi haqqında" Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 2023-cü il 14 dekabr tarixli 16 nömrəli Qərarının tətbiqi ilə bağlı məhkəmələrin fəaliyyətinin monitorinqinin aparılmasına dair Plenum Qərarı (14.12.2023-cü il) və sair qərarlar.

III. Nəticə

Beləliklə, yuxarıda göstərilənləri nəzərə alaraq, doktrinal müstəvidə qeyd edə bilərik ki, mediasiyaya müraciət hüquqi qurum kimi mediasiya prosesinin əsasları subinstitutunun tərkibində yer almışdır. Deməli, mediasiyaya müraciət anlayışı özündə mülki işlər üzrə mübahisələri (xarici elementli mübahisələr də daxil olmaqla), eləcə də ailə münasibətlərindən, əmək münasibətlərindən və inzibati hüquq münasibətlərindən irəli gələn mübahisələrin mediasiya təşkilatlarında həlli üçün mediasiyaya müraciətlə bağlı yaranan ictimai münasibətləri tənzimləyən hüquq normalarının sistemini ehtiva edir. Belə yanaşma beynəlxalq praktikaya da uyğundur [10; 14] və insan hüquqlarının təmin olunması kontekstində effektiv vasitə kimi əhəmiyyətli rol oynayır [1].

Müasir dövrdə mübahisələrin alternativ həlli üsullarından olan mediasiyanın təşkili və həyata keçirilməsi fonunda fiziki və hüquqi şəxslərin bu istiqamətdə maariflənməsi, vətəndaş cəmiyyətində hüquqi düşüncə və mediasiya mədəniyyətinin formalaşması baxımından, bu məqalə aktual olaraq mühüm əhəmiyyət kəsb edir.

Eyni zamanda, təqdim olunan məqalə formalaşmaqda olan mediasiya hüquq elminə (doktrinaya) əhəmiyyətli töhfədir və ali məktəb tələbələri, müəllimlər, hüquqşünaslar, mediasiya hüquq elmi sahəsində çalışan mütəxəssislər, praktik işçilər, ekspertlər və digər şəxslər üçün də faydalı ola bilər.

REFERENCES:

1. Adilov N. The positive impact of mediation reforms in Azerbaijan on the protection of human rights // Police Academy of the Ministry of Internal Affairs of the Republic of Azerbaijan. Materials of the international scientific-practical conference *Actual problems of human rights in the modern era* dedicated to the 74th anniversary of the Universal Declaration of Human Rights. Baku, 27 Dec 2022, pp. 21-25 (in Azerbaijani – *Adilov N. Azərbaycanda mediasiya islahatlarının insan hüquqlarının müdafiəsinə müsbət təsiri // Azərbaycan*

Respublikası Daxili İşlər Nazirliyi Polis Akademiyası. Ümumdünya insan hüquqları Bəyannaməsinin 74 illiyinə həsr olunmuş "Müasir dövrdə insan hüquqlarının aktual problemləri" mövzusunda keçirilən Beynəlxalq elmi-praktiki konfransın (27 dekabr 2022-ci il) materialları. Bakı,"Bakı" nəşriyyatı, 2022, s.21-25).

2. Aliyev A.I. Human Rights. Second edition. Baku: "Nurlar" Publishing House, 2019. 352 p (in Azerbaijani – *Əliyev Ə.İ. İnsan hüquqları. Dərslik. Yenidən işlənmiş və əlavələr edilmiş ikinci nəşr. Bakı: «Nurlar» nəşriyyatı, 2019, 352 s*).
3. Aliyev E.A., Huseynova F.E. The representation in the mediation process. Azerbaijani Lawyer Law Review, 2023-№1(22), 114 p (in Azerbaijani – *Əliyev E.Ə., Hüseynova F.E. Mediasiya prosesində təmsilçilik // "Azərbaycan Vəkili" elmi-praktik hüquq jurnalı. 2023-№1(22). 114 s*).
4. Aliyev Heydar – founder of the independent Azerbaijan state. Collection of articles. *In* Aliyeva A.E., Huseynova F.E. Baku: SkyE Publishing, 2021. 558 p (in Azerbaijani – *Heydər Əliyev: müstəqil Azərbaycan dövlətinin banisi. Məcmuələr toplusu / Müəllif-tərtibçilər: Əliyeva A.E., Hüseynova F.E. Bakı,SkyE nəşriyyat-poliqrafiya müəssisəsi, 2021, 558 s*).
5. Aliyev H. "Our independence is forever". Book 1-46. Baku: Azərnəşr, 1997-2013 (in Azerbaijani – *Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. 1 – 46 kitab. Bakı: Azərnəşr, 1997-2013*).
6. Aliyev I. "Our aim is development". Book 1-126. Baku: Azərnəşr, 2003-2024 (in Azerbaijani – *Əliyev İlham. İnkişaf - məqsədimizdir. 1 – 126 kitab. Bakı: Azərnəşr, 2003-2024*).
7. Aliyev Z.H., Aliyev E.A., Huseynova F.E. The meditation law of Azerbaijan: General Part. Baku: "Zardabi Nashr" LLC, 2023, 352 p (in Azerbaijani – *Əliyev Z.H., Əliyev E.Ə., Hüseynova F.E. Azərbaycan Respublikasının mediasiya hüququ: ümumi müddəalar. Dərs vəsaiti. Bakı, "Zərdabi-Nəşr" MMC, 2023, 352 s*).
8. Aliyev Z.H., Aliyev E.A., Huseynova F.E. The meditation law of Azerbaijan: Special Part. Baku: "Zardabi Nashr" LLC, 2024, 198 p (in Azerbaijani – *Əliyev Z.H., Əliyev E.Ə., Hüseynova F.E. Azərbaycan Respublikasının mediasiya hüququ: xüsusi hissə. Dərs vəsaiti. Bakı, "Zərdabi-Nəşr" MMC, 2024, 198 s*).
9. Aliyev Z.H. The European Court of Human Rights. Baku: "AZSEA" Publishing, 2012. 232 p (in Azerbaijani – *Əliyev Z.H. Avropa İnsan Hüquqları Məhkəməsi. Dərs vəsaiti. Bakı,"AZSEA" nəşriyyatı, 2012, 232s*).
10. Basic mediation training. Proceedings Book. *In* Prof. Dr. Ali Yeşilırmak, Dr. Elif Kısmet Kekeç, Alper Bulur. Ankara: Arcs Matbaacılık, 2021, 229 p (in Turkish – *Temel arabuluculuk eğitimi. Katılımcı Kitabı / Kitap editörleri: Prof. Dr. Al i Yeşilırmak, Dr. Elif Kısmet Kekeç, Alper Bulur. T.C. Ankara, Arcs Matbaacılık, 2021, 229 s*).

11. Dictionary of the Azerbaijani language. Volume II. *In* Prof. Ağamus Axundov. Baku: Çıraq, 2000. P. 235 (in Azerbaijani – *Azərbaycan dilinin izahlı lüğəti. II cild / Filologiya elmləri doktoru, professor Ağamusa Axundovun redaktəsi ilə. Bakı, "Çıraq", 2000, s.235*).
12. D'Urso L., Qavrila K.-A. Book for the main participants of the mediation process. Baku: ADR Center, 2020. Pp. 112-113 (in Azerbaijani – *Leonardo D'Urso, Konstantin-Adi Qavrila. Mediasiyanın əsas iştirakçılarının təlimi üçün tədris vəsaiti. Bakı, ADR Center, 2020, 112 s*).
13. Eggert M.A., Falzon V. Resolving conflicts. October, 2003. 113 p. URL: https://shorturl.at/aA9TF (last access 30.03.2024).
14. Legit-Supra Law Firm. Basic provisions and legal analysis of the Singapore Mediation Convention (in Russian – *Legit-Supra. Основные положения и правовой анализ Сингапурской Конвенции о медиации*). URL: https://www.supralegit.com/ru/ (last access 06.04.2024).
15. Mammadrzali Sh.S. Information rights in national mediation law and practice: some notes on a preliminary scholarly approach (in Azerbaijani – *Məmmədrzalı Ş.S. Milli mediasiya qanunvericiliyində və təcrübəsində informasiya hüquqları: ilkin elmi yanaşma üzrə bəzi qeydlər*). URL:https://yenilik.az/cemiyyet/24347-mll-medasya-qanunverclynde-ve-tecrubesnde-nformasya-huquqlar-lkn-elm-yanashma-uzre-bez-qeydler.html (last access 03.04.2024).
16. Mirzayev N. Mediation: Theory and Azerbaijani practice. Baku: ADR Center, 2020. Pp. 16-30 (in Azerbaijani – *Mirzəyev N. Mediasiya. Nəzəriyyə və Azərbaycan təcrübəsi. Bakı, ADR Center, 2020, s.16-30*).
17. Naghiyeva L. The role of mediation in the resolvation of the disputes. Azerbaijani Lawyer Law Review, 2016-№9. Pp. 2-6 (in Azerbaijani – *Nağıyeva L. Mübahisələrin həllində mediasiyanın rolu // "Azərbaycan Vəkili" jurnalı, IX nömrə. Bakı, 2016, s. 2-6*).
18. The Administrative Procedural Code of Azerbaijan. *In* PhD Karimli B.J. Baku: Hüquq Yayın Evi, 2016. Pp. 368-430 (in Azerbaijani – *Azərbaycan Respublikasının İnzibati-Prosessual Məcəlləsi / Buraxılışa məsul: B.C.Kərimli. Bakı, "Hüquq Yayın Evi", 2016, s.368-430*).
19. The Civil Code of Azerbaijan. *In* PhD Karimli B.J. Baku: Hüquq Yayın Evi, 2016. Pp. 268-273 (in Azerbaijani – *Azərbaycan Respublikasının Mülki Məcəlləsi / Buraxılışa məsul: B.C.Kərimli. Bakı, "Hüquq Yayın Evi", 2016, s.268-273*).
20. The Civil Procedural Code of Azerbaijan. *In* PhD Karimli B.J. Baku: Hüquq Yayın Evi, 2016. Pp. 33-221 (in Azerbaijani – *Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsi / Buraxılışa məsul: B.C.Kərimli. Bakı, "Hüquq Yayın Evi", 2016, s.33-221*).

21. The Code of the administrative offences of Azerbaijan. *In* PhD Karimli B.J. Baku: Hüquq Yayın Evi, 2016. Pp. 62-93 (in Azerbaijani – *Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi / Buraxılışa məsul: B.C.Kərimli, hüquq üzrə fəlsəfə doktoru . Bakı, "Hüquq Yayın Evi", 2016, s.62-93*).
22. The Collection of Legislative acts of the Republic of Azerbaijan. Baku, 2019, № 9, art. 1539 (in Azerbaijani – *Azərbaycan Respublikasının Qanunvericilik Toplusu. Bakı, 2019, № 9, maddə 1539*).
23. The Constitution of the Republic of Azerbaijan. Baku: "N" Publishing House, 2015. 52 p (in Azerbaijani – *Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: «N» nəşriyyatı, 2015, 52 s*).
24. The Family Codex of the Republic of Azerbaijan (in Azerbaijani – *Azərbaycan Respublikasının Ailə Məcəlləsi*).
URL: https://www.e-qanun.az/framework/46946 (last access 01.04.2024).
25. The methodology of the mediation. *In* Farzaliyev A. Baku: "Digital Fortress" LLC, 2023. 328 p (in Azerbaijani – *Mediasiyanın metodologiyası / Buraxılışa məsul şəxs: Əli Fərzəliyev. Bakı, "Digital Fortress" MMC, 2023, 328 s*).
26. The Law on Advocates and Advocacy activities. *In* PhD Karimli B.J. Baku: Hüquq Yayın Evi, 2020. 20 p (in Azerbaijani – *"Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu / Buraxılışa məsul: B.C.Kərimli. Bakı, "Hüquq Yayın Evi", 2020, 20 s*).
27. The Law on Citizens' applications. The Collection of the normative-legal acts. *In* PhD Karimli B.J. Baku: Hüquq Yayın Evi, 2017. 136 p (in Azerbaijani – *"Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanunu. Normativ hüquqi aktlar toplusu / Buraxılışa məsul: B.C.Kərimli, hüquq üzrə fəlsəfə doktoru . Bakı, "Hüquq Yayın Evi", 2017, 136 s*).
28. The Law on Mediation. *In* PhD Karimli B.J. Baku: Hüquq Yayın Evi, 2019. 36 p (in Azerbaijani – "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanunu / Buraxılışa məsul: B.C.Kərimli. Bakı, "Hüquq Yayın Evi", 2019, 36 s).
29. URL: https://barassociation.az/ (last access 06.04.2024).
30. URL: https://constcourt.gov.az/az/decisions (last access 01.04.2024).
31. URL: https://supremecourt.gov.az (last access 02.04.2024).
32. URL: https://www.e-qanun.az/framework/46946 (last access 03.04.2024).

Normative legal regulation of application to mediation in the modern period

ETIBAR ALIYEV*

Abstract

In the article, the issue of the normative legal regulation of mediation in modern times is considered in a scientific context. It is noted that certain mediation relations are created during the mediation application procedure. Such relations that arise are regulated by means of relevant mediation-legal norms. The relevant mediation-legal norms are mainly established in the following normative legal acts: Constitution of the Republic of Azerbaijan, Civil Code of the Republic of Azerbaijan, Civil-Procedural Code of the Republic of Azerbaijan, Law of the Republic of Azerbaijan "On Mediation", Family Code of the Republic of Azerbaijan, Labor Code of the Republic of Azerbaijan, Code of Administrative Offenses of the Republic of Azerbaijan, Administrative-Procedural Code of the Republic of Azerbaijan, Constitution of the Republic of Azerbaijan Decisions of the Court, relevant decisions of the Supreme Court of the Republic of Azerbaijan, etc.

Keywords: *alternative resolution of disputes, mediation process, parties to the dispute, appeal to mediation, normative legal regulation, mediation-legal norms.*

Нормативно-правовое регулирование применения к медиации в современный период

ЭТИБАР АЛИЕВ**

Резюме

В статье вопрос нормативно-правового регулирования медиации в современное время рассматривается в научном контексте. Отмечается, что в ходе процедуры применения медиации создаются определенные медиационные отношения. Возникающие такие отношения регулируются посредством соответствующих медиативно-правовых норм. Соответствующие медиативно-правовые нормы закреплены в основном в следующих нормативно-правовых актах: Конституция Азербайджанской Республики, Гражданский Кодекс Азербайджанской Республики, Гражданско-Процессуальный Кодекс Азербайджанской Республики, Закон Азербайджанской Республики «О медиации», Семейный Кодекс Азербайджанской Республики, Трудовой Кодекс Азербайджанской Республики. Кодекс об административных правонарушениях Азербайджанской Республики, Административно-процессуальный Кодекс Азербайджанской Республики, решения Конституционного суда Азербайджанской Республики, соответствующие решения Верховного суда Азербайджанской Республики и т.д.

Ключевые слова: *альтернативное разрешение споров, процесс медиации, стороны спора, обращение к медиации, нормативно-правовое регулирование, медиативно-правовые нормы.*

Redaksiyaya daxil olma tarixi: 30.04.2024
Çapa qəbul: 23.09.2024

* Doctor of Laws, Professor / Baku State University / email: a-etibar@rambler.ru

** Доктор юридических наук, профессор / Бакинский Государственный Университет / email: a-etibar@rambler.ru

MƏHKƏMƏNİN HÖKM VƏ YA QƏRARLARINA YENİ AÇILMIŞ HALLAR ÜZRƏ BAXILMASI ÜÇÜN ƏSASLAR

LALƏ MƏMMƏDOVA*

Annotasiya

Bu məqalədə Azərbaycan Respublikasının Cinayət prosesində xüsusi icraatların bir növü olan yeni açılmış hallar üzrə icraatın əsasları araşdırımışdır. Yeni açılmış hallara görə məhkəmənin hökm və qərarlarına yenidən baxılması qanuni qüvvəyə minmiş düzgün olmayan (səhv) hökmün çıxarılması və işin istintaqı və məhkəmə baxışı zamanı mövcud olan, lakin istintaq aparan şəxsə və ya işə mahiyyəti üzrə baxan məhkəməyə məlum olmayan yeni halların aşkar edilməsi ilə əlaqədar olaraq baş verir. Azərbaycan Respublikasının Cinayət Prosessual Məcəlləsinin 54-cü fəsli yeni açılmış hallar üzrə icraata həsr olunmuşdur. Həmin fəslin ilk maddəsi olan 461-ci maddə məhkəmənin hökm və ya qərarlarına yeni açılmış hallar üzrə baxılması üçün əsaslara həsr edilmişdir. Lakin göstərilən maddə yeni açılmış hallara leqal anlayış təsbit etməmişdir. Bu baxımdan da təklif edərdik ki, Azərbaycan Respublikasının qüvvədə olan Cinayət Prosessual Məcəlləsinin 461-ci maddəsinə yeni açılmış hallar üzrə icraatla bağlı dəyişiklik olunsun və həmin instituta aşağıdakı məzmunda leqal anlayış verilsin: "yeni açılımış hallar üzrə icraat dedikdə, məhkəmənin qanuni qüvvəyə minmiş hökmünü və ya digər hər hansısa bir yekun qərarının dəyişdirilməsini mümkün edən elə hallardır ki, həmin hallar əvvəllər - nə ibtidai istintaq dövründə, nə də cinayət mühakimə icraatının digər mərhələlərində müəyyən olunmamışdır".

Açar sözlər: *yeni açılmış hallar, ədalət mühakiməsi, Ali Məhkəmə, məhkəməyə müraciət etmək hüququ, yeni hökmlər, kassasiya instansiyası.*

I. Giriş

İnsan və vətəndaşların hüquq və azadlıqlarının tanınması, onlara riayət edilməsi və müdafiəsinin dövlətin ən başlıca vəzifəsi hesab edən prinsip Azərbaycan Respublikasının Konstitusiyasında birbaşa təsbit olunmuşdur. Belə ki, Konstitusiyanın 12-ci maddəsinə əsasən, insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi dövlətin ali məqsədi elan olunmuşdur və Konstitusiyada sadalanan insan və vətəndaş hüquqları və azadlıqlarının Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun tətbiq edilməsi göstərilmişdir.

Azərbaycan Respublikasının Konstitusiyasının 60-cı maddəsinə əsasən, hər kəsin hüquq və azadlıqlarının mühakimədə müdafiəsinə təminat verilir. İstər Əsas Qanunumuzda və ona uyğun qəbul edilmiş edilmiş digər milli qanunvericilik aktlarında, istərsə də beynəlxalq hüquqi aktlarda ən təməl haqlardan biri kimi məhkəmə müdafiəsi hüququna təminat verilir. Bu həm də ona görə müstəsna dərəcədə önəm kəsb edir ki, digər hüquq və azadlıqların təminatı da son mərhələdə məhkəmə müdafiəsi hüququ ilə kəsişir, başqa sözlə, bu hüququn mahiyyəti bərabərində pozulmuş hüquq və azadlıqların məhkəmə vasitəsilə bərpa ediləcəyinə dair gözləntini təlqin edir.

* Hüquq üzrə fəlsəfə doktoru / Bakı Dövlət Universiteti, Hüquq fakültəsi / email: lala.mammadova-11@bsu.edu.az

Konstitusiyanın 60-cı maddəsində nəzərdə tutulan məhkəmə müdafiəsi təminatı ilə bağlı rəhbər müddəa yalnız birinci instansiyada məhkəmə müdafiəsinin təmin olunmasını deyil, onun həmçinin apellyasiya və kassasiya instansiyalarında həyata keçirilməsini də özündə ehtiva edir. Hər hansı məhkəmə instansiyasına şikayət etmək hüququ məhkəmə müdafiəsi hüququndan irəli gəlir.

Bununla belə, məhkəmə müdafiəsi hüququnun vacibliyi bu hüququn mütləq xarakter daşıması anlamına gəlmir və qanunvericiliklə müəyyənləşdirilmiş hədlərdə məhdudlaşdırıla bilər.

İnsan Hüquqları üzrə Avropa Məhkəməsi bir sıra qərarlarında yuxarı instansiya məhkəmələrində aparılan icraatın mümkünlüyü və hədlərinin qanuni məhdudiyyətlərə məruz qala bilməsini yolverilən hesab etmişdir. Golder Birləşmiş Krallığa qarşı iş üzrə Qərarında Avropa Məhkəməsi vurğulamışdır ki, məhkəməyə əlçatanlıq hüququ mütləq deyil və dolayı şəkildə yol verilən məhdudiyyətlərə məruz qala bilər. Bu xüsusilə də şikayətin qəbuledilənlik şərtlərinə aiddir, çünki bu məsələ təbiət etibarı ilə, həmin sahədə müəyyən mülahizə sərbəstliyinə malik olan dövlət tərəfindən tənzimlənmə tələb edir.

Məhkəməyə müraicət etmək hüququnun əsassız məhdudlaşdırılması və ya nəzərdə tutulmaması son nəticədə Konstitusiyada müdafiəsinə təminat verilən hüquqların bəyanedici xarakter daşıdığına dəlalət etmiş olur.

Hüquq və vəzifələrin həcminin prosessual qaydalar çərçivəsində məhdudlaşdırılması hüquqi müəyyənlik prinsipinin təmin edilməsinə, məhkəmə icraatı zamanı işdə iştirak edən şəxslərin qarşılaşa biləcəkləri hüquqi qeyri-müəyyənliyin aradan qaldırılmasına, ədalət mühakiməsinin daha səmərəli və ədalətli həyata keçirilməsinə xidmət etməli, Konstitusiyada təsbit olunmuş hüquq və azadlıqları heç bir halda ləğv etməməlidir.

Mövcud prosessual qanunvericilik normalarında şəxslərin hər hansı instansiya məhkəməsinə müraciət hüququnun realizəsi ilə bağlı prosedur qaydalar həmin məhkəmələrdə aparılan icraatın spesifikası nəzərə alınmaqla tənzimlənir. Müraciət edənin həmin qaydalara riayət etməməsi onun tələbinin (iddia ərizəsi, apellyasiya və ya kassasiya şikayətləri) məhkəmə baxışına çıxarılmasını mümkünsüz edir və məhkəmənin bu cür davranışa qarşı reaksiyası müraciətin növündən və məhkəmə instansiyasından asılı olaraq "geri qaytarma", "imtina" və ya "mümkün sayılmama, qeyri-mümkün hesab edilmə" kimi formaca fərqli, məzmunca oxşar aktlarla ifadə edilir.

Cinayət mühakimə icraatında ədalət mühakiməsini bütün məhkəmə instansiyalarında konstitusion prinsiplərə əsaslanmaqla, qanunvericiliklə müəyyən edilmiş prosessual formada təqsirləndirilən şəxsin təqsirliliyi və onun cəzalandırılması məsələsinin həll edilməsinə istiqamətlənmiş, cinayət işlərinə baxılması yolu ilə, yalnız məhkəmələr tərəfindən həyata keçirilən hüquqtətbiqedici fəaliyyət kimi göstərmək olar.

Ədalət mühakiməsinin yalnız məhkəmələr tərəfindən həyata keçirilməsi prinsipi «Məhkəmələr və hakimlər haqqında» Azərbaycan Respublikasının qanununda, eləcə də Azərbaycan Respublikasının CPM-də də (maddə 23) təsbit

edilmişdir. Bundan əlavə, o da qeyd edilməlidir ki, bu prinsip beynəlxalq hüququn prinsipi kimi də çıxış edir. Belə ki, bu prinsip bir çox beynəlxalq hüquqi sənədlərdə, xüsusilə də 1948-ci il tarixli Ümumdünya Insan Hüquqları Bəyannaməsində, 1966-cı il tarixli Mülki və Siyasi Hüquqlar Haqqında Beynəlxalq Paktda, 1985-ci il tarixli Məhkəmə orqanlarının müstəqilliyinə aid olan Əsas Prinsiplərdə, 1990-cı il tarixli Məhkəmə orqanlarının müstəqilliyinin əsas prinsiplərinin səmərəli həyata keçirilməsi Proseduralarında öz əksini tapmışdır.

II. Müvafiq qanunvericiliyinin təhlili

Yeni açılmış hallara görə məhkəmənin hökm və qərarlarına baxılması qanuni qüvvəyə minmiş düzgün olmayan (səhv) hökmün və ya qərarın çıxarılmasına səbəb olan və işin istintaqı və məhkəmə baxışı zamanı mövcud olan, lakin istintaq aparan şəxsə və ya işə mahiyyəti üzrə baxan məhkəməyə məlum olmayan yeni halların aşkar edilməsi ilə əlaqədar olaraq baş verir. Azərbaycan Respublikasının Cinayət Prosessual Məcəlləsinin 54-cü fəsli yeni açılmış hallar üzrə icraata həsr olunmuşdur. Həmin fəslin ilk maddəsi olan 461-ci maddə məhkəmənin hökm və ya qərarlarına yeni açılmış hallar üzrə baxılması üçün əsaslara həsr edilmişdir. Lakin göstərilən maddə yeni açılmış hallara leqal anlayış təsbit etməmişdir. Bu baxımdan da təklif edərdik ki, Azərbaycan Respublikasının qüvvədə olan Cinayət Prosessual Məcəlləsinin 461-ci maddəsinə yeni açılmış hallar üzrə icraatla bağlı dəyişiklik olunsun və həmin instituta aşağıdakı məzmunda leqal anlayış verilsin: "yeni açılmış hallar üzrə icraat dedikdə, məhkəmə prosesinin nəticə olaraq qanuni qüvvəyə minmiş hökmünü və ya digər hər hansısa bir yekun qərarının dəyişdirilməsi və ya yenidən baxışın təyin olunması üçün əsasları özündə ehtiva edən elə hallardır ki, həmin hallar əvvəllər cinayət mühakimə icraatının nə məhkəməyədək olan icraatı özündə birləşdirən mərhələlərində, nə də məhkəmə baxışı mərhələsində müəyyən olunmamışdır".

Yeni açılmış hallar üzrə icraat məhkəmələrin qanuni qüvvəyə minmiş hökm və digər yekun qərarlarına əvvəllər aşkar olunmayan, lakin sonradan müəyyən edilmiş hüquqi əhəmiyyətli, yeni aşkar olunmuş hallarla yenidən baxılmasını mümkün edir. İlk baxışdan, yeni açılmış hallar üzrə icraat kassasiya qaydasında icraata bənzəyir, onların hər ikisi məhkəmələrin qanuni qüvvəyə minmiş hökm və digər yekun qərarlarına yenidən baxılmasına yönəlmişdir. Lakin, əslində, onlar bir-birindən tamamilə fərqlənən iki ayrıca icraat növüdür [3, s. 768].

Yeni açılmış hallar üzrə icraat kassasiya icraatından onunla fərqlənir ki, kassasiya icraatında işə icraat üzrə toplanmış və əvvəlki mərhələlərdə məhkəmələrə məlum olan materiallar əsasında baxılır, yeni açılmış hallar üzrə icraatda isə işə əvvəlki mərhələlərdə məhkəmələrə məlum olmayan yeni müəyyən edilmiş və ya yeni məlum olmuş hallar əsasında baxılır. Cinayət mühakimə icraatında yeni açılmış hallar dedikdə, elə hallar nəzərdə tutulur ki, onlar cinayət işi (digər material) üzrə məhkəmə tərəfindən hökm və ya digər yekun qərar qəbul edilən zaman movcud olsalar da, onlar məhkəməyə hələ

məlum olmur. Məhkəməyə sonradan məlum olan halların heç də hamısını yeni açılmış hal kimi qiymətləndirmək olmaz. Yeni açılmış hallar, ilk növbədə, hüquqi əhəmiyyətli olmalıdır. Bu, o deməkdir ki, yalnız məhkəməyə məlum olduğu təqdirdə işin nəticəsinə birbaşa təsir göstərə bilən hallar məhkəmədə icraat zamanı deyil, daha sonra üzə çıxarsa, yeni açılmış hallar kimi qiymətləndirilə bilər.

Yeni açılmış hallar xüsusi icraatların bir növüdür. Xüsusi icraatın bu növünün açılması üçün çıxış edən əsasların rəhbər tutulmalı olan meyarı açılmış halların məhkəmə baxışının həyata keçirilməsi və bunun nəticəsində məhkəmənin qanuni qüvvəyə minmiş hökm və ya digər yekun qəararının olmasıdır. [1, s. 12].

Bəzən milli hüquq ədəbiyyatında yeni açılmış hallar üzrə icraatın xüsusi icraat olub-olmaması mübahisələndirilir. Bəzi müəlliflər yeni açılmış hallar üzrə icraatı Cinayət-Prosessual Məcəlləsinin müstəqil mərhələsi hesab edirlər və onu xüsusi icraatların bir növü kimi qəbul etmirlər. [5, s. 468]. Konstitusiyamızın 64 -ci maddəsinə görə heç kəs eyni əməlin törədilməsinə görə təkrar məhkum edilə bilməz. AR CPM 34-cü maddəsinə görə Cinayət Məcəlləsində nəzərdə tutulan əməlin törədilməsinə görə şəxsin barəsində məhkəmənin qanuni qüvvəyə minmiş hökmü varsa, həmin şəxsin eyni əmələ görə cinayət məsuliyyətinə cəlb edilməsi, cinayət təqibinə məruz qalması, ittahamın irəli sürülməsi və ona daha ağır cəza təyin edilməsi yolverilməzdir. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin 39-cu maddəsi cinatət təqibini istisna edən halları özündə ehtiva edir. Bu hallardan biri də, bir şəxs barəsində eyni cinayət əməlinə görə, eyni ittiham üzrə həm məhkəmənin qanuni qüvvəyə minmiş hökmü və ya məhkəmənin cinayət təqibini həyata keçirilməsini mümkünsüz edən ləğv edilməmiş qərarının olmasıdır. Bu müddəa təkcə məhkmənin çıxardığı yekun qərar və ya hökmə aid deyil, həmçinin istintaq orqanlarının əməkdaşlarının, təhqiqatçının, müstəntiqin və ya prokurorun şəxs barəsində eyni ittiham üzrə cinayət işi başlanmasının rədd edilməsi və ya ona xitam verilməsi haqqında ləğv edilməmiş qərarının olması da eyni əmələ görə cinayət təqibinin həyata keçirilməsini istisna edir. Cinayət mühakimə icraatının prinsipi kimi eyni əmələ görə təkrar məhkum etmənin yolverilməzliyi Azərbaycan Respublikasının Ciinayət-Prosessual Məcəlləsi ilə yanaşı, həm beynəlxalq hüquqi aktlarda, həm Azərbaycan Respublikasının Konstitusiyasında, həm də ayrı-ayrı qanunlarda təsbit edilmişdir. Lakin, yeni açılmış hallar üzrə icraat həm də "Eyni əmələ görə təkrar məhkum etmənin yolverilməzliyi" — "Ne bis in idem" prinsipindən bir istisnadır [12, s. 89]. Bu xüsusi icraat növündə eyni şəxs Cinayət Məcəlləsində nəzərdə tutulan eyni əmələ görə ittiham oluna bilər, onun cinayət təqibi həyata keçirilə bilər, həmçinin məhkəmə baxışı nəticəsində məhkəmənin yekun qərarı və ya hökmü çıxarıla bilər.

Azərbaycan Respublikasının Ciinayət-Prosessual Məcəlləsinin 461-ci maddəsi yeni açılmış hallar üzrə məhkəmənin hökm və ya qərarlarına yenidən baxılmasını təmin edən əsasları müəyyənləşdirir. Bu əsaslardan biri səhv və ya

düzgün olmayan hökm və yekun qərarın çıxarılmasına vasitəçi olan zərərçəkmiş şəxsin, şahidin yalan ifadə verməsi nəticəsində səhv və düzgün olmayan məhkəmənin yekun qərarının çıxarılmasıdır. Həmçinin qeyd etdiyimiz bu müddəa Cinayət Məcəlləsinin 298-ci maddəsi ilə cinayət məsuliyyəti yaradan haldır. CPM-in 461-ci maddəisinin 1-ci bəndində həmçinin ekspertin bilə-bilə yalan rəy verməsi, tərcüməçinin bilə-bilə yalan tərcümə etməsi, maddi sübutların, istintaq və məhkəmə hərəkəti protokolların və digər sənədlərin saxtalığının müəyyən edilməsi təşkil edir.

Yeni açılmış hallar üzrə məhkəmənin hökm və ya qərarlarına yenidən baxılmasını təmin edən əsasların tərkibində cinayət işi, məhkəməyədək sadələşdirilmiş icraatın materialları və yə xüsusi ittiham qaydasında şikayət üzrə icraat zamanı istintaq orqanlarının əməkdaşlarının və ya hakimin hərəkətlərində suiistifadələrin düzgün olmayan (səhv) hökm və ya qərarın çıxarılmasına səbəb olması faktı qeyd olunur. Bir digər əsas isə məhkumun məhkum olunduğu cinayət əməlindən ağırlıq dərəcəsinə görə fərqlənən cinayət törətməsinə və ya onun təqsirsizliyinə, həmçinin bəraət almış şəxsin və ya barəsində cinayət işi, məhkəməyədək sadələşdirilmiş icraatın materialları və ya xüsusi ittiham qaydasında şikayət üzrə icraata xitam verildiyi şəxsin təqsirliliyinə dəlalət edən, hökm və ya qərarın çıxarılması zamanı məhkəməyə və cinayət prosesinin tərəflərinə məlum olmayan, yeni halın aşkar olunması faktı qeyd olunur [2, s. 456].

Azərbaycan Respublikasının CPM-nin müvafiq maddəsinin təhlil edərkən belə bir nəticə gəlmək olur ki, qüvvədə olan qanunvericilik yenidən məhkəmə baxışının təyin olunması əsasları kimi yeni açılmış halların müfəssəl siyahısını vermir. Buna görə də Cinayət-Prosessual Məcəllədə "digər hallar" terminindən istifadə olunur. Biz "digər hallar" ifadəsinə nəzər yetirsək bu zaman, birinci növbədə məhkum olunmuş şəxsin deyil, digər şəxsin cinayət törədilməsində iştirakı və yaxud iş üzrə məhkum olunmuş, cəza çəkməkdə olan və ya artıq cəzasını çəkmiş digər şəxslə cinayətin törədilməsinə aid olan məlumatlar başa düşülür. Hüquq ədəbiyyatına nəzər yetirsək aydın olur ki, "digər hallara" həm də məhkum tərəfindən qanuni qüvvəyə minmiş hökmlə cinayətin tövsifinin dəyişilməsinə imkan verən Cinayət Məcəlləsində nəzərdə tutulan başqa cinayətin edilməsi faktının aşkar edilməsi, ictimai təhlükəli əməli törədərkən təqsirləndirilən şəxsi cinayət məsuliyyətindən azad edən psixi xəstəliyinin olması halının müəyyən olunması, təqsirləndirildiyi cinayətin bu və ya digər hissəsində məhkumun təqsirsizliyi haqqında məlumatlar, əvvəllər istintaq orqanlarına və məhkəməyə məlum olmayan digər şəxslərin eyni cinayətdə iştirakçıların aşkar olunması, şəxsin məhkum olunduğu cinayət nəticəsində vurduğu zərərlə müqayisədə əslində zərərin daha böyük həcmdə olmasının müəyyən edilməsi, məhkumun özünü bilə-bilə, yalan məlumat verərək başqa şəxs kimi təqdim etməsi haqqında məlumatlar, cinayətin törədilməsi ilə bağlı yeni epizodlarının aşkar edilməsi, təqsirləndirilən şəxsin törətdiyi cinayətlə bağlı yetirdiyi bədən xəsarəti nəticəsində zərər çəkən şəxsin ölüm faktının müəyyən edilməsi, digər cinayətlərin istintaqı prosesində iş üzrə ittihamın xarakterinə

mühüm təsir göstərən izahatların alınması, hökmün çıxarılması üçün sübut növü hesab edilən ekspert rəyindən yeni və fərqli ekspert rəyinin alınması, məhkəmə qərarı ilə "ölmüş" hesab edilən şəxsin yaşaması faktının aşkar edilməsi və s. digər hallar hesab edilə bilər [6, s. 119].

Məhkəmə təcrübəsinin öyrənilməsi belə nəticəyə gəlməyə imkan verir ki, əksər işlər Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin müvafiq maddəsində nəzərdə tutulan "digər hallara" terminin özündə birləşdirdiyi əsaslara görə təzələnə bilir. Ümumilikdə, yeni açılmış hallar üzrə icraatın özünəməxsus xüsusiyyətləri, əlamətləri olduqda həyata keçirilir. İlk növbədə qeyd edək ki, yeni açılmış hallara görə məhkəmənin hökm və ya qərarlarına baxılmasının ilk əlaməti məhkəmənin hökmünün və ya qərarının qanuni qüvvəyə minmiş olması faktıdır. Həmçinin, qanuni qüvvəyə minmiş məhkəmənin hökmünün və ya qərarını qanunsuz və ya əsassız hesab edilməsinə səbəb olan halların olması əsaslandırılmalıdır. Belə ki, qanunsuz hökm və ya qərar dedikdə — cinayət-prosessual nnormalara zidd olaraq, qanunun pozulması ilə əldə edilmiş sübutlara görə çıxarılan, qqanunvericiliyin tələblərinin kobud şəkildə pozulması nəticəsində çıxarılan hökm başa düşülür.

İkinci növbədə nəzərdə tutulan "yeni hallar" işin istintaqı və məhkəmə baxışı bitdikdən sonra deyil, həmin iş üzrə məhkəməyədək icraat və ya məhkəmə baxışı zamanı yaxud ondan əvvəl yaranmış olmalıdır.

Üçüncüsü isə yuxarıda qeyd etdiyimiz hallar mövcud olsa belə və yaxud iş üzrə cinayət təqibi zamanı yaransada cinayət prosesini aparan şəxslərin bu hallardan məlumatlarının olmaması faktının çıxış edir.

Hüquq ədəbiyyatında qeyd edilir ki, hökm və ya qərarın çıxarılması zamanı məhkəməyə və cinayət prosesinin tərəflərinə məlum olmayan digər hallara aşağıdakıları aid etmək olar:

a) cinayətin məhkum olunan şəxs tərəfindən deyil, digər şəxs tərəfindən törədilməsi;

b) cinayətin yeni iştirakçılarının aşkar edilməsi; şəxsin sağlamlığa zərər yetirmə əməlinə görə məhkum edildiyi hallarda, zərər çəkmiş şəxsin ölməsi faktının müəyyən edilməsi;

c) məhkumlardan birinin digər məhkum barəsində ittiham hökmünün əsasında duran ifadəsini dəyişməsi;

d) digər bir cinayətin araşdırılması zamanı həmin iş üzrə ittihamın xarakterinə mühüm təsir göstərən məlumatın daxil olması;

e) təqsiri sübut edilmədiyinə görə barəsində bəraət hökmü çıxarılmış şəxsin təqsirsizliyini şübhə altına qoyan sübutların müəyyən edilməsi və s. [7, s. 69].

Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin 462-ci maddəsi məhkəmənin qanuni qüvvəyə minmiş hökm və ya digər qərarlarına yeni açılmış hallar üzrə baxılmasını mümkün edən qərarların siyahısı verilir. Qeyd etmək istərdim ki, məhkəmənin yekun qərarı dedikdə cinayət işi, məhkəməyədək sadələşdirilmiş icraatın materialları və ya xüsusi ittiham qaydasında şikayət üzrə icraata xitam verilməsi haqqında, tibbi xarakterli

məcburi tədbirlərin tətbiq edilməsi haqqında, tərbiyəvi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi haqqında çıxarılan qərarlar nəzərdə tutulur. Məhkəmənin hökmü dedikdə isə, ittiham hökmü və bəraət hökmü nəzərdə tutulur.

Həmçinin, qanunvericilik yeni açılmış hallar üzrə məhkəmənin hökm və ya qərarlarına baxmaq hüququ olan orqanı da müəyyənləşdirmişdir. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin 463-cü maddəsinə əsasən yalnız Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumu bu hüquqa malikdir. Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumunun iş qaydası Azərbaycan Respublikasının "Məhkəmələr və hakimlər haqqında" 10 iyun 1997-ci il tarixli Qanununun 80-ci maddəsi ilə tənzimlənir. Həmin maddənin müddəalarına əsasən, Azərbaycan Respublikasının Ali Məhkəməsinin Plenumu üç ayda bir dəfədən az olmamaq şərti ilə çağırılır və Ali Məhkəmənin Plenumunun iclaslarına Ali Məhkəmənin sədri sədrlik edir.

Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin 464-cü maddəsi yeni açılmış hallarla əlaqədar məhkəmənin hökm və ya qərarına baxılması haqqında ərizə vermək hüququ şəxslərin siyahısını vermişdir.

Qüvvədə olan cinayət-prosessual qanununu təhlil etdiyimiz zaman, məlum olur ki, yeni açılmış hallarla əlaqədar məhkəmənin hökm və ya qərarına baxılması haqqında ərizə dair qanunun tələbləri, bu ərizənin qanuna uyğun şəkildə təqdim edildikdən sonra ərizənin ilkin öyrənilməsi ilə əlaqədar müddəalar qanunda öz əksini tapmışdır. İlk növbədə qeyd edək ki, Ali Məhkəmənin Plenumunun iclaslarına sədrlik edən Ali Məhkəmənin sədri ərizəyə ilkin baxılmasını müvafiq kollegiyanın hakimlərindən birinə tapşırır. Qanuna əsasən hakim ərizəyə ilkin baxılması ilə bağlı iki qərardan birini qəbul edə bilər. Birincisi, ərizədə iddia edilən məhkəmənin hökm və qərarının qanuniliyini şübhə altına alan əsas olmadıqda hakim ərizənin baxılmamış saxlanılması haqqında qərar qəbul edir. İkincisi isə, ərizədə və ya onunla birlikdə təqdim edilən sənədlərdə məhkəmənin qanuni qüvvəyə minmiş qərarının və ya hökmünün əsaslılığını şübhə altına alan hallar müəyyən edilərsə yeni açılmış hallar üzrə məhkəmənin hökm və ya qərarına baxılması haqqında ərizə üzrə icraatın açılması haqqında qərar qəbul edir.

Bundan sonrakı mərhələdə hakim ərizədə qeyd olunan yeni açılmış halların aparılmasını Baş Prokurora tapşıra bilər. Bu araşdırma qanunauyğun olaraq Baş Prokurorun müvafiq qaydada tapşırığı ilə həyata keçirilir. Araşdırmanın nıticəsinə uyğun olaraq, hakim ya mübahisə edilən məhkəmənin qərarına və ya hökmünə yenidən baxılmasını zəruri hesab etməyib, rədd edilməsi haqqında qərar qəbul edir, yaxud da məhkəmənin hökm və ya yekun qərarına yenidən baxılması haqqında ərizə və aparılmış araşdırma materiallarının baxılması üçün AR Ali Məhkəməsini Plenumuna göndərilməsi barədə qərar qəbul edir.

III. Nəticə

Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi ərizəyə ilkin baxan Ali Məhkəmənin müvafiq kollegiyasının hakiminin qərarının qəti olduğunu və ondan şikayət yaxud protest vermək hüququnun olmadığını vurğulayır. Qanunda nəzərdə tutulmuş proseslə bağlı qeyd etmək istərdik ki, ərizəyə ilkin baxılmasını müvafiq kollegiyanın bir hakimi tərəfindən deyil, azı üç hakimdən ibarət tərkibdə baxılmasını daha məqsədəmüvafiq hesab edirik. Həmçinin, qanunda Ali Məhkəmənin müvafiq kollegiyasının hakimi tərəfindən yeni açılmış hallar üzrə məhkəmənin hökm və ya yekun qərarına baxılması üçün verilən ərizənin rədd edilməsinin əsaslandırılması barədə heç bir müddəa yoxdur.

Hesab edirik ki, ərizə yeni açılmış hallar üzrə icraatda Ali Məhkəmənin Plenumunda hakimin hökm və ya qərarının əsaslılığına şübhə yaratmadıqda onun baxılmamış saxlanılması haqqında qərardan şikayət vermə hüququ təmin olunmalıdır. Ali hüququi qüvvəyə malik olan Azərbaycan Respublikasının Konstitusiyasında nəzərdə tutulmuş təkrar məhkəməyə müraciət etmə hüququnun təmin olunması üçün rədd qərarından şikayət və ya protest vermə hüququnun xüsusi icraatların bu növündə reallaşma mexanizmləri müəyyən olunmalıdır.

Fikrimizcə, yeni açılmış hallarla əlaqədar məhkəmənin hökm və ya qərarına baxılması haqqında ərizənin ilkin öyrənilməsindən sonra Ali Məhkəmənin müvafiq kollegiyasının hakiminin qərarından şikayət və ya protest Ali Məhkəmənin sədrinə verilməsi haqqında müddəalar Qanunda öz əksini tapmalıdır.

REFERENCES:

1. Abbasova F.M. Criminal Procedure. Textbook. Special Part. Baku: Legal Publishing House, 2024, 524 pages. (in Azerbaijani).
2. Abbasova F.M. Special procedures in the criminal process. Textbook, Baku: Ecoprint, 2018, 192 p. (in Azerbaijani).
3. Baskov V.I. Reopening of Criminal Cases Based on Newly Discovered Circumstances // State and Law. 1981, No. 12, p. 132 (in Russian).
4. Constitution of the Republic of Azerbaijan, 12 november 1995. URL: https://e-qanun.az/framework/897 (last access 08.04.2024) (in Azerbaijani).
5. Criminal Procedure Code of the Republic of Azerbaijan, 14 July 2000. URL: https://e-qanun.az/framework/89 (last access 08.04.2024) (in Azerbaijani).
6. Commentary on the Criminal Procedure Code of the Republic of Azerbaijan. Baku: Digesta, 2016, 1332 pages (in Azerbaijani).
7. Jafarquliyev M.A. Criminal Procedure of the Republic of Azerbaijan. Baku: Qanun, 2008, 840 pages (in Azerbaijani).

8. Gafarov M.S. Some issues of differentiation of criminal proceedings according to individuals //Scientific and pedagogical news of Odlar Yurdu University. Humanities series, 2013, No. 38, p. 118-130. (in Azerbaijani).
9. Lavrov, V. (2020). Review of judgments due to newly discovered circumstances in the context of the right to a fair trial in civil cases. Entrepreneurship, economy and law, No. 6, pp. 39-43 (in Russian). URL: https://pgp-journal.kiev.ua/archive/2020/6/9.pdf (last access 08.04.2024).
10. Martynenko I.E. Review of Judicial Decisions Based on Newly Discovered Circumstances as a Stage of Economic Judicial Proceedings // Industrial and Commercial Law. 2009, No. 7, pp. 85-92 (in Russian).
11. Zavriev S.S. "Newly Discovered Circumstances" and "New Evidence" in Civil Procedure // Legislation. 2007, No. 3, pp. 67-71 (in Russian).
12. Zeldina, O. and Kolesnik, R. (2017). The institution of review of court decisions for newly disco-vered circumstances. Law and Society, No.4, p.89-95. URL: https://pravoisuspilstvo.org.ua/archive/2017/4_2017/part_1/18.pdf (last access 08.04.2024).

Grounds of re-examination of judgements on newly found circumstances

LALA MAMMADOVA*

Abstract

This research article conducted the grounds of proceedings on newly found circumstances, which are a type of particular proceedings in the criminal process of the Republic of Azerbaijan. According to newly found circumstances, the review of judgments and decisions of the court, which led to the issuance of a legally binding judgment or decision, and which were present during the investigation and trial of the case, but happens due to discovery of new unknown cases by the person who conducted the investigation or the court on the merits of the case. Chapter 54 of the Criminal Procedure Code of the Republic of Azerbaijan is devoted to the proceedings of newly opened cases. The first article - 461 of that chapter is dedicated to the grounds for considering court judgments or decisions in newly found circumstances. However, the specified article did not establish a legal understanding of the newly found circumstances. In this regard, we would suggest that Article 461 of the Criminal Procedural Code of the Republic of Azerbaijan to be amended regarding proceedings on newly opened cases and that institution to be given the following legal meaning: "Proceedings on newly found circumstances, the legally binding judgment of the court or other cases that make it possible to change any final decision are those cases that were not determined before - neither during the preliminary investigation nor at other stages of the criminal proceedings".

Keywords: *newly newly found circumstances, judgement, Supreme Court, the right to appeal, new verdicts, cassation instance.*

* PhD in Law / Baku State University, Law Faculty / email: lala.mammadova-11@bsu.edu.az

Основания для рассмотрения приговоров или постановлений суда по вновь открывшимся обстоятельствам

ЛАЛА МАМЕДОВА[**]

Резюме

В данной статье рассматриваются основания производства по вновь открывшимся обстоятельствам, которые являются разновидностью особых производств в уголовном процессе Азербайджанской Республики. Пересмотр вступивших в законную силу приговоров и постановлений суда по вновь открывшимся обстоятельствам , повлекшее незаконное и необоснованное вынесение правового приговора или постановления происходит в связи с обнаружением новых, неизвестных обстоятельств дела лицу, проводившего расследование или суду. Глава 54 Уголовно-процессуального Кодекса Азербайджанской Республики посвящена производству по вновь открывшимся обстоятельствам. Первая 461 статья этой главы посвящена основаниям рассмотрения приговоров или постановлений суда по вновь открывшимся обстоятельствам. Однако правового понятия вновь открывшихся обстоятельств указанная статья не определила. В связи с этим предлагаем внести изменения в статью 461 Уголовно-процессуального Кодекса Азербайджанской Республики по производству вновь открывшихся обстоятельств и дать этому институту следующее правовое понятие: «Производство по вновь открывшимся обстоятельствам, это обстоятельства, которые позволяют изменить приговор или окончательное решение суда вступивших в законную силу, которые не были определены ранее - ни в ходе предварительного следствия, ни на других стадиях уголовного процесса".

Ключевые слова: *вновь открывшиеся обстоятельства, судебное разбирательство, Высший суд, право обращения в суд, новые приговоры, кассационная инстанция.*

Redaksiyaya daxil olma tarixi: 15.04.2024
Çapa qəbul: 23.09.2024

[**] Доктор философии по праву / Бакинский Государственный Университет, юридический факультет / email: lala.mammadova-11@bsu.edu.az

***Leyla Həşimova*.** Maddi mədəni irs obyektlərinin beynəlxalq dövriyyəsi: beynəlxalq və milli hüquqi tənzimetmə // Azərbaycan Hüquq Jurnalı. 2024 (№2), s. 40-48. DOI: 10.61638/LYFD3248

МЕЖДУНАРОДНОЕ ПРАВО

МЕЖДУНАРОДНЫЙ ОБОРОТ МАТЕРИАЛЬНЫХ ОБЪЕКТОВ КУЛЬТУРНОГО НАСЛЕДИЯ: МЕЖДУНАРОДНОЕ И НАЦИОНАЛЬНОЕ ПРАВОВОЕ РЕГУЛИРОВАНИЕ

ЛЕЙЛА ГАШИМОВА*

Резюме

В статье рассмотрены вопросы международного и национального правового регулирования международного оборота материальных объектов культурного наследия на основе анализа их специфических особенностей и направлений с учетом имеющегося в юридической литературе разнообразия мнений. Проведен сравнительный анализ со ссылкой на важные международные документы и национальные законодательные акты Азербайджанской Республики. Указанный анализ можно считать важным в совершенствовании вопросов международного и национального правового регулирования международного оборота материальных объектов культурного наследия. Поэтому, наряду с сближением национальных законодательства государств в упомянутой здесь сфере, большое значение имеет дальнейшее совершенствование международных нормативно-правовых актов, включая принятие новых международно-правовых документов.

Açar sözlər: *материальное культурное наследие, международный оборот, международное сотрудничество, международные обязательства, ответственности государств.*

I. Введение

Одним из важных вопросов, связанных со сферой культурного наследия, является регулирование международно-правового оборота объектов материального культурного наследия. Как справедливо отмечается в юридической литературе, здесь необходим взаимный анализ международных и национальных правовых норм. Это важно для того, чтобы национальное законодательство было адаптировано к международным стандартам, а также потому, что при сравнительном анализе происходит более тесное сближение и устраняются имеющиеся коллизии между законодательствами различных государств [1, с. 61].

Прежде всего, необходимо уточнить значение понятий культурное наследие и культурные ценности. Определение культурных ценностей четко выражено в Конвенции «О защите культурных ценностей в случае вооруженного конфликта» от 14 мая 1954 года. Однако, в этом документе не был применен широкий подход к культурному наследию.

Несколько иной и более широкий подход к этому вопросу закреплен в другом международном документе – Конвенции «О мерах, направленных на запрещение и предупреждение незаконного ввоза, вывоза и передачи

* Доктор философии по праву / Бакинский Государственный Университет, Юридический факультет / email: hashimova_leyla@hotmail.com

права собственности на культурные ценности» от 17 ноября 1970 года. В ней отмечается, что культурными ценностями считаются ценности религиозного или светского характера, которые рассматриваются каждым государством как представляющие значение для археологии, доисторического периода, истории, литературы, искусства и науки и которые относятся к перечисляемым 15 категориям (статья 1 Конвенции) [14].

Внесение этих понятий в национальное законодательство государств следует рассматривать как положительный момент. При этом необходимо учитывать национальные особенности, что приводит к дальнейшему расширению понятия. Материальное культурное наследие – это совокупность движимых и недвижимых объектов, которые имеют большое значение с течением времени, отражают устойчивые и постоянные черты культуры и имеют большое значение для народа и общества в целом. Необходимо разделить движимое и недвижимое культурное наследие. Упомянутая выше концепция также отражена в Законе Азербайджанской Республики «О культуре» от 21 декабря 2012 года. Так, в этом Законе используются понятия национального культурного наследия, материального культурного наследия, нематериального культурного наследия, недвижимого культурного наследия, движимого культурного наследия, подводного культурного наследия и т.д. (статья 1) [10].

Хотя в юридической литературе существуют разные подходы к этому вопросу, в целом охрана культурного наследия предполагает комплексную деятельность, осуществляемую для восстановления различных аспектов культурного наследия, включая сохранение целостности. В качестве основных целей этой деятельности упоминаются единообразие культурного наследия, защита его принадлежности и неразделимости, важность культурного наследия, повышение информированности на местном, национальном и международном уровнях и обеспечение международного сотрудничества в этой области.

II. Государственная политика и международное сотрудничество

Одним из важных моментов является формирование государственной политики в соответствии с международным правом в этом направлении. Здесь особое место занимают охрана и обогащение культурного наследия, его популяризация, выявление, систематизация, сотрудничество с соответствующими международными и национальными институтами, предотвращение любых действий, направленных против культурного наследия.

Государственная политика в области культурного наследия должна реализовываться во взаимодействии с внешней и внутренней политикой. Эту политику следует определить путем разъяснения особенностей и целей международного сотрудничества в сфере культурного наследия.

Международное сотрудничество в сфере культурного наследия является одним из приоритетных направлений деятельности каждого государства. Такое сотрудничество осуществляется посредством участия в международных организациях и международных соглашениях. В частности, в практике Азербайджанской Республики международное сотрудничество развивается в направлении укрепления и расширения позиций в сфере культурного наследия, членства в соответствующих международных организациях и ратификации важных международных соглашений.

Принятие соответствующих мер против умышленного повреждения или уничтожения объектов культурного наследия, имеющего большое значение для человечества, независимо от того, внесено ли оно в список ЮНЕСКО или других международных организаций, а также запрещение и предотвращение любых действий или бездействия, приводящее к этому, принятие соответствующих мер по задержанию и наказанию лиц, совершивших это деяние, должны быть одними из основных направлений деятельности каждого государства. Ответственность государств, не принимающих соответствующие меры в этой сфере, может быть расценена как нарушение положений принципа добросовестного выполнения международных обязательств [9, с. 120-122]. Этот вопрос необходимо проанализировать с учетом «Проекта статей об ответственности государств за международно-противоправные деяния» 2001 года. Так, статья 4 этого документа гласит, что поведение любого органа государства рассматривается как деяние государства независимо от положения этого органа в государственной системе и от того, выполняет ли он какую-либо функцию (6). В соответствии со Статьей 2 Конвенции ЮНЕСКО 1970 года «О мерах, направленных на запрещение и предупреждение незаконного ввоза, вывоза и передачи права собственности на культурные ценности», государства-участники признают, что незаконные ввоз, вывоз и передача права собственности на культурные ценности являются одной из главных причин обеднения культурного наследия стран происхождения этих ценностей и что международное сотрудничество является одним из наиболее действенных средств обеспечения охраны принадлежащих им культурных ценностей от всех связанных с этим опасностей [14].

Таким образом, государства должны предпринять определенные шаги для предотвращения незаконных действий против объектов культурного наследия. К таким незаконным действиям относятся: незаконное присвоение объектов и образцов культурного наследия в любой форме; действия, связанные с незаконными раскопками, в том числе изъятие и вывоз объектов культурного наследия, извлеченных в ходе незаконных раскопок, материального культурного наследия, незаконно присвоенного на территории другого государства или вывезенного с нарушением законодательства этого государства; ввозить объекты, вывозить из государства материальные объекты культурного наследия с

нарушением правил экспорта; не возвращать временно вывезенные материальные объекты культурного наследия на территорию государства, которому они принадлежат; продавать незаконно присвоенные, незаконно ввезенные или вывоз материальных объектов культурного наследия; фальсификация документов, связанных с объектами культурного наследия; уничтожение или повреждение объектов культурного наследия, в том числе нарушение правил их использования и т.д.

Кроме того, можно определить отдельные обязательства и по другим направлениям, в том числе по охране культурного наследия, включая международный оборот объектов культурного наследия, определив их в рамках ЮНЕСКО и других международных организаций. Например, обмен опытом и информацией в сфере культурного наследия, сближение национального законодательства в этой области, реализация соответствующих мероприятий по включению объектов и образцов культурного наследия в списки всемирного наследия, выявление и представление списков культурного наследия, находящихся под угрозой исчезновения, участие в международных информационных системах и т.д.

Также необходимо учитывать нормы международного гуманитарного права [8, с. 840-844]. Принимая его во внимание, можно сделать вывод, что во время вооруженных конфликтов перемещение объектов материального культурного наследия с территории конфликтующего государства в нарушение международного права считается незаконным [5, с. 326-332]. Точно также, согласно уголовному законодательству Азербайджанской Республики, ряд деяний, совершенных в ходе вооруженных конфликтов, являются нарушениями норм международного гуманитарного права. Например, умышленное уничтожение материальных объектов культурного наследия, совершение актов вандализма или иной формы грабежа; незаконный вывоз материальных объектов культурного наследия с территории конфликта либо передача или прекращение права собственности на материальные объекты культурного наследия на этой территории; проведение любых археологических раскопок на оккупированной территории, за исключением случаев, когда требуется непосредственная охрана, учет или хранение объектов материального культурного наследия; модификация и изменение вида использования объектов материального культурного наследия с целью сокрытия или уничтожения их культурного, исторического или научного характера. В соответствии со статьей 116 Уголовного Кодекса Азербайджанской Республики, которая называется «Нарушение норм международного гуманитарного права во время вооруженного конфликта» [4], указанные деяния относятся к действиям по нарушению норм международного гуманитарного права во время вооруженного конфликта. В международной судебной практике имеются достаточное число примеров правоприменения [13, с. 70].

Статья 11 Конвенции ЮНЕСКО 1970 года «О мерах, направленных на запрещение и предупреждение незаконного ввоза, вывоза и передачи права собственности на культурные ценности» гласит, что считаются также незаконными принудительные вывоз и передача права собственности на культурные ценности, являющиеся прямым или косвенным результатом оккупации страны иностранной державой [14]. Соответствующие положения по данному вопросу закреплены также в пункте 32 Рекомендаций ЮНЕСКО 1956 года о международных принципах, применимых к археологическим раскопкам.

III. Сравнительный анализ законодательства Азербайджанской Республики с международными договорами

Согласно законодательству Азербайджанской Республики, движимые и недвижимые объекты культурного наследия классифицируются соответствующим образом и включаются в государственный список охраняемых объектов: движимое культурное наследие охраняется в музеях, архивах, фондах, на выставках и других соответствующих местах, а недвижимое материальное культурное наследие охраняется в большинстве случаев в местах, где оно установлено и построено в соответствии с настоящим Законом. Объекты материального культурного наследия также классифицируются по их значимости и содержанию, включая примеры культурного наследия, относящиеся к мировому, национальному и местному наследию. Под мировым наследием понимаются объекты, имеющие уникальное значение для человечества (флора, фауна и геологические ландшафты, четко отграниченные зоны с местами обитания животных и растений, исторические города, памятники архитектуры и т. д.).

Что касается анализа вопросов, связанных с международным оборотом материальных объектов культурного наследия, то здесь следует уделить особое внимание ряду моментов. Прежде всего, если говорить о практике Азербайджанской Республики, следует отметить, что международная торговля объектами материального культурного наследия осуществляется в соответствии с национальным законодательством и международными соглашениями, стороной которых является Азербайджанская Республика. Обычно, согласно международной практике, объекты движимого культурного наследия и их отдельные части могут рассматриваться как предмет международной торговли. Следует особо отметить, что объекты материального культурного наследия, внесенные в государственный список, не могут быть предметом международной торговли. В этом отношении опыт зарубежных стран практически аналогичен. Кроме того, объектом международной торговли не могут быть археологические, в том числе подводные объекты культурного наследия [7]. Соответствующие положения также отражены в Гражданском Кодексе Азербайджанской Республики (статья 187) [3].

Государство имеет преимущественное право при приобретении объектов материального культурного наследия. Но объекты материального культурного наследия, зарегистрированные государством, могут быть вывезены только в том случае, если государство не использует преимущественное право на их приобретение. При этом следует отметить, что объекты материального культурного наследия, включенные в государственный список, могут быть вывезены лишь временно, в случаях реставрационных работ, их показа на выставках, презентациях и других культурных мероприятиях.

Государство имеет право отказать во временном вывозе объектов материального культурного наследия в случаях: опасности нанесения вреда материальными объектам, если это не считается целесообразным (например, если в стране, из которой он вывозится, существует военный конфликт и т.п.); если при временном вывозе не гарантирован возврат объекта культурного наследия; в случае вооруженного конфликта, чрезвычайной ситуации или каких-либо непредотвратимых обстоятельств, препятствующих временному вывозу материального объекта культурного наследия в надлежащем состоянии и т.д.

Объекты материального культурного наследия обуславливают наличие ряда международных обязательств государства, которое их вывозит по отношению к государству, из которого они вывозятся. Например, охрана материального объекта культурного наследия, позволяющая вернуть его в страну, из которой он был привезен, и т.д. Экспортирующая сторона обязана действовать в соответствии с законодательством этой страны, включая правила транзита и т.д.

IV. Заключение

С учетом особенностей, связанных с обеспечением прав собственности в соответствующем порядке, присвоение материальных объектов культурного наследия в любой форме против воли собственника считается незаконным. К ним могут относиться: вывоз материальных объектов культурного наследия с территории государства с нарушением правил вывоза и передача прав собственности на эти объекты другому лицу; временный вывоз материальных объектов культурного наследия с территории государства, но не возвращенный в установленный срок; ввоз на территорию другого государства материальных объектов культурного наследия, незаконно присвоенных на территории другого государства или вывезенных с нарушением законодательства этого государства; и т.д.

Совершение этих действий должно привести к ответственности как на международно-правовом, так и на национальном уровне. Согласно национальному законодательству, возникновение правонарушений в сфере культурного наследия влечет за собой уголовную, административную, гражданскую и материальную ответственность. Кроме того, следует

отметить, что санкции за уголовные или административные правонарушения не исключают применения гражданско-правовых средств. Статья 12 Конвенции ЮНЕСКО 1970 года «О мерах, направленных на запрещение и предупреждение незаконного ввоза, вывоза и передачи права собственности на культурные ценности» гласит, что государства-участники примут соответствующие меры для запрещения и предупреждения незаконных ввоза, вывоза и передачи права собственности на культурные ценности на таких территориях [14].

Привлечение виновных к уголовной ответственности за незаконные действия, совершенные против культурного наследия во время войны или вооруженных конфликтов, не исключает международно-правовой ответственности виновного государства, к которому принадлежат эти лица [2, с. 394, 438-440]. Таким образом, согласно принципу международного уголовного права, ответственность государства и физических лиц в этом направлении должна оцениваться отдельно [7, с. 191-192]. В этой связи следует упомянуть международную судебную практику, решения специальных международных трибуналов и, наконец, практику Международного уголовного суда. Согласно международной практике и теории, международно-материальная юридическая ответственность государства осуществляется в форме реституции в отношении незаконно вывезенных материальных объектов культурного наследия, заместительной реституции или компенсации в отношении разграбленных материальных объектов культурного наследия [12, с. 395]. Кроме того, каждое государство имеет право поднимать на международном уровне вопрос о возвращении объектов культурного наследия, незаконно присвоенных в ходе военных конфликтов, в том числе о предотвращении фальсификации в этой сфере, требовать принятия соответствующих мер по восстановлению этих объектов, определение ответственности и другие вопросы.

REFERENCES:

1. Aliyev A.I. Human Rights. Textbook. Baku, Nurlar, 2019, 352 p (in Azerbaijani / Əliyev Ə.İ. İnsan hüquqları. Dərslik. Bakı, Nurlar, 2019, 352 s.).
2. Batyr V.A. International humanitarian law. Textbook. Moscow, ZAO Yustitsinform. 2011, 688 p (in Russian / Батыр В.А. Международное гуманитарное право. Учебник. Москва, ЗАО Юстицинформ, 2011, 688 с.).
3. Civil Code of the Republic of Azerbaijan.
4. URL: https://e-qanun.az/framework/46944 (last access 12.04.2024).
5. Criminal Code of the Republic of Azerbaijan.
6. URL: https://e-qanun.az/framework/46947 (last access 13.04.2024).
7. David E. Principles of law of armed conflicts. Lectures. Moscow, ICRC, 2011, 1144 p (in Russian / Давид Э. Принципы права вооруженных конфликтов. Курс лекций. Москва, МККК, 2011, 1144 с).

8. Draft Articles on the Responsibility of States for Internationally Wrongful Acts, 2001.
9. Huseynov L.H. International law. Textbook. Baku, ABU, 2008, 240 p (in Azerbaijani / Hüseynov L.H. Beynəlxalq hüquq. Dərslik. Bakı, ABU, 2008, 240 s.).
10. International law. Textbook. Ed Kuznetsov V.I and Tuzmuhammedov B.R. Moscow, Norma, 2007, 944 p (in Russian / Международное право. Учебник. Ответственные редакторы В.И.Кузнецов, Б.Р.Тузмухамедов. Москва, Норма, 2007, 944 с.).
11. International law. Textbook. Ed Vylegazhin A.N. Moscow, Vyssheye Obrazovanie, Yurayt-Izdat, 2009, 1012 p (in Russian / Международное право. Учебник. Ответственный редактор. А.Н. Вылегжанин. Москва, Высшее образование, Юрайт-Издат, 2009, 1012 с.).
12. Law on Culture.
13. URL: https://e-qanun.az/framework/25303 (last access 14.04.2024).
14. Law on the Protection of Historical and cultural monuments.
15. URL: https://e-qanun.az/framework/3526 (last access 14.04.2024).
16. Lukashuk I.I. Law of international obligations. Moscow, Wolters Kluwer Russia, 2004, 404 p (in Russian / Лукашук И.И. Право международной ответственности. Москва, Wolters Kluwer Russia, 2004, 404 с.).
17. Sterio M. Individual criminal responsibility for the destruction of religious and historic buildings: The Al Mahdi case // Case Western Reserve Journal of International Law, 2017, Vol. 49, Issue 1.
18. URL: https://scholarlycommons.law.case.edu/jil/vol49/iss1/6 (last access 12.04.2024).
19. The UNESCO 1970 Convention on the Means of Prohibiting and Preventing the Illicit Import, Export and Transfer of Ownership of Cultural Property.

Maddi mədəni irs obyektlərinin beynəlxalq dövriyyəsi:
beynəlxalq və milli hüquqi tənzimetmə

LEYLA HƏŞİMOVA*

Annotasiya

Məqalədə maddi mədəni irs obyektlərinin beynəlxalq dövriyyəsinin beynəlxalq və milli hüquqi tənzimlənməsi məsələləri onların spesifik xüsusiyyətlərinin və istiqamətlərinin təhlili əsasında hüquq ədəbiyyatda mövcud olan fikir müxtəlifliyi nəzərə alınmaqla araşdırılmışdır. Məqalədə qeyd edilən məsələlər mühüm beynəlxalq sənədlərə və Azərbaycan Respublikasının milli qanunvericilik aktlarına istinadən müqayisəli təhlillə aparılmışdır. Qeyd edilən təhlillər maddi mədəni irs nümunələrinin beynəlxalq dövriyyəsinin beynəlxalq və milli hüquqi

* Hüquq üzrə fəlsəfə doktoru / Bakı Dövlət Universiteti, Hüquq fakültəsi / email: hashimova_leyla@hotmail.com

tənzimlənməsi məsələlərinin təkmilləşdirilməsində əhəmiyyətli hesab edilə bilər. Belə ki, burada qeyd edilən sahədə dövlətlərin milli qanunvericiliklərinin yaxınlaşması ilə bərabər, beynəlxalq normativ-hüquqi aktların daha da təkmilləşdirilməsi, o cümlədən yeni beynəlxalq -hüquqi sənədlərin qəbul edilməsi mühüm əhəmiyyət kəsb edir.

Açar sözlər: *maddi mədəni irs, beynəlxalq dövriyyə, beynəlxalq əməkdaşlıq, beynəlxalq öhdəliklər, dövlətin məsuliyyəti.*

International circulation of material cultural heritage objects: international and national legal regulation

LEYLA HASHIMOVA*

Abstract

In the article, the issues of international and national legal regulation of the international circulation of material cultural heritage objects are conducted based on the analysis of their main features and directions with the diversity of opinions in the legal literature. Besides, in the article, comparative analyzes are made with reference to important international documents and national legislative acts of the Republic of Azerbaijan. The mentioned analyzes can be considered important in improving the issues of international and national legal regulation of the international circulation of material cultural heritage samples. So, along with the convergence of the national legislations of the states in the field mentioned here, the further improvement of international normative-legal acts, including the adoption of new international-legal documents, is of great importance.

Keywords: *material cultural heritage, international circulation, international cooperation, international obligations, responsibility of states.*

Redaksiyaya daxil olma tarixi: 25.04.2024
Çapa qəbul: 23.09.2024

* Ph.D. in Law / Baku State University, Law faculty / email: hashimova_leyla@hotmail.com

Gülnaz Rzayeva. Konstitusiyaya dəyişikliyə zərurət varmı: Azərbaycanda informasiya sahəsində hüquq və azadlıqlara dair normalarda ziddiyyətlər // Azərbaycan Hüquq Jurnalı. 2024 (№2), s. 49-62. DOI: 10.61638/ZMSK2137

İNFORMASİYA HÜQUQU

KONSTİTUSİYAYA DƏYİŞİKLİYƏ ZƏRURƏT VARMI: AZƏRBAYCANDA İNFORMASİYA SAHƏSİNDƏ HÜQUQ VƏ AZADLIQLARA DAİR NORMALARDA ZİDDİYYƏTLƏR

GÜLNAZ RZAYEVA*

Annotasiya

Azərbaycan Respublikası Konstitusiyası milli qanunvericilik sisteminin əsasını təşkil edir. Bütün hüquq sahələrində olduğu kimi, informasiya hüququ üçün də rəhbər müddəalar və ilkin başlanğıclar Konstitusiyada müəyyən olunmuşdur. Lakin informasiya sahəsində hüquq və azadlıqların realizə formalarının müasir dövrün tələbindən irəli gələrək, dəyişməsi bir çox konstitusion normalara yenidən nəzər salınmasını zəruri edir. Təqdim etdiyimiz məqalədə Azərbaycan Respublikası Konstitusiyasının aşağıdakı maddələri təhlil olunaraq təklif və tövsiyələr təqdim olunacaqdır: məlumat azadlığı (ARK-nın 50-ci maddəsi); fikir və söz azadlığı (ARK-nın 47-ci maddəsi); insan və vətəndaş hüquqlarının və azadlıqlarının təminatı (ARK-nın 71-ci maddəsi).

Açar sözlər: *Azərbaycan Respublikası Konstitusiyası, məlumat azadlığı, ifadə azadlığı, məhdudiyyətlər, legitim maraqlar, mütənasiblik.*

I. Məlumat azadlığına dair konstitusion norma və beynəlxalq normaların müqayisəli təhlili

1.1.1. Məlumat azadlığını təsbit edən 50-ci maddənin I bəndinə dair təkliflər.

Azərbaycan Respublikası Konstitusiyasının (bundan sonra – ARK) 50-ci maddəsi hər kəsin məlumat azadlığını bəyan edir. Üç bənddən ibarət olan bu maddənin müqayisəli təhlilini aparmaq məqsədilə Ümumdünya İnsan Hüquqları Bəyannaməsi, Mülki və Siyasi Hüquqlar haqqında Beynəxlaq Pakt və İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Avropa Konvensiyasını nəzərdən keçirək. Belə ki, Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktın (maddə 19) və Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin (maddə 19) müddəalarının mətnindən göründüyü kimi, məlumat azadlığı hər iki sənəddə ifadə azadlığı çərçivəsində tənzimlənir və istənilən informasiyanı müxtəlif üsullarla və dövlət sərhədindən asılı olmayaraq axtarmaq, almaq və yaymaq hüquqlarını ehtiva edir. Burada üsulların müxtəlifliyi və dövlət sərhədindən asılı olmama kiberməkanda məlumat azadlığının qorunması aspektindən mühüm əhəmiyyətə malikdir. Bundan əlavə, adıçəkilən maddələrin mətninə axtarmaq sözünün daxil edilməsi ilə belə bir məna ortaya çıxır ki, hazırda mövcud olan məlumatlara çıxış əldə etməklə yanaşı, ayrı-ayrı şəxslər tərəfindən tələb olunacaq məlumatların verilməsi baxımından dövlətin üzərinə pozitiv öhdəlik qoyulur.

İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Avropa Konvensiyasına gəldikdə isə, Konvensiyanın 10-cu maddəsi ifadə azadlığını

* Hüquq üzrə fəlsəfə doktoru / Bakı Dövlət Universiteti / gulnazrzayeva@mail.ru

təsbit etmişdir. Lakin digər iki beynəlxalq-hüquqi sənəddən fərqli olaraq, axtarmaq sözü daxil edilməmişdir. Daha konkret desək, Konvensiya yalnız informasiya və ideyaları almaq və yaymaq azadlıqlarını nəzərdə tutur. O zaman belə bir nəticəyə gəlmək olarmı ki Konvensiya dövlətlərin pozitiv öhdəliklərini istisna edir? – Qeyd olunan tənzimləmənin informasiya hüquqları kontekstində dövlətə təsir göstərmədiyi qənaəti İHAM-ın baxdığı işlər üzrə qəbul etdiyi qərarlar nəticəsində məhkəmə təcrübəsində də öz əksini tapmışdır. Məsələn, Leander İsveçə qarşı işində [12] hərbi bazada işə başlayan və daha sonra ona qarşı aparılan təhlükəsizlik istintaqı səbəbilə işdən çıxarılan Leander işdən çıxarılmasının səbəblərini öyrənmək istəsə də, onun tələbi rədd edilmişdir. Bundan sonra Leander Avropa Məhkəməsinə müraciət etmişdir. 10-cu maddə kontekstində informasiya əldə etmək hüququ baxımından araşdırıldıqda, Məhkəmə qeyd etmişdir ki, 10-cu maddə dövlətin üzərinə fiziki şəxslərə məlumat çatdırmaq öhdəliyi qoymur və bu maddə fiziki şəxslərə məlumatı əldə etmək hüququnu vermir, ona görə də heç bir pozuntu baş verməmişdir. Belə ki, maddədə məlumatı almaq hüququnun təsbiti əsasən dövlətin şəxsin başqalarının ona vermək istədiyi məlumatı almasını məhdudlaşdırmasını qadağan edir.

Qaskin Böyük Britaniyaya qarşı işində [6] isə Qaskin 18 yaşına qədər uşaqlığının çox hissəsini himayədarlıqda keçirmiş şəxsdir. O, 18 yaşı tamam olandan sonra onun haqqında saxlandığı müddət ərzində saxlanılan, ona baxan ailələrin kim olduğu barədə bəzi məlumatlar tələb etmiş və bu tələb rədd edilmişdir. Avropa Məhkəməsinə müraciətdən sonra Məhkəmə şəxsin öz uşaqlığı və erkən inkişaf dövrləri haqqında məlumat əldə etməsini şərtləndirmiş və 8-ci maddə baxımından pozuntunun olduğunu müəyyən etmişdir. Bununla belə, 10-cu maddə baxımından o, Leander işinə də istinad edərək qərara gəlmişdir ki, dövlət əlçatan məlumatın əldə edilməsinə müdaxilə etməmək öhdəliyinə malikdir, yəni dövlət məlumat vermək öhdəliyi altında deyil və 10-cu maddə bunu təmin edəcək mühafizə bəndi kimi qəbul edilməməlidir.

Məhkəmə bu günə qədər qəbul etdiyi qərarlarda dövlətin müdaxiləsi nəticəsində əlçatan məlumatın əldə edilməsinin mümkünsüzlüyünü 10-cu maddə baxımından ifadə azadlığına müdaxilə kimi qiymətləndirmişdir. Bununla belə, dövlətin fərdi məlumatların əldə edilməsinin qarşısının alması 10-cu maddə baxımından deyil, şəxsi və ailə həyatının qorunması məqsədi daşıyan və bununla bağlı dövlətin üzərinə pozitiv vəzifə qoyan 8-ci maddə baxımından pozuntu kimi qiymətləndirilmişdir [7].

Məlumat azadlığı həm fərdi, həm də sosial cəhətdən düzgün məlumat əldə etmək hüququnu da əhatə edir. Sunday Times Birləşmiş Krallığa qarşı qərarında Avropa Məhkəməsi təkcə məlumat almaq hüququnun deyil, həm də ictimaiyyətin dəqiq məlumat almaq hüququnun qorunduğunu bildirmişdir [16]. Siyasi və demokratik nəzarət yalnız real məlumatların əldə edilməsi ilə formalaşan ictimaiyyətin rəyi ilə mümkündür. Cəmiyyətin əldə etdiyi real

informasiya ilə ictimai rəy formalaşdırması üçün zəruri olan məlumat azadlığı dövlət üçün də şəffaflıq prinsipini zəruri edir.

Maraqlı cəhət ondadır ki, Məhkəmə əvvəlki qərarlarında informasiya əldə etmək hüququnu ifadə azadlığı kontekstində şərh etmirdi. Məsələn, Leander İsveçə qarşı qərarında Məhkəmə hesab etmişdir ki, rəsmi reyestrlərdə saxlanılan məlumatların aidiyyəti şəxsə bildirilməməsi 8-ci maddənin əhatə dairəsinə düşür. İnformasiyanın rəsmi sistemlərdən əldə olunması məsələsi ilə bağlı Konvensiyanın 10-cu maddəsinə əsasən heç bir ayrıca məsələ yaranmır [12].

Tarsagaga Szabadsagjogokert Macarıstana qarşı qərarında [15] isə Avropa Məhkəməsi yekdilliklə qəbul etmişdir ki, informasiya əldə etmək ifadə azadlığının tərkib hissəsidir. Məhkəmə ictimaiyyətin ümumi maraq kəsb edən məlumat almaq hüququna malik olduğunu qəbul etmişdir. Onun bu sahədə presedent hüququ bu cür məsələlərlə bağlı məlumat və ideyaların yayılmasına xidmət edən mətbuat azadlığı ilə bağlı işlənib hazırlanmışdır.

Məhkəmənin son 10 il ərzində verdiyi qərarlara diqqət yetirdikdə, artıq məlumat almaq hüququnun daha geniş mənada qəbul edildiyi qənaətinə gələ bilərik. Məhkəmənin fikrincə, qeyri-dürüst, qeyri-dəqiq və ya kifayət qədər məlumat verilməməsi məlumat verməkdən imtina deməkdir. İkinci əsas meyar kimi isə ictimai marağın olub-olmaması qəbul edilir. Belə maraq olduğu təqdirdə ictimaiyyəti məlumatlandırmaq vəzifəsinə riayət olunması zəruridir [2].

Göründüyü kimi, uzun illər İHAM açıq informasiyaya çıxışın təminatı ilə bağlı dövlətlərin pozitiv öhdəliklərinin olması faktını tanımaq istəmirdi. Lakin buna baxmayaraq, Avropa dövlətlərinin böyük əksəriyyəti qanunla müəyyən edilmiş qaydada açıq məlumatlara çıxış hüququnu tanıyır [18] ki, bu da konstitusion qaydada öz təsbitini tapmışdır. Əslində belə tanıma şəffaflıq və aşkarlıq prinsiplərinin təminatı baxımdan zəruridir. Ona görə də məlumat azadlığının tərkibində açıq informasiyanın əlyetərliyinin təminatı mühüm element hesab olunmalı və məlumatı axtarmaq hüququ məlumat azadlığı ilə ehtiva olunmalıdır. Deməli, ARK-nın 50-ci maddəsində təsbit olunmuş "hər kəsin istədiyi məlumatı qanuni yolla axtarmaq, əldə etmək və yaymaq azadlığı" daha düzgün sayılır. Lakin həmin maddənin "məlumatı ötürmək və hazırlamaq azadlığı" hissəsi bir qədər mübahisəlidir.

Qeyd etmək lazımdır ki, respublikamızda cari informasiya qanunvericiliyini təhlil etsək, informasiyanın ötürülməsi ayrı-ayrı fiziki şəxslərin hüququ kimi deyil, müvafiq informasiya sahiblərinin qanunla müəyyən edilmiş çərçivədə səlahiyyəti kimi şərh olunmalıdır (Fərdi məlumatlar haqqında Qanunun 2.1.8, 2.1.16 və 14-cü maddələri). Qanunun 2.1.8-ci maddəsinə əsasən, fərdi məlumatların ötürülməsi fərdi məlumatların işlənilməsi prosesinin bir hissəsini təşkil edir. Bu işlənilmə prosesini isə ayrı-ayrı şəxslər deyil, fərdi məlumatların mülkiyyətçisi və ya operatorlar həyata keçirir. Fərdi məlumatların mülkiyyətçisi qanunvericiliklə müəyyən edilmiş qaydada fərdi məlumatların informasiya sistemi və ya ehtiyatı üzərində tam sahiblik, istifadə,

sərəncamvermə hüququnu həyata keçirən, fərdi məlumatların işlənilməsi məqsədini müəyyən edən dövlət və ya yerli özünüidarə orqanı, hüquqi və ya fiziki şəxsdir (maddə 2.1.9). Fərdi məlumatların operatoru isə fərdi məlumatların toplanılmasını, işlənilməsini və mühafizəsini həyata keçirən fərdi məlumatların mülkiyyətçisi və ya onun bu funksiyaları müəyyən həcmdə və şərtlərlə həvalə etdiyi dövlət və ya yerli özünüidarə orqanı, hüquqi və ya fiziki şəxsdir. Göründüyü kimi, fərdi məlumatların işlənilməsi prosesi konkret subyektlərin səlahiyyətinə aid edilmişdir.

Bundan əlavə, adıçəkilən Qanunun 2.1.16 və 14-cü maddələrinə müvafiq olaraq, fərdi məlumatların transsərhəd ötürülməsi fərdi məlumatların qanunvericiliklə müəyyən edilmiş qaydada Azərbaycan Respublikasının dövlət sərhədindən əlaqədar beynəlxalq təşkilatlara, başqa ölkələrin dövlət və ya yerli özünüidarə orqanlarına, hüquqi və ya fiziki şəxslərinə verilməsidir ki, bu, Azərbaycan Respublikasının milli təhlükəsizliyi üçün təhdid yaratdıqda, eləcə də fərdi məlumatların ötürüldüyü ölkənin qanunvericiliyi həmin məlumatların Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş səviyyədə hüquqi mühafizəsini təmin etmədikdə yolverilməndir.

Deməli, şəxsin məlumatı ötürmək azadlığını məlumat azadlığı müstəvisində şərh etmək bir qədər məntiqi görünmür. Sual yarana bilər: Söhbət şəxsin öz fərdi məlumatlarını ötürməsindən gedirsə, ötürmək hüququ kimi qəbul edilə bilərmi? – Qanunvericilikdə informasiyanın yayılması o qədər geniş məzmunda verilmişdir ki, bu, elə şəxsin özü haqqında məlumatlarını başqa şəxslərə çatdırmasını da ehtiva edir (2.1.12-ci maddə).

O ki qaldı informasiyanı hazırlamaq hüququna, bu element yaradıcılıq azadlığının və əqli mülkiyyət hüququnun məzmununa daxildir. Ona görə də hesab edirik ki, Konstitusiyanın 50-ci maddəsinin I bəndindən hazırlamaq, ötürmək sözlərinin çıxarılması daha düzgün olar.

1.1.2. Məlumat azadlığını təsbit edən 50-ci maddənin II və III bəndlərinə dair təkliflər

ARK-nın 50-ci maddəsi ilə bağlı digər problemli məqam bu maddənin II bəndindən irəli gəlir. Burada kütləvi informasiyanın azadlığına təminat verilməsi və kütləvi informasiya vasitələrində, o cümlədən mətbuatda senzuranın qadağan olunması təsbit olunmuşdur. Belə bir tənzimləmə yuxarıda qeyd etdiyimiz beynəlxalq sənədlərdə öz əksini tapmamışdır. Yalnız Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın 19-cu maddəsində informasiyanın axtarılması, alınması və yayılması üsullarından biri qismində medianın tanınması həmin maddənin media azadlığını da əhatə etdiyinin göstəricisidir.

Qeyd etməliyik ki, media vasitələri ictimaiyyəti maarifləndirmək məqsədilə ictimaiyyətin məlumat almaq hüququnu həyata keçirməyə imkan verən ən mühüm mənbələrdən biridir. İnsanların müstəqil düşünməsi, sərbəst fikir formalaşması üçün hər cür düşüncə haqqında məlumat verən media

vasitələrinin də olması zəruridir. Bu kontekstdə medianın əsas vəzifəsi insanları doğru yola yönəltmək deyil, əksinə onların fikirlərini formalaşdırmaq üçün hər cür məlumat və ideyalara çıxış imkanı yaratmaqla onlara real informasiyaya çıxış imkanı formalaşdırmaqdan ibarətdir. Ona görə də media azadlığının təminatı məlumat azadlığının realizəsində mühüm əhəmiyyət kəsb edir.

Tarixə nəzər salsaq görərik ki, keçmiş SSRİ dövründə respublikamızda fikir və söz azadlığının təminatı heç də ürəkaçan olmamışdır. "Azərbaycan Respublikasında söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 6 avqust 1998-ci il Fərmanı bu sahədə atılan ilk addımlardan biri kimi qiymətləndirilməlidir. Fərman senzuranın ləğvi, normativ bazanın formalaşdırılması, beynəlxalq normalarla uyğunluğun təminatı kimi tədbirlərin icrasını nəzərdə tutur ki, bunların hamısı söz, fikir və məlumat azadlığının qorunması sahəsində mühüm əhəmiyyətə malikdir [11, s. 307]. Bu baxımdan, senzuranın konstitusion qaydada qadağan olunmasının tarixi zərurətdən irəli gəldiyini söyləyə bilərik. Onu da qeyd etməliyik ki, əksər dövlətlərdə media azadlığı konstitusiyada deyil, konkret qanunlarla bəyan edilir (bəzi dövlətlərdə isə əksinə medianın azadlığı ayrıca konstitusiya maddəsi ilə tənzimlənir. Məsələn, Türkiyə Konstitusiyasının 28-ci maddəsi).

Təbii ki, medianın azadlığının və senzuranın qadağan olunmasının təsbiti mütərəqqi hal kimi qiymətləndirilməlidir. Lakin 50-ci maddənin II bəndinin yenidən formulə edilməsinə zərurət vardır. Belə ki, "Media haqqında" Qanuna əsasən, kütləvi informasiya əldə olunması, ötürülməsi, istehsalı və yayımı Azərbaycan Respublikasının qanunları ilə məhdudlaşdırılmayan, qeyri-məhdud sayda şəxslərə çatdırmaq məqsədilə media subyektləri tərəfindən dərc olunan və (və ya) yayımlanan məlumatlardır (maddə 1.1.1.). Media kütləvi informasiyanın dövri və ya müntəzəm olaraq dərc olunmasını və (və ya) yayımlanmasını həyata keçirmək üçün istifadə olunan alət və vasitələr, habelə onlar vasitəsilə formalaşan informasiya mühitidirsə (maddə 1.1.2.), media subyekti əsas fəaliyyət növü kütləvi informasiyanın dərc olunması və (və ya) yayımlanması olan fiziki (jurnalistlər istisna olmaqla) və ya hüquqi şəxsdir (maddə 1.1.3). Deməli, kütləvi informasiyanın azadlığı "Media haqqında" Qanunun 5-ci maddəsində öz əksini tapmış media azadlığı ilə eynilik təşkil edir. Bu isə o deməkdir ki, media azadlığına dair müddəanın 50-ci maddədə deyil, ARK-nın 47-ci maddəsində təsbit olunması daha düzgündür. Eyni zamanda, medianın yuxarıda qeyd olunan anlayışından açıq-aydın görünür ki, bu informasiya mühiti kütləvi informasiyanın dövri və ya müntəzəm olaraq dərc olunmasını və (və ya) yayımlanmasını həyata keçirmək üçün fəaliyyət göstərir. Ona görə də "Kütləvi informasiya vasitələrində, o cümlədən mətbuatda dövlət senzurası qadağandır" əvəzinə "Media sahəsində dövlət senzurası qadağandır" cümləsindən istifadə olunması daha düzgün olar.

Eyni zamanda, ARK-nın 50-ci maddəsində III bəndindəki "kütləvi informasiya vasitələrində" ifadəsinin "mediada" sözü ilə əvəz olunması məqsədəmüvafiqdir.

II. Fikir və söz azadlığı yoxsa ifadə azadlığı: müqayisəli-hüquqi təhlil

İfadə azadlığı demokratik hüquqi dövlətin əsaslarını təşkil etməklə yanaşı, fərdlərin azad düşüncə mühitində öz fikirlərini ifadə etməsi nəticəsində cəmiyyətlərin inkişafına töhfə verir. İfadə azadlığına fərdin öz daxili aləmində yaratdığı düşüncə və həmin düşüncənin ifadəsi, yəni təzahürü daxildir [5, s. 517-518]. Qısa sözlə desək, bu azadlıq sərbəst şəkildə müxtəlif fikir və mülahizələrə yiyələnmək, bu fikirlər arasında seçim etmək, başqa insanlarla bölüşmək hüququ kimi başa düşülür. Hələ XX əsrin sonlarında İHAM ifadə azadlığının istənilən mədəni, siyasi və sosial informasiyanın ötürülməsinə imkan verən bədii məlumatları əhatə etdiyini bildirmişdir [13].

İfadə azadlığı digər hüquq və azadlıqların qorunması üçün təminat kimi qiymətləndirilə bilər. Çünki ifadə azadlığının tanınmadığı bir yerdə şəxs öz tələblərini ifadə edə bilmədiyi səbəbindən digər hüquq və azadlıqların həyata keçirilməsində də maneələr yaranacaqdır. Təsadüfi deyil ki, əsas insan hüquq və azadlıqlarının tez-tez pozulduğu bir çox dövlətlərdə ifadə azadlığının lazımi səviyyədə tanınmadığı və ya istifadə edilmədiyi müşahidə edilir [10, s. 8].

İfadə azadlığı təkcə fikrin yayılmasını deyil, həm də rəy və məlumatların formalaşmasını əhatə edir. Bu baxımdan, insanlar fikir və məlumat əldə edərkən, rəy bildirmək üçün onları yayarkən hamı ilə bərabər rəftar edilir. Odur ki, bərabərlik prinsipinə zidd olan ifadə azadlığının elementlərinin pozulması həm də ayrı-seçkiliyin qadağan olunmasının pozulması demək olacaqdır. Ayrı-seçkilik birbaşa və ya dolayı yolla baş verə bilər. Birbaşa ayrı-seçkiliyə misal olaraq məhkumun vizual və yazılı media materiallarına çıxışının məhdudlaşdırılmasını göstərmək olar. Belə olan halda fikir və məlumat əldə edə bilməyən şəxs azad fikrə malik ola və son nəticədə onu ifadə edə bilməz. Dövlətin pozitiv öhdəliyi çərçivəsində dolayı ayrı-seçkilik informasiya telekommunikasiya infrastrukturunun ölkə boyu bərabər, geniş və ucuz təmin edilməməsi kimi qiymətləndirilə bilər. Beləliklə, nəqliyyat xərclərinin nisbətən baha olduğu kənd yaşayış məntəqələrinə informasiya texnologiyalarının daxil olması çətinləşəcəyindən insanların öz ifadə azadlığından tam istifadə etmələrinin qarşısı alınacaqdır. Ona görə də dövlətin öz pozitiv öhdəliyi çərçivəsində pozuntunu aradan qaldırması vacibdir.

Qeyd etmək lazımdır ki, fikir və söz azadlığının konstitusion qaydada təsbit olunması hələ bu azadlığın reallaşdırılmasının təminatı demək deyil. Şəxs öz fikir və mülahizələrini açıqlamadığı halda təminat mexanizmini müəyyənləşdirmək mümkün olmur. Çünki bu zaman həmin fikirlər daxili xarakter daşıyaraq, xarici ifadə formasına malik olmur. Məhz açıqlanmaqla, yəni müxtəlif üsullarla ötürülmək və yayılmaqla fikir və söz azadlığından istifadə

xarici təzahür formasını almış olur. Fikir və söz azadlığını həyata keçirən şəxs öz əqidəsini ifadə edir. Ona görə də əksər tədqiqatçılar "ifadə azadlığı" anlayışından istifadə edirlər. Həmçinin fikir və söz azadlığını əks etdirən beynəlxalq sənədlərin hamısında həm fikir və söz azadlığı, həm də məlumat azadlığı eyni maddədə əks olunmuşdur və əsas etibarilə, "ifadə azadlığı" ifadəsindən istifadə olunur. Yuxarıda qeyd etdiyimiz kimi, fikir və ideyalar ifadə olunmaqla, fikir və söz azadlığı realizə olunur. Bu baxımdan, "ifadə azadlığı" terminindən istifadəni normal qəbul etmək olar. Lakin bu, həmin anlayışın məlumat azadlığı ilə eyniləşdirilməsinə gətirib çıxarmamalıdır. İkinci daha geniş olub, məlumatların əldə edilməsi, axtarılması və yayılması kimi azadlıqları da ehtiva edir. Ümumiyyətlə, ifadə azadlığı (və ya fikir və söz azadlığı) və məlumat azadlığını bir-birindən təcrid olunmuş formada təsəvvür etmək mümkün deyil. İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin bir çox qərarlarının təhlilinə əsasən, deyə bilərik ki, əksər hallarda onlardan biri digərinin təminatında xüsusi əhəmiyyətə malik olur. Məsələn, Autronik İsveçrəyə qarşı (1990) məhkəmə işində problem dövlət orqanlarının iddiaçı şirkətə xaricdən yayım ötürülməsinə icazə verməkdən imtina etdiyi zaman şirkətin ifadə azadlığına müdaxilənin edilib-edilməməsi idi. Məhkəmə iddiaçının ideya və məlumatları qəbul etmək imkanının məhdudlaşdırılması vasitəsilə ifadə azadlığına edilmiş müdaxiləni asanlıqla aşkarlamışdı. Eynilə, Xurşid Mustafa və Tarzibaçı İsveçə qarşı (2008) məhkəmə işində Məhkəmə İsveç məhkəməsinin dəstəklədiyi mülk sahibinin icarəçiyə mənzilindən kənarda peyk çanağı quraşdırmağa icazə verməməsi əsasında, yenə də onların məlumat almaq hüququna əngəlin törədildiyinə əsaslanmaqla, ifadə azadlığına müdaxilə olunduğu qərarına gəlmişdi [17, s. 9].

III. Məlumat azadlığı və ifadə azadlığına dair məhdudiyyətlər: zərbaycan Respublikası Konstitusiyasının 71-ci maddəsində dəyişiklik

Həm beynəlxalq normalarda, həm də dövlətdaxili tənzimlənmədə məlumat və ifadə azadlığı ilə bağlı bir sıra məhdudiyyətlər nəzərdə tutulmuşdur ki, bunlar hüquq və azadlıqların pozulması kimi şərh olunmamalıdır. Avropa Konvensiyasının 10-cu maddəsində ifadə azadlığına dair məhdudiyyətlər üçün aşağıdakı şərtlər müəyyən olunmuşdur:

- ✓ Məhdudiyyətlər qanunda nəzərdə tutulmalıdır;
- ✓ Məhdudiyyətlər legitim maraqlardan birinin (Konvensiyanın 10.2-ci maddəsində nəzərdə tutulan) müdafiəsinə yönəlməlidir;
- ✓ Məhdudiyyətlər demokratik cəmiyyət baxımdan zəruri xarakter daşımalıdır.

Birinci şərt məhdudiyyətin yalnız qanunla müəyyən edilməsinin yolverilənliyini nəzərdə tutur və əsas məqsədi dövlət tərəfindən məhdudiyyətlərin özbaşınalığının qarşısını almaqdan ibarətdir. Kontinental hüquq ailəsinə daxil olan respublikamızda məlumat və ifadə azadlığı bütün insan hüquqları və azadlıqları kimi yalnız qanunla məhdudlaşdırıla bilər.

Konstitusiyanın 71-ci maddəsinin II bəndi bu barədə birbaşa göstəriş nəzərdə tutmuşdur. Lakin Avropa Məhkəməsinin qərarlarında qanunilik tələbi ilə bağlı müxtəlif yanaşmalar vadır. Maraqlı tərəf onda özünü büruzə verir ki, Avropa Məhkəməsi qanun anlayışını daha geniş məzmunda şərh edir. Sunday Times Birləşmiş Krallığa qarşı, Sanoma Vitgevers B.V. Niderlanda qarşı qərarlarında Məhkəmə Kontinental Avropa və digər hüquq sistemlərinin xüsusiyyətlərini nəzərə alaraq, Konvensiyanın 8-ci maddəsindən 11-ci maddəsinədək göstərilən qanunauyğun və qanunla müəyyən edilmiş sözləri ilə bağlı bildirmişdir ki, həmişə qanun termini özünün formal mənasında deyil, substantiv mənasında nəzərdə tutulur. Buraya həm yazılı qanun, həm də yazılmamış qanunlar daxildir. Qanun həm qanunla müəyyən edilmiş hüquq, həm də hakimlərin verdiyi hüquq kimi anlaşılmalıdır. Di Stefano İtaliyaya qarşı məhkəmə işində Böyük Palatanın qəbul etdiyi qərarda deyilirdi ki, qanunla nəzərdə tutulmuş ifadəsindən irəli gələn tələblərdən biri müəyyənlikdir. Buna görə də norma vətəndaşların davranışlarını tənzimləmək üçün kifayət qədər dəqiqliklə hazırlanmadığı təqdirdə qanun kimi nəzərə alına bilməz [17, s. 35].

Digər tərəfdən, tənzimləməni ehtiva edən qanun fiziki şəxslər üçün əlçatan və başa düşülən olmalıdır. Avropa Məhkəməsi bu tələbə üstünlük verməsini belə əsaslandırır ki, qanunla nəzərdə tutulmaq proqnozlaşdırıla bilənliyi təmin edir. Fərdlər öz davranış və hərəkətlərinin nəticələrini qabaqcadan görməyi bacarmalıdır və onlara öz davranışlarına nəzarət etməyə imkan verən tənzimləmələr 10-cu maddə çərçivəsində hüquqi norma kimi uyğun hesab edilə bilər [4].

Rekvensi Macarıstana qarşı iş üzrə isə Məhkəmə qanunla müəyyən edilmiş anlayışını və onunla bağlı müəyyənlik prinsipini birbaşa formada yerli qanunvericiliklə əlaqələndirmişdir: Konstitusiyanın müddəaları ümumi xarakterli olduğu üçün onlardan tələb olunan dəqiqlik səviyyəsi digər qanunvericiliklərə nəzərən daha aşağı ola bilər. Bu müddəaları şərh etmək üçün qanunla müəyyənləşdirilən tələblərə cavab verən daha müfəssəl yerli qanunvericilik bazası mövcuddur [17, s. 36]. Məhz bunu rəhbər tutaraq, Məhkəmə əksər işlərdə (məsələn, Gaveda Polşaya qarşı) [5, s. 8-9] məhz qanunda göstərilmiş dəqiq tələblərə riayət olunmasını vacib saymışdır.

Əsas hüquq və azadlıqların qanunla və konstitusiyanın mətninə uyğun olaraq məhdudlaşdırıla bilməsi qanunvericiyə istədiyi həddə məhdudiyyətlər qoymaq səlahiyyəti vermir. Əsas hüquq və azadlıqlar müxtəlif dərəcədə məhdudlaşdırıla bilər, ona görə də məhdudiyyət lazım olandan artıq olmamalıdır. Başqa sözlə, bu zərurət əsasında mütənasiblik prinsipi yüksəlir. Mütənasiblik prinsipi mahiyyətcə bir neçə prinsipin birləşməsindən ibarətdir.

Birincisi, əlverişlilik prinsipini qeyd etməliyik ki, bu prinsip məhdudiyyət vasitələrinin məhdudiyyətin məqsədinə çatmaq üçün uyğun olmasını bildirir. Bu baxımdan, yoluxucu xəstəliyin yayılmasının qarşısını almaq üçün gecə saat on ikidən sonra musiqi yayımının qadağan edilməsi əverişlilik prinsipinin pozulmasının hazırkı nümunəsidir. Demək olmaz ki, musiqi yayımı saat on

ikidən əvvəl xəstəliyin yayılmasına səbəb olmur, daha sonra təhlükə yaradır. Üstəlik, ictimai musiqi yayımının qadağan edilməsi özlüyündə insanların bir yerə toplaşmasının qarşısını almaq üçün uyğun deyil [3, s. 37].

Mütənasibliyin başqa bir alt prinsipi zərurət prinsipidir. Məhdudiyyət alətinin məhdudiyyət məqsədinə nail olmaq üçün uyğun olması faktı mütənasibliyi təmin etmir. Vasitələr həm də məhdudlaşdırma zərurətini təşkil etməlidir. Başqa sözlə, əsas hüququ məhdudlaşdırmaq məqsədinə çatan, lakin onu ən az şəkildə məhdudlaşdıran alət zəruri vasitədir. Ona görə də qanunverici məqsədə çatmaq üçün mövcud olan vasitələr arasında ən az məhdudlaşdırıcı vasitələri seçməlidir.

Məhdudiyyətlərin legitim maraqlardan birinin müdafiəsinə yönəlməsi şərti ilə bağlı Avropa Konvensiyasının 10.2-ci maddəsi bu maraqlara aşağıdakıları daxil edir: dövlət təhlükəsizliyi və dövlətin ərazi bütövlüyü, ictimai asayiş, iğtişaşların və cinayətlərin qarşısının alınması, sağlamlığın və ya mənəviyyatın müdafiəsi, digər şəxslərin nüfuzu və ya hüquqlarının müdafiəsi, konfidensial məlumatların açıqlanmasının qarşısının alınması, ədalət mühakiməsinin nüfuzunun və qərəzsizliyinin təmin edilməsi.

Sadalanan məqsədlərdən birinə uyğun gəlməyən məhdudiyyət hüququn pozulmasını təşkil edir ki, həmin məqsədlər dövlət və ictimai maraqların qorunmasına xidmət edir. Dövlət maraqları ictimai maraqlarla qarşılıqlı əlaqədə olub, biri digərindən üstün deyil. İctimai mənafeləri əks etdirən istiqamətlər dövlət orqanları tərəfindən qanuni formaya salınmazsa, onların müdafiəsindən söhbət gedə bilməz. Eyni zamanda, dövlət öz fəaliyyətində cəmiyyətin maraqlarını rəhbər tutmadığı halda, demokratiklik prinsipi birbaşa şəkildə pozulmuş olacaqdır.

Əksər hallarda legitim maraqların pozulması elə qanunauyğunluq şərtini də pozmuş olur. Çünki milli qanunvericiliklər legitim maraqlara qəsd edən fəaliyyəti qadağan edir. Sürek Türkiyəyə qarşı qərarında Məhkəmə bu yanaşmanı təsdiq etmişdir [7].

Məlumat və ifadə azadlığına dair məhdudiyyətlərin demokratik toplumda zəruri olub-olmadığı hər zaman yoxlanmalıdır. Buradakı zəruri ifadəsi dar mənada məcburi kimi qəbul edilməməlidir. Məhkəmə əksinə faydalı, ağlabatan və ya arzuolunan kimi şərhlərlə bu ifadəyə açıqlama vermişdir [7].

Avropa Konvensiyasının 10-cu maddəsində nəzərdə tutulmuş legitim maraqlar ARK-nın 71-ci maddəsində fərqli qaydada təsbit olunmuşdur: Hər kəsin hüquq və azadlıqları digərlərinin hüquq və azadlıqları ilə məhdudlaşır; Müharibə, hərbi vəziyyət və fövqəladə vəziyyət, habelə səfərbərlik elan edilərkən insan və vətəndaş hüquqlarının və azadlıqlarının həyata keçirilməsi Azərbaycan Respublikasının beynəlxalq öhdəliklərini nəzərə almaq şərti ilə qismən və müvəqqəti məhdudlaşdırıla bilər.

Burada müsbət hal kimi hüquq və azadlıqların məhdudlaşdırılmasının dövlət tərəfindən gözlənilən nəticəyə mütənasibliyi prinsipinin təsbit olunmasını

qeyd edə bilərik. Lakin legitim maraqlarla əlaqədar bəndlərin redaktəsinə ehtiyac vardır. Bu məqsədlə Avropa Konvensiyasının 10-cu maddəsində nəzərdə tutulmuş legitim maraqlara diqqət yetirək:

1. milli təhlükəsizlik, ərazi bütövlüyü və ya ictimai asayiş maraqları naminə;
2. iğtişaşın və ya cinayətin qarşısını almaq üçün;
3. sağlamlığın və mənəviyyatın qorunması üçün;
4. digər şəxslərin nüfuzu və ya hüquqlarının müdafiəsi üçün;
5. gizli əldə edilmiş məlumatların açıqlanmasının qarşısını almaq üçün
6. ədalət mühakiməsinin nüfuz və qərəzsizliyini təmin etmək üçün.

"Milli təhlükəsizlik haqıqnda" Qanunun 1, 2 və 6-cı maddələrinə istinadən "milli təhlükəsizlik" anlayışının daha geniş olduğu və yuxarıdakı 1 və 3-cü bəndləri əhatə etdiyi qənaətinə gələ bilərik. O ki qaldı cinayətlərin qarşısının alınması məsələsinə, burada "İnformasiya əldə etmək haqqında" Qanunun 2.4.-1-ci maddəsində istifadə olunmuş "cinayət işləri üzrə ibtidai araşdırmanın normal gedişinin təmin edilməsi" ifadəsinin də əlavə olunmasını məqsədəuyğun sayırıq. Daha dəqiq desək, ikinci legitim maraq "cinayətlərin qarşısının alınması və cinayət işləri üzrə ibtidai araşdırmanın normal gedişinin təmin edilməsi" kimi nəzərdə tutulsa, daha düzgün olar. Həmçinin "ədalət mühakiməsinin nüfuzunun və qərəzsizliyinin təmin olunması" da legitim maraqlar sırasında yer almalıdır. "Digər şəxslərin nüfuzu və ya hüquqlarının müdafiəsi" ifadəsi bir qədər qeyri-müəyyəndir. İnsan hüquq və azadlıqları bütövlükdə ayrı-ayrı şəxslərin şərəf və ləyaqətinin müdafiəsini də əhatə etdiyi üçün "digər şəxslərin hüquq və azadlıqlarının təmin olunması" ifadəsi daha düzgündür. Beləliklə, hüquq və azadlıqların məhdudlaşdırılması ilə bağlı müddəada yuxarıda qeyd etdiyimiz dörd legitim marağın təmin edilməsi məqsədilə məhdudlaşdırmaya yol verilməsi məsələsi öz əksini tapsa, daha məqsədəuyğun olar. Təbii ki, burada "qanunvericiliklə müəyyən olunmuş qaydada və əsaslarla" ifadəsi də mütləq şəkildə nəzərdə tutulmalıdır.

IV. Nəticə

Azərbaycan Respublikası Konstitusiyasının 47-ci maddəsində yalnız hər kəsin fikir və söz azadlığı bəyan olunur. Beynəlxalq normalarda təsbit olunmuş ifadə azadlığı daha geniş məzmuna malikdir, çünki həmçinin şəxsin informasiya və bilik mübadiləsi üzrə hüquqlarını ehtiva edir. Beynəlxalq normalarda hər iki hüququn eyni maddədə təsbitinin başlıca səbəbi onların sıx əlaqəsindən irəli gəlir. Deməli, ifadə azadlığının beynəlxalq normalar əsasında tənzimlənməsi daha uğurlu təcrübə kimi sayıla bilər. Bu baxımdan, əslində Konstitusiyanın 47-ci maddəsinin adının "İfadə azadlığı" kimi adlandırılması, 50-ci maddənin I bəndindən məlumat azadlığı ilə bağlı təklifdə qeyd etdiyimiz anlayışların çıxarılması və 50-ci maddənin II bəndinin 47-ci maddəyə əlavə olunması daha məqsədəmüvafiqdir.

Məqalədə müfəssəl təhlillər aparılaraq, Azərbaycan Respublikası Konstitusiyasının 47 və 50-ci maddələrinin aşağıdakı redaktədə verilməsi təklif edilmişdir:

"Maddə 50. Məlumat azadlığı

I. Hər kəsin istədiyi məlumatı qanuni yolla axtarmaq, *əldə etmək və yaymaq* azadlığı vardır.

III. Hər kəsin *mediada* dərc edilən və onun hüquqlarını pozan və ya mənafelərinə xələl gətirən məlumatı təkzib etmək və ya ona cavab vermək hüququna təminat verilir."

"Maddə 47. *İfadə azadlığı*

I. Hər kəsin *ifadə* azadlığı vardır.

II. Heç kəs öz fikir və əqidəsini açıqlamağa və ya fikir və əqidəsindən dönməyə məcbur edilə bilməz.

III. İrqi, milli, dini, sosial və hər hansı digər meyara əsaslanan ədavət və düşmənçilik oyadan təşviqata və təbliğata yol verilmir.

IV. *Media azadlığına* təminat verilir. *Media sahəsində* dövlət senzurası qadağandır."

Eyni zamanda xüsusi vurğulanmalıdır ki, hüquqdan səmərəli və məqsədlərinə uyğun istifadə etmək üçün onun əhatə dairəsini bilmək vacibdir. Ona görə də digər hüquq və azadlıqlar kimi məlumat azadlığına dair məhdudiyyətlərin də konkret müəyyən olunması vacibdir. Tədqiqat zamanı istinad edilmiş beynəlxalq normalarda bu cür məhdudiyyətlər sadalansa da, Azərbaycan Konstitusiyasında nə 50-ci maddədə, nə də 47-ci maddədə bu barədə tənzimləmə yoxdur. Yalnız "İnformasiya əldə etmək haqqında" Qanunun 2.4-1-ci maddəsinin məzmunundan belə məhdudiyyətlərin dairəsini müəyyənləşdirmək olur ki, bu normanın özündə də qeyri-dəqiqlik mövcuddur. Məsələn, dövlətin maraqlarının dairəsi müəyyən olunarkən, xarici-siyasi, kəşfiyyat və əks-kəşfiyyat kimi strateji maraqlar normadan kənarda qalmışdır. Ona görə də hesab edirik ki, konstitusion qaydada məhdudiyyətlərin dairəsi beynəlxalq normalara uyğun formada müəyyən olunmalıdır. Hesab edirik ki, Konstitusiyanın 71-ci maddəsində II bəndin ikinci cümləsi aşağıdakı məzmunda təsbit olunsa, daha məqsədəuyğun olar:

"Hər kəsin hüquq və azadlıqları *qanunvericiliklə müəyyən olunmuş qaydada və əsaslarla milli təhlükəsizliyin, digər şəxslərin hüquq və azadlıqlarının, ədalət mühakiməsinin nüfuzunun və qərəzsizliyinin, cinayət işləri üzrə ibtidai araşdırmanın normal gedişinin təmin olunması və cinayətlərin qarşısının alınması məqsədilə məhdudlaşdırıla bilər*".

REFERENCES:

1. Aliyev, A.I. Human rights. Textbook. Second edition, revised. - Baku: Nurlar, - 2019. - 352 p (in Azerbaijani / Əliyev, Ə.İ. İnsan hüquqları.

Dərslik. Yenidən işlənmiş və əlavələr edilmiş ikinci nəşri. – Bakı: Nurlar, – 2019. – 352 s).

2. Association Burestop 55 and Others v France 56176/18 and others, Application No. 56176/18, 1 July 2021: URL: https://hudoc.echr.coe.int/eng#{%22itemid%22:[%22001-229227%22]} [last access: 13.10.2024]
3. Ceylan A. The Principle of Dimensionality in Theory and Practice: / Graduate Thesis / – Gazi University Institute of Social Sciences, – 2008. – 168 p (in Turkish / Ceylan, Ali. Teori ve Uygulamada Ölçülülük İlkesi: / Yüksek Lisans Tezi / – Gazi Üniversitesi Sosyal Bilimler Enstitüsü, – 2008. – 168 s).
4. Chauvy and others v. France. Application no. 64915/01, 29.06.2004: URL: https://hudoc.echr.coe.int/fre#{%22itemid%22:[%22001-61861%22]} [last access: 13.10.2024]
5. Freedom of expression in Europe: Case-law concerning Article 10 of the European Convention on Human Rights. – Council of Europe Publishing, – 2007. – 188 p.
6. Gaskin v. the United Kingdom, 7 July 1989: URL:https://hudoc.echr.coe.int/app/conversion/docx/?library=ECHR&id=001-57519&filename=CASE%20OF%20LEANDER%20v.%20 [last access: 13.10.2024]
7. Handyside v. United Kingdom, Application No. 5493/72, 7 December 1976: URL:https://globalfreedomofexpression.columbia.edu/cases/handyside-v-uk/ [last access: 13.10.2024]
8. Herczegfalvy v. Austria, Application No. 10533/83, 24 September 1992: URL:https://hudoc.echr.coe.int/app/conversion/docx/?library=ECHR&id=001-57519&filename=CASE%20OF%20LEANDER%20v.%20 [last access: 13.10.2024]
9. Human Rights Handbook / Durmus, Tezcan, Mustafa Ruhan, Erdem, Rifat Murat, Onok, Oguz, Sancakdar. - Ankara: Seçkin Yayıncılık, 9.Baskı, - 2021. - 1136 p (in Turkish / İnsan Hakları El Kitabı / Durmuş, Tezcan, Mustafa Ruhan, Erdem, Rıfat Murat, Önok, Oğuz, Sancakdar. – Ankara: Seçkin Yayıncılık, 9.Baskı, – 2021. – 1136 s).
10. Ihsan D., Metin T. Human Rights and Freedom of Expression in Türkiye // - Ankara: Liberal Düşünce Topluluğu, - 2003. - p. 8-16 (in Turkish / İhsan, Dağı, Metin, Toprak. Türkiye'de İnsan Hakları Ve İfade Özgürlüğü // – Ankara: Liberal Düşünce Topluluğu, – 2003. – s. 8-16).
11. Information law: textbook / A.I.Aliyev, G.A.Rzayeva, A.N.Ibrahimova, B.A.Maharramov, Sh.S.Mammadrzali - Baku: Nurlar publishing house, - 2019. - 448 p (in Azerbaijani / İnformasiya hüququ: dərslik / Ə.İ.Əliyev,

G.A.Rzayeva, A.N.İbrahimova, B.A.Məhərrəmov, Ş.S.Məmmədrzalı - Bakı: Nurlar nəşriyyatı, – 2019. – 448 s).
12. Leander v. Sweden, Application no. 9248/81, 26 March 1987: URL:https://hudoc.echr.coe.int/app/conversion/docx/?library=ECHR&id=001-57519&filename=CASE%20OF%20LEANDER%20v.%20 [last access: 13.10.2024]
13. Müller and Others v. Switzerland. Application No. 10737/84, 24 May 1988: URL: https://globalfreedomofexpression.columbia.edu/cases/muller-v-switzerland/#:~:text=Josef%20Felix%20M%C3%BCller%20and%20nine,a%20fine%20after%20criminal%20proceedings [last access: 13.10.2024]
14. Surek v. Turkey. Application No. 26682/95, 08.07.1999: URL: https://hudoc.echr.coe.int/eng#{%22itemid%22:[%22001-141273%22]} [last access: 13.10.2024]
15. Társaság a Szabadságjogokért v. Hungary, Application no. 37374/05, 14 April 2009: URL: https://hudoc.echr.coe.int/eng#{%22itemid%22:[%22001-92171%22]} [last access: 13.10.2024]
16. The Sunday Times v. United Kingdom. Application No. 6538/74, 26.04.1979: URL: https://globalfreedomofexpression.columbia.edu/cases/the-sunday-times-v-united-kingdom/#:~:text=Case%20Summary%20and%20Outcome,violated%20its%20freedom%20of%20expression. [last access: 13.10.2024]
17. Toby, Mendel. Freedom of Expression: A Guide to the Interpretation and Meaning of Article 10 of the European Convention on Human Rights. – UNESCO: Paris, – 2012. – 91 p.
18. The global network of freedom of information advocates URL: www.freedominfo.org [last access: 13.10.2024]

IS THERE A NEED TO AMEND THE CONSTITUTION: CONFLICTS IN NORMS ON INFORMATION RIGHTS AND FREEDOMS IN AZERBAIJAN

GULNAZ RZAYEVA*

Abstract

The Constitution of the Republic of Azerbaijan forms the basis of the national legislative system. As in all areas of law, the guiding provisions and preliminary beginnings for the right to information are defined in the Constitution. However, the changes in the forms of realization of rights and freedoms in the field of information, arising from the demands of the modern era, make it necessary to reconsider many constitutional norms. In the article we have presented, the following articles of the Constitution of the Republic of Azerbaijan will be analyzed and suggestions and recommendations will be presented: freedom of information (Article 50 of the Constitution of the Republic of Azerbaijan); freedom of thought and speech (Article 47 of the

* PhD in Law / Baku State University / gulnazrzayeva@mail.ru

Constitution of the Republic of Azerbaijan); guarantee of human and civil rights and freedoms (Article 71 of the Constitution of the Republic of Azerbaijan).

Keywords: *Constitution of the Republic of Azerbaijan, freedom of information, freedom of expression, restrictions, legitimate interests, proportionality.*

ЕСТЬ НЕОБХОДИМОСТЬ ИЗМЕНЕНИЯ КОНСТИТУЦИИ: КОНФЛИКТЫ НОРМ ОБ ИНФОРМАЦИОННЫХ ПРАВАХ И СВОБОД В АЗЕРБАЙДЖАНЕ

ГУЛЬНАЗ РЗАЕВА*

Аннотация

Конституция Азербайджанской Республики составляет основу национальной законодательной системы. Как и во всех областях права, руководящие положения и предварительные основы права на информацию определены в Конституции. Однако изменения в формах реализации прав и свобод в сфере информации, вытекающие из требований современной эпохи, заставляют пересмотреть многие конституционные нормы. В представленной нами статье будут проанализированы следующие статьи Конституции Азербайджанской Республики и представлены предложения и рекомендации: свобода информации (ст. 50 Конституции Азербайджанской Республики); свобода мысли и слова (ст. 47 Конституции Азербайджанской Республики); гарантия прав и свобод человека и гражданина (ст. 71 Конституции Азербайджанской Республики).

Ключевые слова: *Конституция Азербайджанской Республики, свобода информации, свобода выражения мнений, ограничения, законные интересы, соразмерность*.

Redaksiyaya daxil olma tarixi: 17.05.2024
Çapa qəbul: 23.09.2024

* Кандидат юридических наук / Бакинский Государственный Университет / gulnazrzayeva@mail.ru

Elnur Hümbətov. Elektron dövlət və elektron demokratiyanın inkişafı: insan hüquq və azadlıqlarının qorunmasına dair yeni hüquqi tendensiyalar // Azərbaycan Hüquq Jurnalı. 2024 (№2), s. 63-75. DOI: 10.61638/WCKE6189

ELEKTRON DÖVLƏT VƏ ELEKTRON DEMOKRATİYANIN İNKİŞAFI: İNSAN HÜQUQ VƏ AZADLIQLARININ QORUNMASINA DAİR YENİ HÜQUQİ TENDENSİYALAR

ELNUR HÜMBƏTOV*

Annotasiya

Müasir dünyada texnologiya və dövlət arasındakı qarşılıqlı əlaqəni öyrənmək, diqqəti demokratikləşdirmə potensialına yönəltmək təkcə akademik deyil, həm də praqmatik baxımdan aktualdır. Çünki virtuallaşmanın geniş vüsət aldığı və yeni texnologiyaların insanlar üçün təqdim etdiyi imkanların artdığı bir dönəmdə dövlətin bu proseslərdən kənarda qalması və elektronlaşmaması qeyri-mümkündür. Eyni zamanda, dövlət xidmətlərinin göstərilməsi üçün yeni rəqəmsal vasitələr fərqli tənzimləmə tələb edir, çünki onlar sürətli və uğursuzluq halında hüquqlara potensial ziyan vurur. Bu mənada, elektron hökumət sistemlərinin demokratikləşməyə gətirə biləcəyi əsas risklər, imkanlar və onun tənzimlənməsi üçün vacib parametrlər insan hüquq və azadlıqlarının təminatı aspektindən xüsusi diqqət yetirilməli olan məsələlərdir. E-idarəetmə insan hüquq və azadlıqlarının rəqəmsal dövrdə yeni formada təminatı üçün xüsusi əhəmiyyətə malikdir. Çünki belə idarəetmənin əsas elementi olan şəffaflıq və hesabatlılıq nəticəsində dövlət orqanları anlayırlar ki, onların məlumatlarına hər kəs onlayn baxa bilər və nəticədə ictimaiyyət qarşısında hesabatlı olmaq lazımdır. Şəffaflıq və hesabatlılıq demokratik dövlətlər üçün əsas elementlər hesab oluna bilər ki, bu da elektron idarəetmə ilə gücləndirilə bilər. Açıqlıq və şəffaflıq sayəsində müdafiə olunan e-idarəçilik də şəxsi təmas səviyyəsinin azalması səbəbindən ictimai prosedurlarda korrupsiyanın azaldılması imkanını təqdim edir. Məqalədə qeyd olunan məqamların təhlili iki istiqamətdə aparılmışdır: doktrinal təhlillərə istinad və təcrübənin tədqiqi. Hər iki istiqamətdə aparılmış tədqiqat nəticəsində təklif və tövsiyələr təqdim edilmişdir.

Açar sözlər: *elektron dövlət, elektron idarəetmə, elektron demokratiya, elektron dövlət modelləri, insan hüquqları, elektron hüquqlar, İnternet, İKT.*

I. Giriş

İlk öncə qeyd etmək lazımdır ki, hər bir dövlətin milli informasiya siyasəti virtual məkanda insan hüquq və azadlıqlarının təminatını rəhbər tutaraq formalaşdırılır. Lakin dövlətin öz nəzarət mexanizmləri olmadan belə siyasət heç bir halda uğurlu ola bilməz. Belə ki, virtual məkanda idarəetmə funksiyasının mövcudluğu məsələsinin aktuallığı dövlət funksiyalarının dəyişkənliyini müəyyən edən amillərin mövcudluğu ilə də sübut olunur:

1) Bir sistemin inkişafının spesifik tarixi mərhələsi. Nəzərə almaq lazımdır ki, informasiya texnologiyaları əsrində dinamik inkişaf cəmiyyətin siyasi, etno-sosial, iqtisadi və digər struktur elementlərinə əhəmiyyətli dərəcədə təsir edir, dövlət üçün problemlər yaradır, çünki hakimiyyət, idarəetmə, ədalət, siyasət kimi hadisələr informasiya sferasında qloballaşmadan asılı olaraq tənəzzülə uğrayır. Cəmiyyətdə baş verən dinamik inkişaf prosesləri dövlətləri həmin proseslərə nəzarət etmək və pozuntuların qarşısını almaq məqsədilə yeni strategiyalar işləyib hazırlamağa məcbur edir. Məsələn, internetdən qanunsuz hərəkətlərin (haker hücumları, qadağan olunmuş məlumatların yayılması,

* Hüquq üzrə fəlsəfə doktoru / Bakı Dövlət Universiteti / email: elnur_88@inbox.ru

kiberdələduzluq, böhtan, təhqir və s.) törədilməsi üçün istifadə edildiyinin nəticəsi olaraq, müasir dövlətlər Ümumdünya Kompüter Şəbəkəsinin fəaliyyətinin müxtəlif aspektlərinə nəzarəti təmin etmək üçün məsul dövlət orqanları (və/və ya dövlət orqanlarının struktur bölmələri) yaratmağa başlayırlar (məsələn: ABŞ-da Milli Təhlükəsizlik Agentliyi; Azərbaycanda Kompüter İnsidentlərinə qarşı Mübarizə Mərkəzi, Elektron Təhlükəsizlik Mərkəzi və s.). Bundan əlavə, texnoloji cəhətdən inkişaf etmiş dövlətlər internet məkanına (virtual məkana) münasibətdə dövlət nəzarətinin yeni formalarından istifadə etməyə başlayırlar. Misal olaraq, internetdə informasiya münasibətləri subyektlərinin məlumatlarını süzgəcdən keçirmək, uçota almaq və əldə etmək üçün ixtisaslaşmış yüksək texnoloji proqramlardan istifadəni qeyd etmək olar (ABŞ-da PRISM, Çində Qızıl Qalxan və s.).

2) Dövlət ətrafında daxili və xarici siyasət vəziyyəti. İstənilən müasir dövlət virtual məkanda informasiya müharibəsinə məruz qala bilər. Təsadüfi deyil ki, dövlətlərin kiberhücumlara qarşı özünümüdafiə hüququ mövzusu dövrümüzün gündəmdə olan mövzulardandır. Ona görə də dövlətin nəzarət funksiyası virtual məkanda xarici siyasi maraqları mütləq şəkildə əhatə etməlidir. Dövlətin daxili siyasi vəziyyətinə gəlincə, qeyd etmək lazımdır ki, yuxarıda göstərdiyimiz kimi, bir çox hüquq pozuntuları internetdən istifadə etməklə (və o cümlədən birbaşa virtual məkanda) törədilməyə başlayır. Belə şəraitdə təsvir olunan faktların dövlətin rifahı üçün təhlükəsini nəzərə alaraq, virtual məkanda baş verən proseslərə dövlət nəzarəti üçün sistemli və məqsədyönlü fəaliyyətin həyata keçirilməsi labüddür.

3) Dövlət maraqlarında insan hüquq və azadlıqlarının üstün mövqeyi. Dövlətin virtual məkanda imperativ səlahiyyətlərə malik subyekt kimi mövcudluğundan danışarkən, bu səlahiyyətlərin hədləri sualına da xüsusi diqqət yetirməliyik. Virtual məkana lazımi dövlət nəzarətinin təmin edilməsi ilkin olaraq ölkənin daxili siyasəti səviyyəsində öz vətəndaşlarına münasibətdə həyata keçirilməlidir. Lüzumsuz məhdudiyyətlər, bloklamalar tətbiq edərək öz vətəndaşlarının informasiya hüquqlarını pozan dövlətin milli informasiya siyasətinin uğurundan söhbət gedə bilməz.

Dövlətlər daim inkişaf məqsədilə informasiyadan və texnoloji-maliyyə resurslarından istifadə üsullarında yeniliklər tətbiq edirlər. Bu kontekstdə İKT-dən düzgün istifadə dövlət sektorunun məqsədlərinə nail olmaqda və sosial-iqtisadi artıma şərait yaradan mühitə töhfə verməkdə mühüm əhəmiyyət kəsb edir. Bu prosesdə formalaşan elektron hökumət: demokratik xidmətlərin və proseslərin əhəmiyyətli dərəcədə təkmilləşdirilməsi və dövlət siyasətinə dəstəyin gücləndirilməsi üçün təşkilati dəyişikliklərlə birlikdə dövlət idarəçiliyində kompleks xidmətlərin göstərilməsi, məlumat mübadiləsinin keyfiyyətinin və səmərəliliyinin təşviqi və vətəndaşların səlahiyyətlərinin artırılması kimi istiqamətləri əhatə edir [11, s. 94].

Elektron dövlət konsepsiyası kommunikasiyanı asanlaşdırmaqla dövlət idarəetməsinin müxtəlif səviyyələrində hakimiyyət orqanlarının koordinasiyasını yaxşılaşdırmaq, dövlət xidmətlərinin səmərəliliyini artırmaq, prosesləri sadələşdirmək, xərcləri azaltmaq, sənədləşdirmə və uçotun aparılmasını təkmilləşdirmək kimi müsbət xüsusiyyətləri ilə xarakterizə olunur.

II. Elektron dövlət və elektron demokratiyanın inkişafına dair nəzəri yanaşmalar

Geniş perspektivdə e-dövlət vətəndaşların aktivliyini artırmaq və dövlət xidmətlərinin əlyetərliyini təmin etmək üçün texnologiyalardan istifadə etməyi hədəfləyir. Belə ki, İKT-nin hər yerdə olması siyasi iştirakçılığı artıra və dövləti açıq və interaktiv edə bilər. Lakin bəzi mənfi tərəfləri də unutmamalıyıq. Rəqəmsal cəmiyyətin formalaşması inkişaf etmiş və inkişaf etməkdə olan dövlətlər arasındakı uçurumu (bərabərsizliyi), hətta inkişaf etmiş ölkələrin özləri arasındakı fərqləri kəskin şəkildə genişləndirir. İKT-nin artan istifadəsi fərdləri daha izlənilə bilən edir: smartfonlar, sensorlar, onlayn əməliyyatlar, ani mesajlar və e-poçtlar çox faydalı olsa da, konfidensiallığı azaldır. Bu kimi məsələlər uzun müddətdir ki, e-hökumətin uğuruna təsir göstərə bilən faktorlar sırasındadır. Əslində inkişaf etməkdə olan ölkələrə münasibətdə böyük problem dövlətin idarəetmə qabiliyyətini artırmaq, öz vətəndaşlarına xidmət göstərmək və insan inkişafı üçün şəraiti yaxşılaşdırmaq üçün İKT-nin gücündən necə istifadə etməyi müəyyənləşdirməkdir.

Elektron dövlətlə qurula bilən əlaqələr üç növə bölünür:

- Dövlət orqanları və qurumları arasında arasında (G2G);
- Dövlət orqanları və biznes (sahibkarlıq fəaliyyəti) arasında (G2B);
- Dövlət orqanları və vətəndaşlar arasında (G2C).

Tvizeyimana və Andersson e-dövlətin ictimai dəyərinin üç geniş və üst-üstə düşən ölçülərini müəyyənləşdirmişlər: dövlət xidmətlərinin təkmilləşdirilməsi, idarəetmənin təkmilləşdirilməsi və sosial dəyərin təkmilləşdirilməsi. Bunlardan birincisi olan dövlət xidmətlərinin təkmilləşdirilmiş ölçüsü hər iki ölçüyə təsir göstərir. Başqa sözlə, dövlət xidmətləri yaxşılaşdırıldıqda, idaəretmə də müəyyən dərəcədə təkmilləşir və bu ictimaiyyətə daha yaxşı xidmətlər göstərməyi hədəfləməyə başladığı üçün baş verir (yəni, vətəndaşlar müxtəlif rollarda: siyasətçilər, vergi ödəyiciləri, şirkətlər və s.). Eyni şəkildə, dövlət xidmətləri yaxşılaşdırıldıqda, sosial rifahın da yaxşılaşması gözlənilir. Odur ki, elektron xidmətlər vasitəsilə e-hökumətin xidmətləri və öz növbəsində cəmiyyətin idarə olunmasını və rifahını yaxşılaşdıracağı gözlənilir [15, s. 173-174].

Müəlliflər e-dövlətin inkişafının dörd modelini fərqləndirirlər [7, s. 447]:

Birincisi, rəqabət modelində dövlətlərin bir-biri ilə rəqabət aparacağı güman edilir və onlar yaxın və ya qonşu dövlətlərlə rəqabətə xüsusilə həssas ola bilərlər. İqtisadi üstünlüklər əldə etmək və ya mənfi vəziyyətə düşməmək üçün

digər dövlətlərin və ya ölkələrin siyasətlərini təqlid edirlər. Oxşar mədəni və siyasi sistemlərə malik olan dövlətlər bir-biri ilə ayaqlaşmaq üçün təzyiq hiss edirlər, eyni zamanda onların bir-birindən öyrənmə ehtimalı daha yüksəkdir. Buna görə də rəqabət modelinə görə, qonşu ölkələrin elektron hökumət və elektron demokratiya göstəriciləri ölkənin öz elektron hökuməti və elektron demokratiyasının inkişafında əsas rol oynamalıdır. Deməli, yüksək e-hökumət göstəricilərinə malik bir və ya bir neçə qonşu dövlətə bitişik olan bir dövlətin daha yüksək elektron hökumət reytinqinə sahib olma ehtimalı çox olacaqdır.

İkincisi, öyrənmə modelidir ki, texnoloji yeniliyi qəbul edənlərlə sıx əlaqədə olan təşkilatlar bu haqda öyrənir və onu daha tez qəbul edirlər, halbuki innovasiya şəbəkələrinin periferiyasında yerləşən təşkilatlar daha yavaş qəbul edirlər. Öyrənmə modeli artan qərarların qəbulu və məhdud rasionallığın klassik nəzəriyyəsinə əsaslanır. Dövlətlər qeyri-müəyyənlik və ya çətin siyasət qərarları ilə üzləşdikdə digər ölkələrdə sadəcə olaraq konkret siyasətlərin nəticələrini müşahidə etməklə yeni məlumat əldə etməyin nisbətən sadə olduğunu, eləcə də vaxta və pula qənaət etdiyini aşkar edə bilərlər. Bir ölkə nə qədər çox beynəlxalq təşkilata üzvdürsə, digər ölkələrin elektron hökumət və elektron demokratiya təcrübələrindən öyrənməli olduğu kanallar bir o qədər çox olur. Dövlətlər digər ölkələrin təcrübəsini müşahidə etməklə və yeni məlumatlar əldə etməklə vaxta və pula qənaət etməyə meyllidirlər. Qısacası, daha interaktiv şəraitdə iştirak İKT planlaşdırmasının inzibati xərclərini azalda və dövlət sektorunda İKT siyasətinin həyata keçirilməsini artıra bilər. Təlim prosesi coğrafi yerlə məhdudlaşmamalı olduğundan, siyasətin yayılmasının öyrənmə modelini sınaqdan keçirərkən xarici amillərin daha vacib ola biləcəyini nəzərə almaq lazımdır. Məlumat mübadiləsi öyrənmə prosesinə səbəb olan ən vacib amil ola bilər. Buna görə də qeyd etməliyik ki, bir millət beynəlxalq təşkilatlarda nə qədər çox iştirak etsə, o millət elektron hökumət və elektron demokratiyada daha yüksək yer tutacaqdır.

Üçüncüsü, dövlətlərə yaxşı qəbul edilmiş idarəetmə və siyasət standartlarına uyğun gəlmələrini tələb edən standartlar mövcuddur. Bu standartların təsiri ilə dövlətlər elektron idarəetməyə keçməyə məcburdurlar. Burada inkişaf etmiş dövlətlərin təsiri də danılmazdır. Belə ki, elektron hökumətin inkişafı üzrə güclü maliyyə və texnoloji resurslara malik inkişaf etmiş ölkələr faktiki olaraq aparıcı rol oynayırlar və onların təsiri tədricən bütün dünyaya yayılmışdır.

Nəhayət, sonuncu model dövlətin öz vətəndaşlarının təzyiqi və təsiri nəticəsində elektron idarəetməyə keçməsi ilə bağlıdır. Vətəndaşlar xəbərlər vasitəsilə məlumat ala bilər və digər dövlətlərdə qəbul edilmiş eyni siyasətləri qəbul etmək istəyə bilər. Bundan əlavə, cəmiyyətdə ümumi təhsil səviyyəsi yüksəldikcə daha çox vətəndaş məlumatlı və bilikli olur. Bu şərtlər dövləti e-hökumət və e-demokratiya kimi məşhur siyasətləri qəbul etməyə sövq etmək üçün güclü vətəndaş təzyiqləri yaratmalıdır. Bununla belə, texniki bilik axını, o cümlədən fərdi kompüter və internet infrastrukturu kimi maddi İKT vasitələrinin

yayılması elektron hökumətin və elektron demokratiyanın qəbulunu sürətləndirməkdə mühüm rol oynayır. Ona görə də ölkədə kifayət qədər informasiya və kommunikasiya texnologiyaları infrastrukturu, yaxşı təhsilli vətəndaşları və geniş internet istifadəçiləri bazası olduqda bu dövlət elektron hökumət və ya elektron demokratiyanı qəbul etmək üçün güclü potensiala malikdir. Daha konkret desək, hər hansı bir dövlət yüksək insan kapitalı səviyyəsinə malik olduqda onun e-hökumət və e-demokratiya sahəsində yüksək yer tutma ehtimalı daha yüksəkdir.

III. Azərbaycan Respublikasının milli informasiya siyasətində virtuallaşma prosesləri və elektron dövlət quruculuğu: insan hüquq və azadlıqlarının realizəsi üçün yeni imkanlar

Azərbaycan getdikcə İKT sektorundan asılı vəziyyətə düşür. Azərbaycanlılar sosial şəbəkələrdə yaxşı təmsil olunurlar və yerli blogosferdə çox fəaldırlar. Sosial medianın daha da siyasiləşdirilməsinin qarşısını almaq üçün güclü səylərə baxmayaraq, 2009-cu ildən etibarən dinamik və siyasi cəhətdən aktiv bloq sferası inkişaf edir. Baxmayaraq ki, Azərbaycan telekommunikasiya və interneti milli inkişaf prioritetinə çevirsə də, telekommunikasiya üçün normativ-hüquqi baza hələ də inkişaf etməmişdir. Xarici təzyiq altında hökumət internet provayderləri bazarının liberallaşdırılması istiqamətində addımlar atmışdır. Bununla belə, ən böyük ictimai telekommunikasiya operatorları dövlət şirkətləri olan AzTelecom, Azeronline, IntraNS, Adanet və AzEuroTeldir. Tənzimləmə nöqteyi-nəzərindən İnternet kütləvi informasiya vasitəsi hesab edilir və 2005-ci ildən Telekommunikasiya haqqında Qanunla tənzimlənən telekommunikasiya xidmətlərinin siyahısına daxildir. Azərbaycan qanunvericiliyində internet məzmununun məcburi filtrasiyası və ya monitorinqi nəzərdə tutulmur. Bununla belə, hökumətin siyasətini tənqid edən veb-saytlar yarandıqca, hökumət ədəbsiz və ya qeyri-vətənpərvər məzmunlu veb-saytlara məhdudiyyətlər qoyan və bununla da mövcud qanunları gücləndirəcək qanunlar qəbul etməyi planlaşdırır [12, s. 710]. Elektron hökumətin qəbulu və istifadəsi təşkilatlar tərəfindən yeni texnologiyaların mənimsənilməsini izah etmək üçün son onilliklərdə hazırlanmış modellərə uyğundur. Elektron dövlət modelində yeni texnologiyadan istifadə olunması iki komponentin vəhdətini təşkil edir:

Qəbul edilən faydalılıq və səmərəlilik. Bu, insanların informasiya kommunikasiya texnologiyalarının onların fəaliyyətini və aktivliyini artıra biləcəyinə inanma dərəcəsindən asılı olaraq müəyyən olunur. Məsələn, hər hansı bir hüququnu reallaşdırmaq istəyən şəxs bunu elektron formada etdiyi təqdirdə, vaxta və yol məsrəfinə qənaət etmiş olur ki bu da səmərəliliyin göstəricisidir.

Qəbul edilən istifadə asanlığı. Bu komponent isə insanların müəyyən texnologiyadan istifadənin az səy tələb etdiyinə inanma dərəcəsini ifadə edir. Məsələn, elektron müraciət zamanı müxtəlif məlumatların avtomatik olaraq

bazadan çıxarılması (şəxsiyyətə aid məlumatlar və s.) elektron idarəetmə modelinin asanlığına işarə edir.

Elektron hökumətin üçüncü dalğası mobil hökumətdir, yəni hökumət tərəfindən təklif olunan mobil xidmətlərin dövlət sektorunda veb əsaslı və sosial media platformalarının genişləndirilməsidir. Mobil telefonun unikal xüsusiyyətləri, yəni onun mobilliyi, həddindən artıq əlçatanlığı və interaktiv interfeysi vətəndaşlar və dövlət orqanları arasında ünsiyyətə əlavə dəyər vəd edir. Bu proqramlar istifadəçilərə istənilən yerdən məlumatı asanlıqla yükləməyə imkan verir. Buna baxmayaraq, mobil telefonların dövlət qurumları və vətəndaşlar arasında kommunikasiya platforması kimi qəbulu modellərini təklif edən araşdırmalar göstərir ki, bu kanaldan istifadə etmək istəyi istifadəçilərin qavrayışlarına əsaslanaraq, potensial riskləri ilə müqayisədə kanalın qəbul edilən faydalılığı və istifadə asanlığından təsirlənir. İstifadə nümunələrinə təsir edən dəyişənlərə əhalinin sayı, coğrafi yer, eləcə də yerli əhalinin gəlirləri və təhsili kimi demoqrafik və sosial-iqtisadi amillər daxildir [2, s. 186].

Azərbaycanda son dövrlərdə mobil tətbiqlər vasitəsilə dövlət xidmətlərinin əlçatanlığının təminatına xüsusi diqqət yetirilir. Mobil proqramların xüsusiyyətləri dövlət və vətəndaşlar arasında interaktiv əlaqənin yeni növünü dəstəkləyir və bu bir neçə aspektdə veb-saytların imkan verdiyi imkanlardan daha genişdir:

• Məlumatın yayılması. Mobil proqramlar push texnologiyasını dəstəklədiyi üçün belə xüsusiyyət dövlət orqanlarına məlumatı istifadəçinin cihazına göndərmək imkanı verir. Xüsusilə mesajların göndərilməsi istifadəçilər tərəfindən əvvəlcədən müəyyən edilmiş maraq mövzularına uyğun olaraq göndərilir.

• Daşınma qabiliyyəti və məkana əsaslanan məlumatlar. Mobil cihazların fiziki ölçüsü və çəkisi, onların daşınma qabiliyyəti və insan bədənində daimi mövcudluğu istifadəçinin xüsusi yeri əsasında məlumat göndərməyə və qəbul etməyə imkan verir. Məsələn, insan təhlükə hiss edirsə, onun fotosunu çəkir və yerləşdirir. Bir neçə saniyə ərzində həmin foto lazımi elektron ünvana çatır və problemin həllinə bu yolla operativ şəkikdə nail olmaq daha asandır.

• İctimai görünməzlik. Sosial media arenaları kimi, mobil proqram dövlət orqanları və vətəndaşlar arasında birbaşa ünsiyyətə imkan verir. Məsələn, hər hansı bir dövlət orqanının Facebook səhifəsində şərh yazılırsa, bu, digər istifadəçilər üçün də açıqdır. Lakin mobil tətbiqdən istifadə zamanı isə quruma yönləndirilən hər hansı mesaj və ya şərh yalnız istifadəçi və qurumun əməkdaşı üçün görünür.

• Həssas qrupların mənafeyinin nəzərə alınması. Bəzi hallarda mobil proqramların hazırlanması həm də problemli əhali qruplarının ehtiyaclarını həll etmək vəzifəsini daşıyır. Bununla bağlı, respublikamızda Heydər Əliyev Fondunun rolu əvəzsizdir. Öz fəaliyyətində sosial problemlərin həllinə xüsusi diqqət ayıran Heydər Əliyev Fondu 2005-ci ildə BMT-nin İnkişaf Proqramı ilə görmə qabiliyyətini itirmiş və görmə qabiliyyəti zəif olan insanlar üçün informasiya-kommunikasiya texnologiyalarına çıxışın təmin edilməsinə dair əməkdaşlıq sazişi imzalamışdır. Ardınca gözdən əlil insanların cəmiyyətə

inteqrasiyasına, informasiya-kommunikasiya vasitələri ilə bilik, məlumat əldə etmək imkanlarının genişləndirilməsinə dair bir sıra addımlar atılmışdır. Məsələn, 2012-ci ildə Heydər Əliyev Fondu Azərbaycan Gözdən Əlillər Cəmiyyətinə "Mini informasiya laboratoriyası" hədiyyə etmişdir. "Mini informasiya laboratoriyası"na xüsusi kompüter masası, kompüter dəsti, gözdən əlil şəxslərə müxtəlif informasiyaları əldə etmək və ötürmək imkanı yaradan proqram sistemi daxildir. 2012-ci ilin oktyabrın 7-də Heydər Əliyev Fondunun təşəbbüsü ilə Yevlax şəhərində məhdud fiziki imkanlı insanlar üçün Regional İnformasiya Mərkəzi inşa olunmuşdur. Mərkəzdə kompüter mərkəzi də istifadəyə verilmişdir. Kor və görmə qabiliyyəti zəif olan insanlar üçün təlim keçəcək müəllimlərin hazırlanması işi aparılmış, kompüterlər üçün "Virqo" xüsusi proqram təminatı Azərbaycan dilinə tərcümə edilərək lokallaşdırılmışdır.

Azərbaycanda son dönəmdə multikulturalizmin inkişafı, informasiya məkanına xüsusi diqqət ayrılması, eləcə də elektronlaşma proseslərinin davam etdirilməsi istiqamətində əlaqələndirilmiş tədbirlər planının icrasını əhatə edir. Multikultural məkanda informasiya mədəniyyəti sahəsinə marağın artmasının səbəbləri arasında aşağıdakıları qeyd etmək olar:

– yeni multikultural məkanın inkişafı ilə yanaşı, virtual məkanı quran yeni elektron rabitə sistemlərinin qlobal şəbəkədə tətbiqi;

– real və virtual elementləri birləşdirən bir çox mədəni məkanlarda iştiraka imkan yaradan informasiya savadlılığının yeni formaların inkişaf etdirilməsi zərurəti;

– mədəni cəhətdən müxtəlif informasiya sistemlərində informasiyanın idarə olunmasına kömək edəcək bacarıqların əldə edilməsi ehtiyacı;

– getdikcə müasirləşən informasiyanın, müasir medianın inkişafı ilə əlaqədar təhsilin innovativ və qeyri-ənənəvi perspektivləri;

– üst-üstə düşən mədəniyyətlərin çoxluğu şəraitində informasiya disfunksiyalarının aradan qaldırılması ehtiyacı;

– əhatə dairəsini real məkandan kənara çıxaran mədəniyyətlərarası təhsilə ehtiyac;

– transqressiv xarakterli mədəniyyətlərarası sosial sistemlərdə intensiv informasiya axını prosesləri və s. [13, s. 193].

Qeyd olunan istiqamətdə respublikamızda görülən işlər gözlənilən nəticələrin əldə olunmasına xidmət edir.

Azərbaycan Respublikasında elektron dövlət quruculuğunu elektron vətəndaşlığın elementləri müstəvisində şərh edən G.A.Rzayevanın şərhinə görə, ölkədə elektron hökumətin formalaşdırılmasına xüsusi diqqət yetirilir və dövlət orqanları ilə vətəndaşlar arasında münasibətlərinin İKT-dən istifadə etməklə sadələşdirilməsi, şəffaflaşdırılması bürokratik əngəllərin qarşısının alınmasına xidmət edir. Nəticədə e-imzanın tətbiqi genişlənir, dövlət orqanları tərəfindən müxtəlif elektron xidmətlər göstərilir. Hazırda Elektron hökumət portalına qoşulmuş dövlət qurumlarının elektron xidmətləri bir pəncərə prinsipi əsasında əhaliyə təqdim edilir. Elektron hökumət portalı haqqında Əsasnamənin təsdiq

edilməsi və elektron xidmətlərin genişləndirilməsi ilə bağlı tədbirlər barədə Azərbaycan Respublikası Prezidentinin 5 fevral 2013-cü il tarixli 813 saylı Fərmanı bu sahədə aparılan işlərə xüsusi təkan vermişdir [1, s. 65].

IV. Elektron demokratiya və insan hüquqlarının müasir inkişaf tendensiyaları

Ümumilikdə, idarəetmənin elektron xüsusiyyəti elektron demokratiyanı da əhatə edir ki, bu qərarların qəbul edilməsini dəstəkləmək və demokratik institutları və prosesləri təkmilləşdirmək üçün İKT-dən istifadəni nəzərdə tutur. Elektron demokratiya idarəetmə, hökumət, parlament, təşəbbüs, səsvermə, təşviqat, iştirak və s. kimi bir neçə onlayn və elektron fəaliyyəti əhatə edir. Bununla belə, elektron demokratiya nümayəndə formalarının əvəzi kimi deyil, əksinə, birbaşa demokratiya və vətəndaşların səlahiyyətlərinin artırılması elementlərini əlavə etməklə onu tamamlayır. Başqa sözlə, bu yeni bir şey deyil, sadəcə olaraq demokratiyanı daha səmərəli etmək üçün İKT-dən istifadədir.

Tim O'Reilly-nin texnologiya mərkəzli yanaşması WEB 2.0-ı yeddi əsas mövzu baxımından müəyyən edir: İnternet siyasi diskurs platforması kimi; siyasi internetdən istifadə nəticəsində yaranan kollektiv kəşfiyyat; məlumatların xüsusi proqram və aparat tətbiqləri üzərində əhəmiyyəti; ictimai sahədə daimi eksperimentalizm; istehlakçılıq vasitəsilə kiçik miqyaslı siyasi iştirak formalarının yaradılması; siyasi məzmunun çoxsaylı tətbiqlər üzərində təbliği; siyasi saytlarda zəngin istifadəçi təcrübələri [3, s. 19]. Əslində bu prinsip o deməkdir ki, internet köhnə statik səhifələr modelindən şəbəkə proqram təminatı xidmətləri vasitəsilə geniş spektrli məqsədlərə nail olmaq üçün vasitəyə doğru irəliləmişdir. Bütün bunlar da elektron demokratiyanın inkişafına təkan verən faktorlardır.

Elmi tədqiqatlarda elektron demokratiya termininin vahid tərifi yoxdur. Bununla belə, terminin düzgün başa düşülməsi üçün ən fərqli və dəqiq görünən bir neçə yanaşmanı təqdim etmək mümkündür. Məsələn, ABŞ-ın Viktoriya ştatının Yekun Hesabatında elektron demokratiya informasiya kommunikasiya texnologiyalarından fərdlər tərəfindən vətəndaş kimi düşünmək və hərəkət etmək seçimlərini genişləndirmək, zaman və məkanla məhdudlaşdırılmayan və daha geniş kollektiv azadlığa nail olmaq üçün istifadə edilməsi müəyyən edilmişdir [5].

Andrzej Kaczmarczyk və Roman Czajkowski tərəfindən təqdim olunan tərifə görə, elektron demokratiya sivil konsepsiyanın meydana çıxdığı andan təkliflərin formalaşdırılmasından onun son həyata keçirilməsinə qədər elektron media vasitəsilə həyata keçirilən proseslərin məcmusu kimi başa düşülə bilər. Bu məcmu tədqiqat fəaliyyətlərini, planlaşdırma, həyata keçirmə və idarəetməni (qərarların qəbulu, nəzarətin götürülməsi, məlumat, ünsiyyət və s.) əhatə edir [10, s. 75].

Martin Hagenə görə, elektron demokratiya kompüter və kompüter şəbəkələrinin informasiya və kommunikasiya, maraqların artikulyasiyası və aqreqasiyası və qərarların qəbulu kimi demokratik prosesin mühüm funksiyalarını yerinə yetirmək üçün istifadə olunduğu istənilən demokratik

siyasi sistemdir. Hagen elektron demokratiyanın üç müxtəlif anlayışını sadalayır: teledemokratiya, kiberdemokratiya və elektron demokratiya [8]. 1970-ci illərdə inkişaf etdirilən teledemokratiya Amerika siyasi sistemində birbaşa demokratiyanın əlavə formalarını tətbiq etmək və yeni kommunikasiya texnologiyalarından istifadə etməklə həyata keçirmək üçün nəzərdə tutulmuşdur. Teledemokratiya anlayışı kabel televiziyasının inkişafı nəticəsində yarandığı halda, kiberdemokratiya kompüter şəbəkələrinin təkamülünə əsaslanır. Teledemokratiya və kiberdemokratiyadan fərqli olaraq, elektron demokratikləşmə demokratiyanın birbaşa formalarını bərqərar etmək deyil, təmsilçi demokratiyanı təkmilləşdirmək məqsədi daşıyır. Hagen elektron demokratikləşməni siyasi hakimiyyətin gücləndirilməsi üçün yeni kommunikasiya texnologiyalarından istifadə etməklə demokratiyanın inkişaf etdirilməsi və möhkəmləndirilməsi forması kimi başa düşür [8].

Alman politoloqu Marianne Kneuerin fikrincə, e-demokratiya müəyyən akademik dairələrdə demokratik prosesləri canlandırmağa və ya modernləşdirməyə qadir olan, demokratik apatiya və yorğunluğun antidotu kimi qiymətləndirilir [4, s. 70].

E-demokratiyanın inkişafı prosesində İKT-nin öz xüsusiyyətlərindən irəli gələn bir sıra problemlər də meydana çıxır. Məsələn, İKT infrastrukturunda olan zəifliklər informasiya təhlükəsizliyinin aşağı səviyyəli təminatına səbəb olur ki, bu da e-demokratiya üçün təhlükə yaradır. Sunstein təklif edir ki, internet əslində düzgün məsləhətçi demokratiyaya qarşı fəaliyyət göstərə bilər, çünki o, bizə normal həyatda çox vaxt ümumi təcrübə yaradan və həqiqətən birgə, endogen qərarların qəbul edilməsini təşviq edən arzuolunmaz məlumatların növünü yoxlamağa imkan verməklə icmaları parçalayır [9, s. 133]. Lakin kompüter texnologiyası ən azı idarə edənlər və idarə olunanlar arasında daha tam demokratik, iştirakçı və cəlbedici müzakirəni dəstəkləmək üçün istifadə oluna biləcək yeni strategiyaların işlənib hazırlanması imkanını təklif edir. Virtual məkanda yaradılmış yeni ictimai məkanda daha rasional ünsiyyət vəd edən bu cür ideyalar, bəlkə də təmsilçi demokratiyanın daha ənənəvi formalarını, hətta qısa və ya orta müddətdə əvəzləyəcəyini gözləməsə belə, canlandıra bilər. Ona görə də ümumən demokratiyanın yeni texnologiya ilə sarsılacağı və insanların eyni fiziki məkanı tutması və geniş oxşar təcrübəni paylaşaraq ümumi vətəndaşlığa malik olması ideyasının İKT tərəfindən məhv ediləcəyi yanaşması ilə razılaşmaq bir qədər absurd görünür.

Demokratiyanın monitorinq ölçüsü dövlətlərin şəffaf və hesabatlı olmasını təmin etmək üçün vətəndaşların fəaliyyətinə aiddir. İnternetlə əlaqəli siyasi cəhətdən maraqlı hadisələrdən biri vətəndaşların hərəkətinə ehtiyac yarandıqda siyasətçiləri izləmək və sonra maraqlı ictimaiyyəti məlumatlandırmaq və səfərbər etmək üçün yerli hərəkatların gücləndirilmiş imkanlarıdır. Ona görə də vətəndaşlar e-dövlət xidmətlərinin tətbiqində mərkəzi halqa hesab edilməlidir. Uğurlu idarəetmə modeli vətəndaş xüsusiyyətlərini və onlayn xidmətlər vasitəsilə

vətəndaş məmnunluğunun artırılması ilə bağlı amilləri üstün tutmalıdır. Məsələn, onlayn rejimdə 24/7, təhlükəsiz və etibarlı təcrübə təmin edilməlidir. Bu model göstərir ki, vətəndaş məmnunluğunun yüksək səviyyəsi elektron hökumətin qəbulu və istifadəsinin daha yüksək səviyyələrinə gətirib çıxarmalıdır.

Virtual məkanda vətəndaş aktivliyinə və e-demokratiyaya mənfi təsir göstərən istiqamətlərdən ən başlıcası informasiya manipulyasiyasıdır. Hesab olunur ki, bu cür manipulyasiya insan hüquq və azadlıqları üçün ciddi təhlükədir [6, s. 191]. Çünki saxta xəbərlərlə mübarizə pərdəsi altında cəmiyyət üzvləri ifadə azadlığını təhdid edən informasiya sahəsinə dövlət nəzarətinin yenidən güclənməsinə məruz qalır. Məsələn, 2018-ci ildə Misirdə rejim saxta xəbərlər yaymaq ittihamı ilə 21 informasiya saytının bağlanmasına göstəriş vermişdi ki, bu senzuraya məruz qalan saytlar arasında mövcud rejimə qarşı çıxan müstəqil, mütərəqqi qəzet olan MadaMisr də var idi [14]. Ona görə də artıq bəzi dövlətlərdə (məsələn, Fransada) informasiya manipulyasiyasına qarşı parlament tərəfindən qanun layihəsi müzakirə olunur və bu qanun bir çox təminatlar təklif edir. Onun müddəaları vaxtla məhduddur və yalnız seçki kampaniyalarına şamil edilir. Qanun layihəsi həmçinin müstəqil dövlət orqanı olan CSA-nın səlahiyyətlərinin gücləndirilməsinə əsaslanır. Bu qanunvericilik təklifinin əsas məqsədi sadəcə olaraq seçki bülleteninin dürüstlüyünü və bütövlüyünü qorumaqdır ki, o, xalqın iradəsini sədaqətlə əks etdirsin [6, s. 192].

V. Nəticə

Yeni informasiya-kommunikasiya texnologiyalarının meydana çıxması ilə e-dövlət və e-demokratiya son onillikdə dövlət idarəçiliyini əhəmiyyətli dərəcədə yenidən formalaşdıran və gələcəkdə idarəetməni yenidən formalaşdırmaq potensialına malik mühüm yeniliklər olmuşdur. İnformasiya texnologiyalarının dövlət xidmətlərinin səmərəliliyini artıra biləcəyinə inam sayəsində e-dövlət və e-demokratiya dövlət idarəçiliyi tədqiqatlarına bir çox yeni məsələlər, modellər və nəzəriyyələr gətirir. Bu inkişaf edən sahələr arasında nisbətən araşdırılmamış mövzulardan biri elektron dövlətin və elektron demokratiyanın inkişafının müəyyənedici amilləridir.

Tədqiqat zamanı müxtəlif dövlətlərin, o cümlədən Azərbaycan Respublikasının təcrübəsinin müqayisə olunması nəticəsində həmin amillər təhlil edilmiş, elektron demokratiyanın və elektron dövlətin inkişafının insan hüquq və azadlıqlarına təsir istiqamətləri müxtəlif inkişaf modelləri müstəvisində araşdırılmışdır. Nəticə etibarilə, öyrənmə modelinin daha uğurlu olduğu qənaətinə gəlinmişdir. Çünki məkan və qonşu dövlət amilləri nəzərə alınmadan dünya dövlətlərinin təcrübəsinin öyrənilməsi və milli təcrübəyə tətbiqi daha məqsədəuyğun hesab olunur. Burada qlobal səviyyədə virtual məkana daxil olma və tanınma da təbii ki, mühüm rol oynayır. Çünki məhz beynəlxalq normaların dövlətdaxili informasiya siyasətində rəhbər tutulması daha humanist və insan hüquqlarına hörməti təmin edən idarəetmənin inkişafına təkan verir.

REFERENCES:

1. Aliyev A.I., Rzayeva G.A., Ibrahimova A.N., Maharramov B.A., Mammadrzali Sh. Information law: Textbook. Baku, Nurlar, 2019, 448 p (in Azerbaijani / İnformasiya hüququ: dərslik / Ə.İ.Əliyev, G.A.Rzayeva, A.N.İbrahimova, B.A.Məhərrəmov, Ş.S.Məmmədrzalı - Bakı: Nurlar nəşriyyatı, 2019, 448 s).
2. Azi Lev-On and Hananel Rosenberg. Mobile applications in local government // Electronic Government, 2021, Vol. 17, No. 2, pp. 183-198.
3. Chadwick, Andrew. Web 2.0: New Challenges for the Study of E-Democracy in an Era of Informational Exuberance // I/S: A Journal of Law and Policy for the Information Society, 2008-2009. Vol. 5, No. 1, pp. 9-42.
4. Gabor, Eugen, et al. Digital Democracy and the Growing Threat of Illiberalism. Opportunities and Limitations as Reflected by the Estonian Case // Perspective Politice, 2023. Vol. 16, pp. 66-84.
5. Inquiry into Electronic Democracy. Final Report, Parliament of Victoria, Australia, Scrutiny of Acts and Regulations Committee, 2003. URL: http://www.parliament.vic. gov.au/SARC/E-Democracy/FinalReport/FinalReport.pdf
6. J.-B. Jeangène Vilmer, A. Escorcia, M. Guillaume, J. Herrera, Information Manipulation: A Challenge for Our Democracies, report by the Policy Planning Staff (CAPS) of the Ministry for Europe and Foreign Affairs and the Institute for Strategic Research (IRSEM) of the Ministry for the Armed Forces, Paris, August 2018, 207 p.
7. Lee, Chung-pin, et al. Testing the Development and Diffusion of E-Government and E-Democracy: A Global Perspective // Public Administration Review, 2011. Vol. 71, No. 3, pp. 444-454.
8. M.Hagen. A Typology of Electronic Democracy, 1997. http://www.uni-giessen.de/ fb03/vinci/labore/netz/hag-en.htm
9. Morison, John. E-Democracy: Online Civic Space and the Renewal of Democracy? // Canadian Journal of Law and Jurisprudence, 2004. Vol. 17, No. 1, pp. 129-142.
10. Musial-Karg, Magdalena. E-Voting as a New Form of Civic Participation in Democratic Procedures // Polish Political Science Yearbook, 2010. Vol. 39, pp. 72-87.
11. Ronchi, M. e-Democracy: Toward a New Model of (Inter) active Society. Cham: Springer, 2019, 242 p.
12. Smolik N.Q., Kurylev K.P., Parkhitko N.P. National regimes of internet regulation in CIS // Postsovetskie issledovaniya, vol. 4, 2021. № 8, p. 705-718 (in Russian / Курылев, К.П., Пархитько, Н.П., Смолик, Н.Г. Национальные режимы регулирования сети интернет в странах СНГ // Постсоветские исследования. Т.4, 2021. № 8, с. 705-718).

13. Sylwia Jaskula. Information culture in intercultural space: moderation of values // Politeja, 2016. Vol, 5, No. 44, pp. 183-198.
14. Tourya Guaaybess. Fake news: de l'instrumentalisation d'un terme à la mode ou les nouveaux visages du 'Schmilblick' // The Conversation, 11 February 2018. https://theconversation.com/fake-news-de-linstrumentalisation-dun-terme-a-la-mode-ou-les-nouveaux-visages-du-schmilblick-91339
15. Twizeyimana, Jean Damascene and Andersson, Annika. The public value of E-Government - A literature review // Government Information Quarterly, 2019. V. 36, p. 167-178.

Development of e-government and e-democracy:
new legal trends in protection of human rights and freedoms

ELNUR HUMBATOV*

Abstract

In today's world, studying the interaction between technology and the state, focusing on the potential of democratization, is relevant not only from an academic point of view, but also from a pragmatic point of view. Because it is impossible for the state to stay out of these processes and not to become electronic at a time when virtualization is widespread and the opportunities offered by new technologies for people are increasing. At the same time, new digital means of public service delivery require different regulation because they are fast and potentially damaging to rights in case of failure. In this sense, the main risks and opportunities that electronic government systems can bring to democratization and important parameters for its regulation are issues that should be given special attention from the aspect of ensuring human rights and freedoms.E-governance is of special importance for ensuring human rights and freedoms in a new form in the digital era. Because as a result of transparency and accountability, which is the main element of such management, government bodies understand that anyone can view their information online, and as a result, they need to be accountable to the public. Transparency and accountability can be considered key elements for democratic states, which can be enhanced by e-governance. E-governance, supported by openness and transparency, also offers the possibility of reducing corruption in public procedures due to the reduction of personal contact.The analysis of the points mentioned in the article was carried out in two directions: reference to doctrinal analyzes and research of practice. Proposals and recommendations were presented as a result of research conducted in both directions.

Keywords: *e-government, e-democracy, e-state models, human rights, e-rights, Internet, ICT.*

* Ph.D. in Law / Baku State University / email: elnur_88@inbox.ru

Elnur Hümbətov. Elektron dövlət və elektron demokratiyanın inkişafı: insan hüquq və azadlıqlarının qorunmasına dair yeni hüquqi tendensiyalar // Azərbaycan Hüquq Jurnalı. 2024 (№2), s. 63-75. DOI: 10.61638/WCKE6189

Развитие электронного государства и электронной демократии: новые правовые тенденции в защите прав и свобод человека

ЭЛЬНУР ГУМБАТОВ*

Аннотация

В современном мире изучение взаимодействия технологий и государства с акцентом на потенциал демократизации актуально не только с академической точки зрения, но и с прагматической точки зрения. Потому что невозможно, чтобы государство осталось в стороне от этих процессов и не стало электронным в то время, когда виртуализация широко распространена и возможности, которые новые технологии дают людям, увеличиваются. В то же время новые цифровые средства предоставления государственных услуг требуют иного регулирования, поскольку они действуют быстро и потенциально наносят ущерб правам в случае неудачи. В этом смысле основные риски и возможности, которые системы электронного правительства могут привнести в демократизацию, и важные параметры ее регулирования – это вопросы, которым следует уделить особое внимание с точки зрения обеспечения прав и свобод человека. Электронное управление имеет особое значение для обеспечения прав и свобод человека в новой форме в эпоху цифровых технологий. Потому что в результате прозрачности и подотчетности, которые являются основным элементом такого управления, государственные органы понимают, что каждый может просмотреть их информацию в Интернете и, как следствие, они должны быть подотчетны общественности. Прозрачность и подотчетность можно считать ключевыми элементами демократических государств, которые можно повысить с помощью электронного управления. Электронное управление, поддерживаемое открытостью и прозрачностью, также предлагает возможность снижения коррупции в государственных процедурах за счет сокращения личных контактов. Анализ упомянутых в статье положений проводился по двум направлениям: обращение к доктринальному анализу и исследование практики. Предложения и рекомендации были представлены по результатам исследований, проведенных в обоих направлениях.

Ключевые слова: *электронное государство, электронное правительство, электронная демократия, модели электронного государства, права человека, электронные права, Интернет, ИКТ.*

Redaksiyaya daxil olma tarixi: 10.05.2024
Çapa qəbul: 23.09.2024

* Кандидат юридических наук / Бакинский государственный университет / email: elnur_88@inbox.ru

Fatimə Hüseynova. Səhiyyə sahəsində beynəlxalq hüquq normalarının milli hüquqi implementasiyasının prinsipləri // Azərbaycan Hüquq Jurnalı. 2024 (№2), s. 76-84. DOI: 10.61638/CRPL5798

TİBBİ HÜQUQ

SƏHİYYƏ SAHƏSİNDƏ BEYNƏLXALQ HÜQUQ NORMALARININ MİLLİ HÜQUQİ İMPLEMENTASİYASININ PRİNSİPLƏRİ

FATİMƏ HÜSEYNOVA*

Annotasiya

Məqalədə səhiyyə sahəsində beynəlxalq hüquq normalarının milli hüquqi implementasiyasının prinsiplərindən bəhs olunur. Burada prinsiplərin səhiyyə sahəsində beynəlxalq hüquq normları ilə milli qanunvericiliyin uzlaşdırılmasına xidmət etməsi göstərilir. Bu prosesdə beynəlxalq hüququn hamılıqla qəbul edilmiş prinsiplərinin rolu müəyyən edilir. Uzlaşmanın olması üçün beynəlxalq hüquq normalarının üstünlüyünün qəbul edilməsinin zəruriliyi vurğulanır. Bunun isə milli hüquq sisteminin ümumi qaydasının pozulmaması şərti ilə mümkün olması qeyd olunur.

Açar sözlər: *səhiyyə, prinsiplər, beynəlxalq hüquq normaları, milli hüquqi implementasiya, qanunvericilik, milli hüquq sistemi.*

I. Giriş

Səhiyyə sahəsində beynəlxalq hüquq normalarının milli hüquqi implementasiyası səhiyyə münasibətlərinin hüquqi tənzimlənməsində əhəmiyyətli rol oynayan bir prosesdir. Təbii ki, bu prosesin baş verməsi ümumi göstərişləri özündə ehtiva edən müəyyən prinsiplərə əsaslanır. Prinsiplər yalnız qanunvericilikdə təsbit edildikdən sonra və hüquqtətbiqedici praktika nəticəsində məcburedici qüvvəyə malik olurlar [4, s. 33]. Qanunvericilikdə təsbit olunmamış anlayışlar hüququn prinsiplərinə aid edilə bilməz, bu ən yaxşı halda, hüquq düşüncəsinin ideyaları, elmi nəticələrdir [1, s. 103]. Səhiyyə sahəsində beynəlxalq hüquqi tənzimetmənin prinsiplərindən danışarkən, ilk növbədə, beynəlxalq hüququn prinsiplərinə və bu prinsiplərin səhiyyə hüququna nüfuz etməsinə diqqət yetirmək lazımdır. Əlbəttə burada təhlil beynəlxalq hüququn prinsiplərnin mahiyyətini müəyyən etməkdən ibarət deyildir. Sadəcə səhiyyə sahəsində beynəlxalq hquq normalarının, hansı ki, beynəlxalq hüququn əsas prinsipləri də bura daxildir, milli hüquq sistemində realizəsinin prinisplərini müəyyən etməyə çalışacağıq. Hesab edirik ki, bu müstəvidə ilik prinsip olaraq beynəlxalq hüquq normalarının üstünlüyü prinispini qeyd etmək lazımdır. Beynəlxalq hüquq normlqrının üstünlüyü, dövlətin səhiyyə qanunvericiliyinin beynəlxalq hüququn ümumtanınmış prinsiplərinə və beynəlxalq müqavilələrə uyğun olaraq müəyyən edilməsini ifadə edir. Qeyd etdiyimiz bu anlayış ümumi formada beynəlxalq hüquq normalarının üstünlüyünü özündə ehtiva edir. Əslində bu prinsipə münasibətdə dövlətlərin qanunvericiliyinin fərqli mövqedən yanaşması istisna edilmir. Bununla bağlı, hətta, Azərbaycan Respublikasının

* Hüquq üzrə fəlsəfə doktoru / Bakı Dövlət Universiteti / email: lawyer.fatima85@gmail.com

qanunvericiliyində də eyni yanaşma sərgilənmir. Belə ki, Azərbaycan Respublikası Konstitusiyasının 12.II-ci maddəsində təsbit olunan "Konstitusiyada sadalanan insan və vətəndaş hüquq və azadlıqları Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr uyğun tətbiq edilir" müddəasına və onstitusiyanın 151-ci maddəsinə əsasən, bu üstünlüyün yalnız beynəlxalq müqavilə (bir qayda olaraq dövlətlərarası müqavilələr) normalarına aid olması qənaətinə gəlmək olar. Normativ hüquqi aktlar haqqında 21 dekabr 2010-cu il tarixli Konstitusiya Qanunu (№ 21-IVKQ) isə beynəlxalq hüququn hamılıqla qəbul edilmiş prinsip və normalarının üstünlüyünü Azərbaycan Respublikasında normayaradıcılığı fəaliyyətinin əsas prinsipi olaraq müəyyən edir (m. 8.0.3). Qeyd olunan prinsipə əsasən, Azərbaycan Respublikası beynəlxalq hüququn hamılıqla qəbul edilmiş prinsip və normalarının üstünlüyünü tanıyır və daxili qanunvericiliyinin həmin normalara uyğunluğunu təmin edir (m. 22). Nəzərə alsaq ki, beynəlxalq müqavilələr beynəlxalq hüququn hamılıqla qəbul edilmiş prinsip və normalarına daxildir və onları konkretləşdirir, o halda Konstitusiya və Konstitusiya Qanununun müddəaları arasında hər hansı ziddiyyət yoxdur. Bu mənada Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında 24 dekabr 2002-ci il tarixli Konstitusiya Qanununun (№ 404-IIKQ) İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında 1950-ci il Avropa Konvensiyasına uyğunluğun təmin edilməsi məqsədilə qəbul edilməsi də, Konstitusiyanın 12.I-ci maddəsinin və Normativ hüquqi aktlar haqqında 21 dekabr 2010-cu il tarixli Konstitusiya Qanununn 8 və 22-ci maddələrinin müddəalarının realizəsi olaraq qəbul edilməldir.

Nəzərə alsaq ki, səhiyyə sahəsində beynəlxalq hüquq normalarının əsas məqsədi, insanın sağlamlıq hüququnun təmin edilməsidir. Bu kontekstdə səhiyyə sahəsində beynəlxalq hüquq normalarının milli hüquq sistemlərində realizəsində bu prinsip də əsas götürülməlidir. Qeyd etdiyimiz kimi, beynəlxalq hüququn əsas prinsipi kimi çıxış edən insan hüquq və azadlıqlarına hörmət etmə prinsipi insanın sağlamlıq hüququnun ifadə olunmasında birbaşa mühüm rol oynayır. Belə ki, sağlamlıq hüququna hər kəsin maddi sıxıntı yaşamadan ehtiyac duyduğu səhiyyə xidmətlərindən istənilən vaxt və hər yerdə yararlana bilməsidir . Heç kəs yoxsul olduğuna görə və ya ehtiyac duyduğu səhiyyə xidmətlərindən istifadə edə bilmədiyi üçün xəstələnməməlidir. Ümumdünya Səhiyyə Təşkilatına üzv olan dövlətlər ən yüksək səviyyədə sağlamlıq standartı hüququnu özündə ehtiva edən ən azı bir neçə beynəlxalq insan hüquqları müqaviləsini ratifikasiya etmişdir. Bununla da dövlətin müqavilədə tanınan hüquqları qorumaq və yerinə yetirmək öhdəliyi yaranmış olur. Fiziki və ruhi sağlamlığın əldə edilə bilən ən yüksək standartı hüququ İqtisadi, sosial və mədəni hüquqlar haqqında 1966-cı il Beynəlxalq Paktı da daxil olmaqla bir sıra beynəlxalq hüquqi sənədlərdə təsbit edilmişdir. Buraya azadlıqlar və hüquqlar daxildir. Azadlıqlara insanın öz sağlamlığına və bədəninə nəzarət etmək hüququ (məsələn, cinsi və reproduktiv hüquqlar) və müdaxilədən azad olmaq (məsələn, əlilliyi olan şəxslər üçün işgəncə və qeyri-razı tibbi müalicə və eksperimentlərdən

azad olmaq) daxildir. Bu prinsipin təmin olunması insanların ləyaqətinə, insan hüquq və azadlıqlarına, o cümlədən, əldə edilə bilən ən yüksək sağlamlıq standartlarından istifadə hüququna hörmətlə yanaşmanı nizama salacaq.

Sağlamlıq və insan hüquqları, o cümlədən sağlamlıq hüququ 1953-cü ilə qədər Ümumdünya Səhiyyə Təşkilatının gündəmində idi, təşkilat daxilində aparılan struktur dəyişikliyi onun ciddi və davamlı nəzərdən keçirilməsini uzun illər dayandırdı [9]. 1993-cü ildə ÜST Rebekka Kukun Qadın hüquqları ilə bağlı insan hüquqları kitabını nəşr etdi və bu, təkcə onun üçün yazılmış Ümumdünya İnsan Hüquqları Konfransına (1993) deyil, həm də Əhali və İnkişaf üzrə Beynəlxalq Konfransa töhfə verən məsələləri qaldırdı (1994) [2]. Dörd il sonra Ümumdünya Səhiyyə Təşkilatı sağlamlıq və insan hüquqlarına dair iki günlük qeyri-rəsmi məsləhətləşmə keçirdi və bu məsləhətləşməni sədr sağlamlıq və insan hüquqlarına toxunmaq üçün xüsusi olaraq Ümumdünya Səhiyyə Təşkilatında çağırılan ilk iclas kimi təsvir etdi [6]. İclasın əsas sənədlərindən birində sağlamlıq hüququ üçün konseptual çərçivə təqdim olundu [5]. Bu çərçivə sənədində sağlamlıq insan hüquqlarının mühüm elementi kimi dəyərləndirilmiş və bu sahədə dövlətlərin üzərinə öhdəliklər qoyulmuşdur.

II. Səhiyyə sahəsində normaların implementasiyası

Səhiyyə sahəsində beynəlxalq hüquq normalarının milli hüquqi implementasiyasında rəhbər tutulmalı olan ikinci əsas prinsip beynəlxalq öhdəliklərin vicdanla yerinə yetirilməsi (*pacta sunt servanda*) prinsipidir. *Pacta sunt servanda* prinsipinə görə, dövlət tərəfdar çıxdığı beynəlxalq müqavilələri vicdanla yerinə yetirməyə borcludur. Bu, həm beynəlxalq müqavilələr, həm də beynəlxalq adətlərdən irəli gələn əsas öhdəliklərdən biridir. Bununla belə, müəyyən hallarda beynəlxalq hüquq hələ də tərəfə imzaladığı beynəlxalq müqavilələrin icrasını dayandırmağa və ya ləğv etməyə icazə verir. Konkret olaraq, Müqavilələr hüququ üzrə 1969-cu il Vyana Konvensiyasına əsasən, tərəf müəyyən şərtlərə cavab verdikdə, müqavilənin icrasını dayandırmaq və ya ona xitam verməkk üçün şəraitin əsaslı dəyişməsi müddəasına müraciət edə bilər.

Pacta sunt servanda prinsipi və beynəlxalq öhdəliklərin *vicdanla yerinə yetirilməsi* müasir konstitusiyaların əsas xüsusiyyətləri olaraq qalır. Dövlətlər beynəlxalq müqavilələrə tərəfdar çıxmaqla bərabər pacta sunt servanda prinsipini qəbul edir və təşviq edir. Bu prinsipin qəbul olunması ilə bağlı BMT Baş Assambleyasının bəyanatı var. 1949-cu il bəyanatında deyilir: "Hər bir dövlət müqavilələrdən və beynəlxalq hüququn digər mənbələrindən irəli gələn öhdəliklərini vicdanla yerinə yetirməyə borcludur və bu vəzifəni yerinə yetirməmək üçün öz konstitusiya və ya qanunlarının müddəaları əsas ola bilməz" [3].

Fikrimizcə, milli hüquq sistemlərindən irəli gələn ümumi prinsiplər və beynəlxalq hüquq sistemində formalaşan prinsiplər çox fərqli görünsələr də, onlar arasındakı sərhəd o qədər də böyük deyil. Milli hüquq sistemlərindən irəli gələn prinsiplər, həm də beynəlxalq hüquq sistemi çərçivəsində formalaşır. *Məsələn,* Roma hüququ mənşəli olan *pacta sunt servanda* prinsipinin beynəlxalq hüquqda

dərin kök salması az qala milli hüquq sistemlərində əhəmiyyətini itirmişdir. Bəzi hallarda, mübahisə edən tərəf eyni arqumenti dəstəkləmək üçün həm milli, həm də beynəlxalq hüququn ümumi prinsiplərinə istinad edə bilər. Portuqaliya öz anklav ərazisinə daxil olmaq hüququnun olduğunu müdafiə etmək üçün təkcə milli hüquq sistemlərindən irəli gələn ümumi prinsiplərə deyil, həm də beynəlxalq hüququn prinsiplərinə istinad edilmişdir [16]. Burada bir növ beynəlxalq hüququn prinsipləri əsas götürülmüşdür.

Pacta sunt servanda müqavilə hüququnun təməl daşlarından biridir. *Pacta sunt servanda* prinsipinə görə, müqavilə tərəfləri kiminlə müqavilə bağlamaq istədiklərini və bu müqavilənin şərtlərini seçmək azadlığına malikdirlər [7]. Bu prinsipin təsiri ondan ibarətdir ki, tərəflər qanuni və könüllü şəkildə müqavilə bağladıqda, müqavilə mümkün qədər minimum məhkəmə müdaxiləsi ilə tərəflər üçün ciddi şəkildə icra edilməlidir. Bu prinsipin həyata keçirilməsində məhkəmələrdən müqavilənin müqəddəsliyini tanıması tələb olunur və buna görə də müqavilənin icra qabiliyyətini müəyyən edərkən onlar ciddi şəkildə müqavilənin müddəalarına əsaslanmalıdırlar [7]. Beləliklə, müqavilə ilə bağlı mübahisə yaranarsa, məhkəmə qərar qəbul edərkən (müəyyən istisnalar nəzərə alınmaqla) öz mülahizəsinə əsaslana bilməz.

Hesab edirik ki, burada xüsusi bir məqama fikir vermək lazımdır. Hər bir ölkənin milli qanunvericiliyinə görə, bağlanılmış müqavilənin əsas məqsədi tərəflərin qarşılıqlı öhdəliklərinin yerinə yetirilməsidir. Hüququn ümumi prinsiplərindən biri və müqavilə hüququnun ilkin aliliyi *pacta sunt servanda* prinsipidir. Prinsip ondan ibarətdir ki, müqavilə imzalandığı zaman mövcud olan şərtlər gələcəkdə dəyişsə belə, mümkün qədər birinci şərtlərə uyğun yerinə yetirilməlidir. Başqa sözlə, müqavilə şərtlərə uyğun olaraq vaxtında icra edilməli və sonradan ona heç bir dəyişiklik olmamalıdır. Bu səbəbdən də tərəflər öz aralarındakı müqavilənin şərtlərinə tam əməl etməyə borcludurlar. Məsələ bununla bitmir. Burada müqavilənin bağlanması zamanı şəraitin dəyişməsi bəzən qaçılmazdır və sonradan bu tərəflərə əhəmiyyətli dərəcədə təsir edir. Bu baxımdan, Roma hüququndan qaynaqlanan daha bir prinsipin *"clausula rebus sic stantibus*"-un tətbiqinə ehtiyac yaranır. *Clausula rebus sic stantibus* şəraitin əsaslı dəyişməsi səbəbindən müqavilə və ya müqavilənin tətbiq edilməməsinə imkan verən hüquqi doktrinadır. Beynəlxalq hüquqda doktrina mahiyyət etibarilə, *pacta sunt servanda* prinsipindən yan qaçma kimi dəyərləndirilir [14]. *Clausula rebus sic stantibus* yalnız tərəflər tərəfindən heç vaxt nəzərdə tutulmadıqları təqdirdə dəyişmiş vəziyyətlərə aiddir: əgər müqavilənin tərəfləri dəyişdirilmiş halların baş verməsi barədə fikirləşiblərsə, doktrina tətbiq edilmir və müddəa qüvvədə qalır. Clausula rebus sic stantibus dəyişmiş vəziyyətlərə yalnız o halda aiddir ki, onlar tərəflər tərəfindən heç vaxt nəzərdə tutulmayıb. Buna çoxsaylı nümunələr göstərmək olar. Müasir dövr üçün COVID 19 pandemiyasının yaratdığı problemlər və onun beynəlxalq müqabilələrə təsiri buna aydın nümunədir. Gözlənilmədən bütün dünyanı bürüyən COVID 19 pandemiyası dövlətlərin iqtisadiyyatına ciddi zərər vurmaqla bir çox sahələrdə,

o cümlədən, səhiyyə sahəsində bağlanılmış müqavilələrin icrasını çətinləşdirdi. Burada *clausula rebus sic stantibus* prinsipinin tətbiq olunub-olunmaması ciddi müzakirələrə və mübahisələrə yol açdı. Xüsusilə qeyd olunurdu ki, bu prinsipin tətbiq olunması mütləq, Ümumdünya Səhiyyə Təşkilatının nizamnamə və qərarlarında qeyd olunmalıdır.

Fikrimizcə, *pacta sunt servanda* və ona zidd olan *clausula rebus sic standibus* prinsipləri dövlətlərarası beynəlxalq müqavilələrə şamil olunmaqla, ondan irəli gələn müddəalar dövlətlərin milli qanunvericiliklərində də öz əksini tapmalıdır. Daha dəqiq desək, şəraitin dəyişməsi nəticəsində dövlətin fiziki və hüquqi şəxsləri arasında bağlanmış müqavilələrə clausula rebus sic stantibus prinsipi tətbiq olunmalıdır.

Səhiyyə sahəsində beynəlxalq əməkdaşlıq prinsipi beynəlxalq hüquqi tənzimetmənin prinsiplərindən biri kimi aktuallığı ilə diqqəti cəlb edir. Son illərdə səhiyyə sahəsində beynəlxalq əməkdaşlıq və ya beynəlxalq yardım səhiyyə sahəsində islahatların həyata keçirilməsində, bərabərlik və yoxsulluğun aradan qaldırılması siyasətində və ümumilikdə ölkələrin sosial inkişafının təşviqində müvafiq rol oynamışdır. Səhiyyə sahəsində beynəlxalq əməkdaşlıq əhatə dairəsinə görə sadə tibb və texniki məsələlərdən daha genişdir, o, beynəlxalq hüquq, ticarət nümunələri, münaqişə zonaları, geosiyasət, uzunmüddətli ittifaqlar və s. məsələləri əhatə edir. Müasir dövrdə bu, insanlara təsir edən sağlamlıq problemlərinin dinamikası ilə bağlıdır. Sağlamlıq problemlərinin əksəriyyətinin dövlətlərarası münasibətlərin maneələri səbəbindən həlli mürəkkəbdir və bəzi hallarda səhiyyədən imtina hətta tabeçilik və təsir vasitəsi kimi istifadə olunur.

Səhiyyə sahəsində beynəlxalq əməkdaşlıq sağlamlıq hüququnun beynəlxalq hüquqda fundamental hüquq kimi qəbul edilməsi baxımından xüsusilə vacibdir. Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 25(1) maddəsi və İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Paktın 12-ci maddəsi bu hüququ xüsusi olaraq vurğulayır və onun əhəmiyyətini diqqətə çatdırır. Eyni zamanda Paktın 14-ü maddəsi bu prinsipi insan hüquqları baxımından, əldə edilə bilən ən yüksək sağlamlıq standartı hüququ kimi daha da inkişaf etdirdi. ÜST çərçivəsində qəbul edilən 2005-ci il Beynəlxalq Səhiyyə Qaydaları beynəlxalq əməkdaşlığa olan töhfəkimi qəbul etmək olar. Lakin heç də bu əməkdaşlığın ən yüksək səviyyədə inkişafı demək deyil. COVİD 19 pandemiyası göstərdi ki, səhiyyə sahəsində bu gün çox ciddi boşluqlar var. Bu boşluqların aradan qaldırılması çox vacibdir. Səhiyyədə beynəlxalq əməkdaşlığın ən erkən sahələrindən biri hökumətlərarası təşkilatın yaradıldığı vaxta təsadüf edirdi və demək olar ki, səhiyyə sahəsində beynəlxalq hüquqi əməkdaşlığın əhatə dairəsi son vaxtlara qədər çox məhdud idi. Son 20 il ərzində beynəlxalq əməkdaşlığın həcmi əhəmiyyətli dərəcədə artmışdır [17]. XX əsrin birinci yarısında sərhədlərdə səhiyyə nəzarəti tədbirləri ilə bağlı ən azı on üç konvensiya və ya diplomatik xarakterli razılaşma mövcud idi. Təəssüf ki, bu konvensiyaların heç biri öz sələflərini tamamilə əvəz etməmişdir. Dövlətlərin

üzərinə götürdüyü öhdəliklərin çoxluğu - bəziləri bu diplomatik sənədlərin bəzilərinin iştirakçısı olmaqla, digərlərinin deyil-həmişə beynəlxalq nəqliyyatda narahatlıq və çaşqınlığa səbəb olmuşdur. Bundan əlavə, ratifikasiya edilmək şərti ilə konvensiyaların imzalanması proseduru razılaşdırılmış mətnlərin hər yerdə eyni vaxtda sürətli tətbiqinə imkan vermirdi, nə də dəyişən epidemioloji vəziyyəti, əldə edilmiş təcrübəni və ya mövcud vəziyyətə nəzər salmaq üçün onları asanlıqla yeniləmək mümkün deyildi [19].

Beynəlxalq hüquq normalarının milli hüquqi implementasiyasında əhəmiyyətli əsas olan prinsip dövlətlərin suveren bərabərlik prinsipidir. Bu prinsipə uyğun olaraq, öz lərinin səhiyyə sahəsində siyasətlərinə müvafiq olaraq, qanunvericilik bazası yaratmaq və həyata keçirmək üçün suveren hüquqa malikdirlər. Bu prinsipə görə, beynəlxalq hüquq normalarının milli səviyyədə realizəsi dövlətin ümumi qaydasını (*ordre public*) pozmamlıdır. Azərbaycan Respublikasına münasibətdə Konstitusiya və referndumla qəbul edilmiş qanunlar ümumi qaydanın məzmununu müəyyən edir. Bu müstəvidə milli hüquq sisteminin beynəlxalq hüquqla uzlaşması, ümumi qaydaya (*ordre public*) xələl gəlməməsi şərtilə beynəlxalq hüquq normalarının üstünlüyünün qəbul edilməsi ilə mümkündür.

Səhiyyə sahəsində beynəlxalq hüquq normalarının realizəsində əhmiyyətli olan növbəti prinsip məsuliyyət prinsipidir. Bu prinsipə əsasən, səhiyyə münasibətlərinin tənzimlənməsi dövlətlər üçün öhdəlik olmaqla yanaşı, həm də məsuliyyət yaradır. Xüsusilə qeyd etmək lazımdır ki, ləyaqətli yaşamağa imkan verən ən yüksək əldə edilə bilən sağlamlıq standartından istifadə etmək bütün digər insan hüquqlarından istifadə etmək üçün zəruri olan əsas insan hüququdur [18]. Bu baxımdan səhiyyə xidmətinə çıxışı qorumaq dövlətlərin mühüm öhdəliklərindən biridir. Təmiz suya çıxış, kifayət qədər qida, sağlam ətraf mühit və s. daxil olmaqla bir çox komponentləri əhatə etsə də, vaxtında və müvafiq səhiyyə xidmətinə çıxış sağlamlıq hüququnun əsas komponentini təşkil edir [11]. İqtisadi, sosial və mədəni hüquqlar haqqında 1966-cı il Paktının 12-ci maddəsi hər bir şəxsin fiziki və psixi sağlamlığının ən yüksək səviyyəsinə çatmaq hüququnu göstərir və dövlətlərin bu hüququ tanıdıqlarını qeyd edir. Bu sahədə dövlətlər öhdəliklərini yerinə yetirməklə bərabər, öz hüdudlarından kənarda sağlamlıq hüququna hörmət və mühafizəni təmin etmək üçün 12-ci maddəyə əsasən əlavə öhdəliklər daşıdığını müəyyən ediblər. Dövlətlər tərəfindən yerinə yetirilən hərəkət və ya hərəkətsizliklər öz yurisdiksiyalarından kənarda yaşayan insanların sağlamlıq hüququna mənfi təsir göstərməsinin qarşısını almalıdırlar.

Dövlətlər sağlamlıq hüququnun qorunması, təşviq olunması üçün zəruri olan obyektlərin, xidmətlərin və məhsulların ədalətli təmin edilməsi öhdəliyini birmənalı şəkildə yerinə yetirməlidirlər [12]. "*Purohit və başqaları Qambiyaya qarşı*" işində Afrika Komissiyası qərara aldı ki, Qambiya Afrika Xartiyasının 16 və 18(4) maddələrinin tələblərini yerinə yetirmək üçün mühüm əhəmiyyət kəsb edən sağlamlıq hüququndan istifadəni təmin etməkdə aciz qalıb [8]. Afrika Xartiyası, sağlamlıq hüququna hörmət etmək və vətəndaşlarına tibbi xidmət göstərmək üçün Nigeriya hökumətinə insan hüquqları məsuliyyətinin

qoyulmasında da mühüm rol oynamışdır. "Media Hüquqları Gündəliyi və digərləri Nigeriyaya qarşı" işində Komissiya belə bir qənaətə gəldi ki, həbsdə olan şübhəlinin səhhəti pisləşərkən onun tibbi xidmətə çıxışının rədd edilməsi Nizamnamənin 16-cı maddəsinə əsasən sağlamlıq hüququnun açıq şəkildə pozulmasıdır [15]. Bundan başqa, "*Poltoratskiy Ukraynaya qarşı*" işində Avropa İnsan Hüquqları Komissiyası də belə bir qərara gəldi ki, "resursların çatışmazlığı prinsip etibarilə həbsxana şəraitinin o qədər zəif olmasına haqq qazandıra bilməz [13]. Bu cür təcrübəyə milli məhkəmə təcrübəsində də rast gəlinir. Məsələn, Hindistan Ali Məhkəməsi sağlamlıq hüququnun təmin olunması sahəsində dövlətlərin öhdəliklərinə diqqət yetirərək, bu öhdəliklərin yerinə yetirilməsində maliyyə resurslarına ciddi ehtiyac olduğunu vurğuladı. Eyni zamanda, insanlara adekvat tibbi xidmət göstərmək dövlətin konstitusion öhdəliyi olduğunu da diqqətə çatdırdı və bunun üçün lazım olan hər bir şüyin yerinə yetirilməsini vurğuladı [10]. Məhkəmə qərara almışdır ki, dövlət maliyyə imkanları səbəbindən bu məsələdə öz konstitusiya öhdəliyindən yayına bilməz. Bununla bağlı qeyd etmək istərdik ki, beynəlxalq səhiyyə hüququ sahəsində mövcud olan prinsiplərin yerinə yetirilməməsi dövlətlər üçün müəyyən məsuliyyət yaradır. Əgər dövlət öz konstitusiyasına əsasən, sağlamlıqla bağlı beynəlxalq prinsipləri öz qanunvericiliyində insan hüquqlarının qorunması prinsipi kimi göstərirsə, birmənalı şəkildə onun yerinə yetirilməsinə görə məsuliyyət daşıyır.

III. Nəticə

Beləliklə, səhiyyə sahəsində beynəlxalq hüquq normalarının milli hüquq sistemində realizəsi, səhiyyə münasibətlərinin hüquqi tənzimlənməsi prosesinin tərkib hissəsi olmaqla müəyyən prinsiplərə əsaslanır. Bu prinsiplərlə bağlı iki xüsusiyyəti qeyd etmək olar: 1) bu prinsiplər beynəlxalq hüquq normaları ilə milli qanunvericiliyin uzlaşdırılmasını təmin edir" 2) bu prinsiplər beynəlxalq hüququn əsas prinsiplərinə əsaslanır; 3) bu prinsiplərə münasibətdə dövlətlərin fərqli yanaşması istisna edilmir.

REFERENCES:

1. Alekseyev S.S. Problems of the Theory of Law. Lecture Course in Two Volumes. Vol. 1. Sverdlovsk: Nauka, 1972, 396 p (in Russian / *Алексеев С.С. Проблемы теории права. Курс лекций в двух томах. Т. 1. Свердловск: Наука, 1972, 396 с*).
2. Cook R. Human rights in relation to women's health. Geneva: World Health Organization; 1993. WHO/DGH/93.1
3. General Assembly of the United Nation, Resolution 375 (IV)
4. Gromov N.A., Nikolaichenko V.V. Principles of criminal procedure, their concept and system // State and Law, 1997, No. 7, pp.33-40 (in Russian / *Громов Н.А., Николайченко В.В. Принципы уголовного процесса, их понятие и система // Государство и право, 1997, № 7, с.33-40*).

5. Häusermann J. The right to highest attainable standard of physical and mental health: Conceptual framework. Working paper for WHO Informal Consultation on Health and Human Rights; Geneva: December 4–5, 1997
6. Herrell I. opening remarks (WHO İnformal Consultation on Health and Human Rights, Geneva, December, 4–5, 1997), copy on file with the author
7. Hutchison (ED),Pretorius C(ED), Naude T et al (2017), "The Law of Contract", Third Edition. South Afrca: Oxford University Press Southern Africa (Pty) Limited
8. Forman L, et al. What could a strengthened right to health bring to the post-2015 health development agenda?: interrogating the role of the minimum core concept in advancing essential global health needs. BMC Int Health Hum Rights. 2013;13:48.
9. Meier B. "Global health governance and the contentious politics of human rights: Mainstreaming the right to health for public health advancement," Stanford Journal on International Law. 2010;46(1):1–50.
10. Minister of Health and others v Treatment Action Campaign and others (2002) Constitutional Court of South Africa (CCT) 8/02
11. OHCHR. Ohchr and the Right to Health, OHCHR and the Right to Health (Office of the High Commissioner for Human Rights), accessed March 29, 2022
12. Ooms G, Mulumba M, Hammonds R, Latif Laila A, Waris A, Forman L. A global social contract to reduce maternal mortality: the human rights arguments and the case of Uganda. Reprod Health Matters. 2013;21(42):129-38
13. Paschim Banga Khet Samity v State of West Bengal, Case No. 169, Judgement of 6 May 1996 Writ Petn. (Civil) No. 796 of 1992 (SC Agrawal, GT Nanavati JJ) (1996).
14. Poonja, Mahmood M. (1977). Termination of Treaties Owing to Fundamental Change of Circumstances (Clausula Rebus Sic Stantibus) (Juris Doctor dissertation). Charles University, Prague (Rawalpindi: Abbas Arts, 1982). OCLC 41731249
15. Purohit and amor v Gambia (Communication no. 241/2001) [2003] Achpr 49; (29 May 2003)
16. Right of Passage over Indian Territory (Portugal v. India), Reply of Portugal, n.47 above, paras.327-334.
17. Smeby JC, Trondal J. Globalisation or europeanisation? International contact among university staff. Higher Educ. 2005;49:449–66
18. UN Committee on Economic, Social, and Cultural Rights CESCR, *General Comment No. 14 (2000): The Right to the Highest Attainable Standard of Health (Art. 12)*, 11 August 2000, E/C.12/2000/4
19. URL:https://applications.icao.int/postalhistory/icao_and_the_world_health_organization.htm (last access 05.03.2024).

Principles of national legal implementation of international legal norms in the field of healthcare

FATİMA HUSEYNOVA*

Abstract

The article examines the principles of national legal implementation of international legal norms in the field of healthcare. It shows that those principles serve the coordination of international legal norms and national legislation in the field of healthcare. In this process, the role of universally recognized principles of international law is determined. The necessity of the recognition of international legal norms' supremacy in order to ensure the mentioned coordination is emphasized. It is noted that this is possible in case the public order of the national legal system is not violated.

Keywords: *healthcare, principles, international legal norms, national legal implementation, legislation, national legal system.*

Принципы национально-правовой имплементации международно-правовых норм в сфере здравоохранения

ФАТИМА ГУСЕЙНОВА**

Резюме

В статье рассматриваются принципы национально-правовой имплементации международно-правовых норм в сфере здравоохранения. В ней показывается то, что данные принципы служат координации международно-правовых норм и национального законодательства в сфере здравоохранения. В процессе этого определяется роль общепризнанных принципов международного права. Для обеспечения же данной координации, подчеркивается необходимость признания верховенства международно-правовых норм. Отмечается, что это возможно при условии, что не будет нарушен публичный порядок национальной правовой системы.

Ключевые слова: *здравоохранение, принципы, международно-правовые нормы, национально-правовая имплементация, законодательство, система национального права.*

Redaksiyaya daxil olma tarixi: 14.05.2024
Çapa qəbul: 23.09.2024

* PhD in Law / Baku State University / e-mail: lawyer.fatima85@gmail.com

** Доктор философии по праву / Бакинский Государственный Университет / email: lawyer.fatima85@gmail.com

***Xanımana Qafarova*.** Dondurulmuş embrion vərəsə, yoxsa mülkiyyətdir: nəzəriyyə və təcrübə // Azərbaycan Hüquq Jurnalı. 2024 (№2), s. 85-93. DOI: 10.61638/UIVA7040

MÜLKİ HÜQUQ

DONDURULMUŞ EMBRİON VƏRƏSƏ, YOXSA MÜLKİYYƏTDİR: NƏZƏRİYYƏ VƏ TƏCRÜBƏ

XANIMANA QAFAROVA*

Annotasiya

Məqalədə dondurulmuş embrionların hüquqi statusu və onunla əlaqəli hüquq təcrübəsinin tətbiqi ilə bağlı münasibətlər ətraflı və qarşılıqlı şəkildə araşdırılmışdır. Daha sonra dondurulmuş embrionun hüquqi statusu ilə bağlı dövlətlərin qanunvericiliklərindəki müddəalar, o cümlədən , müxtəlif müəlliflərin hüquqi tənzimlənmə barəsində fikirləri, elmi və praktiki bazanın təkmilləşdirilməsi ilə bağlı nüanslar qeyd edilmişdir. Həmçinin, Azərbaycan Respublikası qanunvericiliyində bu məsələyə münasibət, mövcud boşluqların xarici ölkələrin hüquq praktikası ilə müqayisəsi, digər qanunvericiliklərdəki faktlar, dondurulmuş embrionun hüquqi statusu - vərəsə yoxsa mülkiyyət olması ilə bağlı arqumentlər öz əksini tapmışdır.

Açar sözlər: *dondurulmuş embrion, mülkiyyət, hüquqi status, vərəsə.*

I. Giriş

Embrionların dondurulması və ya yumurtanın kriyopreservasiyası, qadınların yumurtalıqlarını stimullaşdırmaq üçün hormonal enjeksiyonlar alması və bir neçə yumurtanın əmələ gəlməsi ilə nəticələnən bir prosesdir, sonra bu yumurtalar yumurtalıqdan çıxarılır, sürətlə dondurulur və sonrakı istifadə üçün maye hidrogen ehtiva edən bir saxlama otağında saxlanılır. Bir çox qadın köməkçi reproduksiyaya kömək edən yumurtalarını bağışlamağa qərar verir; bu proses dondurulmuş embrion transferi (FET) kimi tanınır. FET-də son və ya təzə IVF-dən alınan dondurulmuş embrionlar və ya donor yumurtası əridilərək qadının uşaqlığına köçürülür.Embrionların kriyopreservasiyası ümumiyyətlə in vitro gübrələmənin bir hissəsi kimi aparılır (bu, ümumiyyətlə yumurtalıq hiperstimulyasiyası, yumurta çıxarılması və embrion köçürülməsini də əhatə edir). Yumurtalıq hiperstimulyasiyası, yumurtanın son olgunlaşması üçün insan xorionik gonadotropin (HCG) deyil, GnRH agonistindən istifadə etməklə üstünlük təşkil edir, çünki bu, yumurtalıq hiperstimulyasiya sindromunun inkişaf riskini azaldır.Canlı doğum nisbətində heç bir fərq yoxdur (GnRH agonistinin istifadəsinin daha az canlı doğum nisbətinə səbəb olduğu yeni dövrlərdən fərqli olaraq).Yavaş proqramlaşdırıla bilən dondurma (SPF) ilə müqayisədə embrionların kriyopreservasiyası və ya vitrifikasiya üçün istifadə olunan əsas üsullar fərqlənir [9, 407].

Embrionların kriyopreservasiyası üçün ilk uğurlu cəhd 1984-cü ildə dondurulmuş embriondan doğulan ilk uşaq Zoe Leyland məsələsində edildi.Zoe məsələsində, embrion iki ay dondurulduldu, lakin uğurlu IVF-dən sonra kriyopreservasiya praktikasının ortaya çıxmasından bəri, embrionlar

* Hüquq üzrə fəlsəfə doktoru / Bakı Dövlət Universiteti / email: xanim84.84@mail.ru

kriyopreservasiya şəraitində on illərlə də əhatə edən xeyli uzun müddət uğurla sağ qaldı [11].

Embrionların kriyopreservasiyası illər ərzində əhəmiyyətli elmi inkişaflarla xarakterizə olunsa da, boşanma və ya tərəflərin ayrılması halında embrionların paylanması qaydası bu gün də məhkəmələrdə çətinliklər yaratmağa davam edən və hələ də daha az inkişaf etmiş bir hüquq sahəsidir. Siyasətçilər, qanunverici orqanları və məhkəmələr, ABŞ-da mənəvi, siyasi və hüquqi baxışlardakı uyğunsuzluqlar səbəbindən reproduktiv wsullardan istifadə edərək yaradılan ailələrlə əlaqəli bir çox hüquqi məsələ ilə qarşılaşırlar.

II. Dondurulmuş embrionun hüquqi statusu ilə bağlı yanaşmalar

Dondurulmuş embrionların hüquqi statusu ilə bağlı yanaşmaların müxtəlifliyifikir ayrılıqlarına səbəb olmuşdur. Bioetikaçılar, hüquq şərhçiləri, din filosofları və hakimlər dondurulmuş rüşeymlərlə bağlı məsələlərin həlli ilə mübarizə aparır. Hər qrup analizə fərqli nöqteyi-nəzərdən yanaşır. Təəccüblü deyil ki, hüquq şərhçiləri bu təhlilə dondurulmuş embrionlara hüquqi status təyin etməyə cəhd etməklə başlayırlar.

Doktrinada indiyədək belə qənaətə gəliblər ki, dondurulmuş embrionlar üç kateqoriyadan birinə düşməlidirlər: 1) insan həyatı ən erkən mərhələdə; 2) mülkiyyət; 3) müvəqqəti statusu olan orqan [3, 592].

Professorlar Robert Corc və Kristofer Tollefsen "Embryo: A Defense of Human Life" adlı kitabında iddia edirlər ki, dondurulmuş rüşeym ən erkən mərhələdə olsa da, insan həyatından başqa bir şey deyil. Corc və Tollefsenin sözlərinə görə, “embrion insandan, qayadan, kartofdan və ya kərtənkələdən fərqli deyil. İnsan rüşeymi öz təbii inkişafının ən erkən mərhələsində homo sapiens növünün bütöv canlı üzvüdür” [7, 50].

İnsan embrionunun hüquqi statusunun müəyyən edilməsi ilə bağlı bir məsələ, köləliyin ləğv edilməsindən sonra insana təsir etməyən obyektləri və ya maraqları “qoruyan” mülkiyyət anlayışındadır. Keçmişdə əmlakın dəyəri utilizasiya nəticəsində əmələ gəlirdi. İnsan cəsədlərinin utilizasiyanın olmaması səbəbindən mülkiyyət hesab etmək mümkün deyildi.Nəticədə canlı və ya ölü insan bədənindəki bioloji materialın onun gəldiyi bədəndən daha böyük dəyərə malik ola biləcəyi sualı yaranırdı.

Katheleen R. Guzman qeyd edir ki,əgər rüşeym mülkiyyətdirsə, onda hüquq sahibləri öz iddialarını ilk növbədə kapital və ya yaxşı məhsul istehsal etmək üçün sərf edən əmək və məşğulluq nəzəriyyələrinin birləşməsi yolu ilə irəli sürdülər. Bu, rüşeymin yox, digər insanların kimlərə nisbətən ən vacib hüquqlara malik olan statusuna yönəldiləcəkdi. Bu sual müavinətlərin alınması, əmlakın ədalətli bölünməsi və eyni zamanda sahibkarlıq kimi məsələlər ilə bağlıdır. Rüşeymin genetik ianəçiləri, onun saxlanıldığı müəssisə və ya onun alıcıları mülkiyyət üzərində nəzarəti iddia edə bilərdilər və mülkiyyət nəzəriyyəsindən asılı olaraq rüşeym həm hüquqi, həm də ədalətli titula sahib ola bilərdi. Sonra sahibkar əmlakı əsas hədiyyə, müqavilə və kod prinsipləri ilə

tənzimlənən donativ köçürmə və ya satış yolu ilə çatdıra bilərdi. Əgər embrion insandırsa, köçürmə cəhdi köləliyə və ya insan həyatının şattelizasiyasına analoji olacaq. Qısası, əgər dondurulmuş embrion insandırsa, o zaman o, mülkiyyətə sahib ola bilər. Əgər mülkiyyətdirsə, o zaman onun sahibi ola bilər" [6, 193].

Bəziləri üçün isə dondurulmuş embrion "xüsusi hörmətə layiq orqan" adlandırılır. İnsan düşünə bilər ki, "xüsusi hörmətə layiq orqan" sözü sadəcə varlıq sözü ilə qısaldılmalıdır. Professor Anjela Öhkörç dondurulmuş embrionları "xüsusi hörmətə" layiq bir varlıq kimi qiymətləndirir. O, hesab edir ki, daha dəqiq qiymətləndirmə onları "xüsusi müqavimətə" layiq bir varlıq adlandırmaq olacaq, çünki məhkəmələr müntəzəm olaraq onların məhvinin lehinə qərar verirlər. Buna baxmayaraq, dondurulmuş embrionları mülkiyyət kimi təyin etmək istəməyən amerikalılar üçün təsəlli kimi bu termin davam edir [9, 416].

Bununla yanaşı bu sferada müqavilə nəzəriyyəsi də mövcuddur. Belə ki, "Precommitment Strategies for Disposition of Frozen Embryos" adlı məqaləsində professor Con Robertson, gamete donorları arasındakı mübahisələrin həlli üçün klassik müqavilə üsuluna keçir. Robertson qeyd edir ki, "bilə-bilə, şüurlu surətdə və könüllü olaraq" artıq embrionlarının son dərəcə böyük olması ilə bağlı müqavilə bağlayan tərəflər öz sazişlərinə bağlı olmalıdırlar. Professor Robertsonun müqavilə modeli ilə bağlı ən inandırıcı dəlillərindən biri güvən anlayışına əsaslanır [4, 989].

Professor Karl Koleman artıq embrionların atılması üçün qabaqcadan göstərişlərin verilməsi ideyasını rədd edir və bu prosesi "dehumaniz" (qeyr-humanist) adlandırır. O qeyd edir ki, bu cütlüklərin qərarı əsasında olmalıdır.Onun fəlsəfəsi belə ifadə olunur: dondurulmuş embrionların saxlanması məsələləri ilə bağlı müqavilə bağlamaq, cəmiyyətin xüsusilə könülsüz qəbul etməli olduğu ailə münasibətləri anlayışını özündə təcəssüm etdirir. Boşanma halında əmlakın bölünməsi ilə bağlı qərar qəbul edərkən cütlüklərin böyük mübahisələrlə qarşılqşdıqları bir problemə çevrilir. Qeyd olunan məsələ ilə bağlı Avropa İnsan Hüquqları Məhkəməsində maraqlı məhkəmə işlərinə rast gəlmək mümkündür. Sonsuzluq müalicəsinə başlayan cütlüklər ailənin yaradılması yolunda addımlamağa başlayırlar. Uşaq sahibi olmaq barədə qərarlar qanunun qüvvəsi tərəfindən dəstəklənən müzakirə edilmiş müqavilənin bir hissəsi kimi deyil, etibar və qarşılıqlı əməkdaşlıq ruhunda qəbul edilməlidir. Bir sıra fikirlərə görə əməkdaşlardan gələcək reproduktiv planları ilə bağlı bir-birləri ilə müqavilə bağlamaq sevginin təzahürü yox, işgüzar sövdələşmə kimi onu yuxarıda qeyd etdiyimiz kimi dehumanizm (qeyr-humanist) edir. Aleksandr Kapronun iddia etdiyi kimi, "kontraktlar əmlakın bölgüsü ilə bağlı bağlanmış müqavilələrin bağlanmasının gözəl üsuludur, lakin onlar şəxsi münasibətlər haqqında qərar verərkən daha az münasib olurlar.

Professor Cudit Daar iddia edir ki, qadın gamet donoru hamilə qadının embrion üzərində mütləq hüququ olacağı eyni vaxtda hər hansı dondurulmuş embrionları implantasiya etmək və ya məhv etmək hüququnu mütləq saxlamalıdır. Cudit Daar feminist mövqe tutan alimlərdəndir [5, 455].

Rut Kolker kimi digər feminist şərhçilər qeyd edirlər ki, kişi gamete donoru IVF prosesi zamanı heç bir ağrı və ya fiziki zədə riski ilə üzləşmir, qadın isə hər ikisi qarşısında acizdir [9, 407].

Göründüyü kimi, alimlərin dondurulmuş embrionların hüquqi statusu ilə bağlı yanaşmaları müxtəlifdir. Bəziləri öz nəzəriyyələrində , şərhlərində insan sayılması mövqeyində çıxış etsə də, mülkiyyət kimi qiymətləndirənlər də az deyil. Yanaşmaların müxtəlifliyinə baxmayaraq qeyd edə bilərik ki, bütün alimlər insan hüquqlarının qorunması, şəxsin mənəvi olaraq zərər görməməsi və hüquqi aspektdən insan hüquqlarının pozulmamasının lazımlığını vurğulayırlar.

III. Xarici ölkələrin hüquq praktikası

Dondurulmuş embrionlarla bağlı məsələlərin ən çox rast gəlindiyi ölkələr Böyük Britaniya və Amerikanın ştatlarıdır. Maraqlı tərəfi budur ki, Amerikanın müxtəlif ştatları bu məsələyə müxtəlif yanaşır. Luizianının və Nyu-Meksikonun qanunlarına əsasən, insan embrionları ya implantasiya edilməli, ya da onlar qəbul edilənə qədər saxlanılmalıdır. İlk baxışdan bu qanun dondurulmuş embrionlara insan həyatı kimi yanaşmaq üçün mümkün olan bir vasitə kimi görünür. Lakin bu qanunlar daha yaxından təhlildən sonra dəfedilməz konstitusiya və praktiki problemləri təqdim edir. Hər iki ştat dondurulmuş embrionu hüquqi cəhətdən insan olaraq tanıyır.

Embrionun hüquq subyekti olması ilə dövlətlərin konstitusiyalarında və qanunvericiliklərində də yanaşmalar fərqli formada müəyyən olunmuşdur. İsveçrə Konstitusiyasının 119-cu maddəsi embrionları insanın başlanğıc və genetik vasitələrinə aid edir. Bununla yanaşı, Slovakiya Respublikasının Konstitusiyası (maddə 15) və İrlandiya Konstitusiyası (maddə 40) kimi digər əsas qanunlarda da doğulmamış yaşamaq hüququ tanınır [1, 34-38].

Nyu-York məhkəməsi isə bu tip təcrübələrdə imtina edərək mülkiyyət kimi hesab edir. 2001-ci ildə Nyu-Cersidə baş verən hadisədə məhsuldarlıq klinikasının məlumatlı razılıq sənədlərində yer alan təminatlara əsaslandı. Belə ki, ilk öncə məhkəmə alternativ qərar almasa, dondurulmuş embrionlar klinikanın mülkiyyətində olacaqdı. Lakin Nyu-Cersi Ali Məhkəməsi bu sənəddəki şərtləri icra etməkdən imtina etdi və tamamilə fərqli bir qayda təsis etdi. Qərara əsasən, hər iki tərəfin saxlanın embrionun istifadəsi və ya məhv edilməsinin həddi razılıqlar əsasında həyata keçiriləcək. Məsələn, tərəflər dondurulmuş embrionun implantasiyası ilə bağlı müqavilədə boşandıqları zaman embrionun məhvi barədə məlumat verilmiş razılıq sənədlərindən ayrı müqavilə bağlamalıdırlar. Tərəflər sonradan iradə ifadəsinə uyğun olaraq dəyişə bilərlər.

1942-ci ildə məhkəmə şəxslərin sterilizasiyasına icazə verən Oklahoma ştatının qanunvericiliyinin 1-ci konstitusiyası ilə bağlı müraciət etdi. Məhkəmə Oklahoma ştatının qanunlarını ləğv edərək, prokreasiyanı "insanın əsas vətəndaş hüquqlarından biri" elan etdi. Bunla belə, əgər bir şəxs yalnız IVF vasitəsilə hamilə qala bilirsə, lakin müalicəni əldə etmək üçün kifayət qədər vəsaiti yoxdursa, dövlətin bu xidməti göstərmək üçün heç bir təsdiqedici vəzifəsi

yoxdur. Beləliklə, artıq preembryolarının implantasiyası və ya məhv edilməsi ilə bağlı maqnt donorlar arasında şəxsi mübahisələrdə dövlət prokreativ azadlıq üçün maneənin yaradılmasında heç bir rol oynamamışdır.

Luiziana və Missuri ştatlarında embrion hüquqi şəxs, yəni fiziki olmayan hüquq subyekti hesab olunur. O, qanunla yaradılmış, müstəqil şəxsiyyətə və qanunla nəzərdə tutulmuş hüquq və vəzifələrə malik olur. Bir subyekt olaraq, potensial valideynlərin iradəsindən asılı olmayaraq, embrion məhv edilə bilməz. Webster Reproduktiv Sağlamlıq Xidmətlərinə qarşı işində Ali Məhkəmə Missuri ştatının qanunvericilik müddəasının konstitusiyaya uyğunluğunu təsdiqləyib. Həmin müddəaya əsasən, doğmamış uşaqların həyatı, sağlamlığı və rifahı naminə qorunmalı maraqları var. Potensial valideynlər artıq istəmədikləri embrionu məhv edə bilmədiklərinə görə, yeganə seçim valideynlik hüquqlarından imtina edərək, valideyn olmaq hüququnu başqa bir cütlüyə ötürməkdir. Qeyd etmək lazımdır ki, ABŞ-da tədqiq olunan münasibətlər dövlət qanunvericiliyi səviyyəsində tənzimlənir [2, 122-130].

Florida ştatında dondurulmuş embrionların vərəsə olmağına o halda icazə verilir ki, onlaar ölmüş şəxsin vəsiyyətnaməsində vərəsə olaraq müəyyən edilsin. Bunudan fərqli olaraq Luiziana ştatında yalnız valideynləri rəsmi nikah münasibətində olan dondurulmuş embrionalrın vərəsə olmasına yol verilir. Lakin qanunvericilik tərəfindən bunun üçün xüsusi müddət müəyyən edilir. Bu müddət qanunverilik tərəfindən üç il müəyyən edilib.

Bu məsələnin həlli yolunda daha inkişaf etmiş qanunvericilik Kaliforniyanın 2005-ci ildə dəyişiklik edilmiş Vərəsəlik Məcəlləsidir. Həmin Məcəllədə dondurulmuş embrionların vərəsə ola bilməsi üçün aşağıdakı şərtlər müəyyən edilmişdir:

1. onun ölümündən sonra onun genetik materialından istifadə edilərək, hamilə qalınmasına ölmüş şəxsin yazılı razılığının olması;

2. ölüm haqqında şəhadətnamənin və ya məhkəmənin şəxsin ölmüş elan edilməsi ilə bağlı qərarının qüvvəyə mindiyi gündən etibarən iki il müddətində doğulması;

3. onun ölümündən sonra onun genetik materialdından istifadə edilərək dünyaya uşaq gətirməklə bağlı ölmüş şəxsin müqaviləsinin olması.[8, 132-138]

Embrion in vitronun hüquq subyekti olması yanaşmasının tərəfdaşları onunmayalandığı andan insan olması fikrinə əsaslanır və ona bu andan etibarən fərdi hüquqlar verilməsini qeyd edirlər. Bu yanaşma Amerika, Britaniya kimi ölkələrlə yanaşı İtaliya hüquq sistmində də qəbul edilir. İtaliya hüquq sistemində insan embrionu layiqli insan rəftarını tələb edən hüquq subyekti hesab olunur. Qeyd olunan məsələyə Avropa İnsan Hüquqları Məhkəməsinin Parillo İtaliyaya qarşı 27 avqust 2015-ci il tarixli qərarının 200-cü bəndində rast gəlmək mümkündür. Qeyd olunan işdə Məhkəmə qərarında qeyd edirik ki, dondurulmuş emdrion Konvensiyanın 1 saylı Protokolunun 1-ci maddəsində nəzərdə tutulan mülkiyyət kateqoriyasına daxil deyildir [14].

Yuxarıda qeyd etidiyimiz qərardan fərqli bir qərara Avropa İnsan Hüquqalrı Məhkəməsinin təcrübəsində Kosta və Pavan İtaliyaya qarşı (28.08.2012, 54270/10) işində rast gəlmək mümkündür. Həmin qərara əsasən embrion Konvensiyada nəzərdə tutulan digər insanlar kateqoriyasına daxildir [12]. Məhkəmənin qərarlarındakı fərliliklər göz qabağındadır. Bu sferada mövcud qərarın olmasına baxmayaraq, deyə bilərik ki, Avropa İnsan Hüquqları Məhkəməsi dondurulmuş embrionun statusunun konkret olaraq müəyyən etməmişdir. Doğrudur, onun hüququn obyekti olaraq mülkiyyət kimi müəyyən etməsə də, onun dəqiq formada hüququn subyekti kimi də qəbul etməmişdir. Sanki bunun tənzimlənməsini dövlətlərin öz daxili qanunveriliklərinin öhdəsinə vermişdir.

Alabama Ali Məhkəməsi 2024-cü il fevralın 16-da embrionların uşaq hesab edilməsi barədə qərar çıxarıb. Qərara əsasən embrionlar uşaqlarla eyni hüquqi statusa malikdirlər [13].

IV. Nəticə

Bildiyimiz kimi şəxsin hüququn subyekti sayılması üçün onun həm fəaliyyət, həm də hüquq qabilliyyətinə malik olması gərəklidir. Azərbaycan Respublikası Mülki Məcəlləsinin 25.2-ci maddəsinə əsasən, fiziki şəxsin hüquq qabiliyyəti onun doğulduğu an əmələ gəlir. Burada istisna hal yalnız vərəsəlik münasibətlərində mövcuddur. Belə ki, 25.3-cü maddəyə əsasən vərəsə olmaq hüququ maya mağlandığı andan əmələ gəlir. Bu məsələ öz əksini eyni zamanda Mülki Məcəllənin 1134.2-ci maddəsində tapmışdır [10]. Belə ki, birinci dərəcəli qanuni vərəsələr sırasına mayası bağlanmış uşaqlar da daxil edilir. Lakin hüququn həyata keçirilməsi üçün şəxs doğulandan sonra baş verir. Qanunvericiliyimizdə dondurulmuş embrionların hüquqi statusu ilə bağlı məsələnin tənzimlənməsi ilə bağlı konkret norma mövcud deyildir. Lakin fikrimizcə müasir dövrün, tibbin və hərtərəfli inkişafa cavab addım olaraq qanunvericiliyimizdə embrionalrın hüquqi statusu ilə bağlı norma öz əksini tapmalıdır. Bununla yanaşı bir çox dövlətlərin qanunvericiliklərində olduğu kimi milli qanunvericiliyimizdə dondurulmuş embrionların şəxsin ölümündən sonra onunvərəsə ola bilməsi ilə bağlı norma nəzərdə tutulmalıdır. Çünki bildiyimiz kimi dünya hər an inkişaf edir. O inkişaf etdikcə münasibətlər də dəyişir və inkişaf edir. Hüquq və qanunvericilik isə dəyişən və inkişaf edən münasibətləri tənzim edə bilmək üçün hər an inkikişaf etməli və dəyişməldir. Bununəksi olduğu halda hüquqda boşluqların sayı artacaqdır. Məhz bu baxımdan fikrimzcə Mülki Məcəlləyə dəyişiklik olunmalı, dondurulmuş emrionlar müəyyən şərtlər və tələblər daxilində vərəsə kimi çıxış edə bilməlidir. Bu tələb və şərtlər kimi şəxsin ölümündən sonra embrionun dünyaya gəlməsi üçün konkret müddət müəyyən edilməli və fikrimizcə onların vərəsə ola bilməsi üçün onlar ölmüş şəxsin vəsiyyətnaməsində vərəsə kimi müəyyən edilməlidirlər. Bu müasir dövrün aktual tələbllərindən biridir.

Ümumilikdə yuxarıda deyilənləri birləşdirərək qeyd edə bilərik ki, dondurulmuş embirionların hüquqi vəziyyəti ilə bağlı hüquq doktrinasında üç nəzəriyyə formalaşmışdır. Bunlar aşağıdakılardır:

1. Embrion in vitro- hüquq subyekti
2. Embrion in vitro- hüquq obyekti
3. Embrion in vitro- sui generis, xüsusi hüquqi hadisə.

REFERENCES:

1. Belobraqina N.A. Legal Status of the Embryo. News of Tula State University. Economic and legal sciences, 2017 issue1-2, 34-38 p (in Russian / *Н.А.Белобрагина. Правовой Статус Эмбриона. Известия Тульского государственного университета. Экономические и юридические науки, 2017 issue1-2, 34-38 с*).
2. Belova D.A. Legal nature of the embryo in vitro. Lex Russica, No. 6 (151) June 2019, 122-130 p (in Russian / *Д.А.Белова Правовая природа эмбриона in vitro. Lex Russica, № 6 (151) июнь 2019, 122-130 с*).
3. Diane KY. What's Mine İs Mine, But What's Yours Should Also Be Mine: An Analysis Of State Statutes That Mandate The Implantation Of Frozen Preembryos, Journal Of Law And Polıcy, 2002, Volume 10, İssue 2, 587-636 s.
4. John A. Robertson, Precommitment Strategies for Disposition of Frozen Embryos, Emory Law Journal; Atlanta, Том 50, Изд. 4, (Fall 2001), 989-1046 s.
5. Judith F. Daar, Assisted Reproductive Technologies and the Pregnancy Process: Developing an Equality Model to Protect Reproductive Liberties, 25 AM. J.L. & MED., 1999, 455-492.
6. Katheleen R.G. Property, Progeny, Body Part: Assisted Reproduction and the Transfer of Wealth. University of Oklahoma, College of Law, Fall 1997, Vol.31, 193-253.
7. Robert G., Christopher T. Embryo: A Defense Of Human Lıfe , Doubleday, 2008, 256 s.
8. Shelyutto M.L. Inheritance by the Children of the Testator Conceived After the Opening of the Inheritance. Directions and Prospects for the Development of Russian Legislation on Inheritance Materials of the scientific and practical conference Moscow. October 1, 2015, 132-138 p (in Russian / *М.Л.Шелютто. Наследование Детьми Наследодателя, Зачатыми После Открытия Наследства. Направления и перспективы развития российского законодательства о наследовании Материалы научно-практической конференции Москва. 1 октября, 2015 год, 132-138 с*).
9. Shirley D.H. The Frozen Embr en Embryo: Scholarly Theories, Case Law o: Scholarly Theories, Case Law, and Pr , and Proposed State Regulation. DePaul J. Health Care L., 2013, 407-442 s.

10. The Civil Code of the Republic of Azerbaijan (1999) (in Azerbaijani / Azərbaycan Respublikasının Mülki Məcəlləsi).
URL: https://www.e-qanun.az/framework/46944 (last access 20.02.2024).
11. URL: https://ivf.net/ivf/worlds-first-ice-baby--25th-birthday-o4078.html (last access 21.02.2024)
12. URL:https://hudoc.echr.coe.int/eng#{%22itemid%22:[%22002-6452%22]} (last access 22.02.2024)
13. URL:https://publichealth.jhu.edu/2024/the-alabama-supreme-courts-ruling-on-frozen-embryos (last access 20.02.2024)
14. URL:https://ivf.net/ivf/worlds-first-ice-baby--25th-birthday-o4078.html (last access 21.02.2024)
15.URL:https://www.rahr.ru/d_index/%D0%9F%D0%BE%D1%81%D1%82%D0%B0%D0%BD%D0%BE%D0%B2%D0%BB%D0%B5%D0%BD%D0%B8%D0%B5%20%D0%95%D0%A1%D0%9F%D0%A7%20(%D1%8D%D0%BC%D0%B1%D1%80%D0%B8%D0%BE%D0%BD%D1%8B).pdf (last access 22.02.2024)

Frozen embryo - heir or property: theory and practice

KHANIMANA KAFAROVA*

Abstract

The article examines in detail and interlinked the legal status of frozen embryos and the relationships associated with the application of legal practice to them. The following are the provisions of the legislation of the states on the legal status of the frozen embryo, including the opinions of various authors on legal regulation, the nuances of improving the scientific and practical base are noted. Also, the legislation of the Republic of Azerbaijan reflects the attitude to this issue, a comparison of existing gaps with the legal practice of foreign countries, facts from other legislations, arguments regarding the legal status of a frozen embryo heir or property.

Keywords: *frozen embryo, property, legal status, heir.*

Замороженный эмбрион - наследник или собственность: теория и практика

ХАНУМАНА КАФАРОВА**

Резюме

В статье подробно и взаимосвязано рассмотрен правовой статус замороженных эмбрионов и взаимоотношения, связанные с применением к ним правовой практики. Далее приводятся положения законодательства государств о правовом статусе замороженного эмбриона, в том числе мнения различных авторов о правовом регулировании , отмечаются нюансы совершенствования научно-практической базы. Также, в законодательстве Азербайджанской Республики нашло отражение отношение

* Phd / Baku State University / email: xanim84.84@mail.ru

** Доктор философии по праву / Бакинский Государственный Университет / email: xanim84.84@mail.ru

к этому вопросу, сравнение имеющихся пробелов с правовой практикой зарубежных стран, факты из других законодательств, аргументы относительно правового статуса замороженного эмбриона - наследника или собственности.

Ключевые слова: *замороженный эмбрион, собственность, правовой статус, наследник.*

Redaksiyaya daxil olma tarixi: 28.02.2024
Çapa qəbul: 23.09.2024

Mələkxanım Rəhimova. Layiqli həyat hüquqları sferasında beynəlxalq əməkdaşlığın hüquqi tənzimlənməsi// Azərbaycan Hüquq Jurnalı. 2024 (№2), s. 94-105. DOI: 10.61638/NBJM2172

İNSAN HÜQUQLARI

LAYİQLİ HƏYAT HÜQUQLARI SFERASINDA BEYNƏLXALQ ƏMƏKDAŞLIĞIN HÜQUQİ TƏNZİMLƏNMƏSİ

MƏLƏKXANIM RƏHİMOVA*

Annotasiya

İnsanın əsas hüquqlarından hesab edilən layiqli həyat hüququnun təmin edilməsi müasir dövrdə dünya ictimaiyyəti və ayrı-ayrı dövlətlərin təməl öhdəliklərindən birini təşkil edir. Məhz buna görədir ki, beynəlxalq təşkilatlar və inkişaf etmiş dövlətlər inkişafda olan və ya rifah vəziyyəti nisbətən aşağı olan dövlətlərə yardım edilməsi və onlarla əlaqələrin qurulması sahəsində təşviqat prosesinin aparılmasının tərəfdarları kimi çıxış edirlər. Bu təşviqat prosesində ən başlıca məsələlərdən biri isə onun müqavilə əsasının mövcud olmasıdır. Yalnız bundan sonra beynəlxalq təşkilatlar və ayrı-ayrı dövlətlər müvafiq təşkilati mexanizmlər vasitəsilə müəyyən proqram və tədbirlər planı həyata keçirə bilirlər. Məqalədə müəllif tərəfindən layiqli həyat hüquqları istiqamətində həyata keçirilən beynəlxalq əməkdaşlığın forma və istiqamətləri araşdırılmış, bu məsələni özündə ehtiva edən beynəlxalq aktlar təhlil edilmiş, müəyyən təklif və tövsiyələr irəli sürülmüşdür. Həmçinin müəllif beynəlxalq əlaqələrin realizəsini Sosial Müdafiə Mərtəbəsi kontekstindən təhlil edilərək ərazidənkənar öhdəliklər termininin üçüncü dövlət öhdəlikləri termini ilə əvəzlənməsi ideyasını müdafiə etmişdir.

Açar sözlər: *Layiqli həyat hüququ, adekvat standartlar, beynəlxalq akt, Sosial Müdafiə Mərtəbəsi, ərazidənkənar öhdəliklər, üçüncü dövlət öhdəlikləri, beynəlxalq münasibətlər, beynəlxalq əməkdaşlıq, Üç Sütunlu Strategiya.*

I. Giriş

Nisbi xarakter daşıyan və təməl hüquqlardan hesab edilən insanın layiqli həyat hüquqları özündə müxtəlif hüquq elemetlərini birləşdirərək kompleks sistem ərsəyə gətirir. Bu hüququn təminatı insanın rifah halının yüksəldilməsi və adekvat stansartlara uyğun olaraq yaşayışına zəmin yaradan müddəalardandır. Hüquq dövlətlərdən müvafiq fəaliyyət tələb edərək onlar üçün pozitiv öhdəliklər formalaşdırır, lakin son nəticədə dövlətin rifah halının və sosial-iqtisadi vəziyyətinin yaxşılaşmasına gətirib çıxarır. Məhz buna görə də əksər dövlətlərin ali qanunlarında insanların layiqli həyat hüquqlarının təmin olunması ali məqsəd olaraq müəyyən olunmuşdur.

Öz növbəsində beynəlxalq təşkilatlar da layiqli həyat hüquqları sahəsində təşviqatın aparılması prosesini həyata keçirirlər. Əksər universal və sahəvi olaraq insan hüquqları üzrə ixtisaslaşmış təsisatlar layiqli həyat hüquqları istiqamətində fəaliyyətin koordinasiyasını həyata keçirir, müvafiq maarifləndirmə və digər təşkilati fəaliyyətlər reallaşdırırlar. Ayrı-ayrı inkişaf etmiş dövlətlər də digər dövlətlər qarşısında özlərinin üçüncü dövlət öhdəliklərini nəzərə alaraq inkişafda olan və rifah halı nisbətən həsas olan regionlara yardımlar göstərirlər. Bu isə həmin subyektlər arasında beynəlxalq

* Vəkillər Kollegiyasının Akademiyası / email: malakkanim.rahimova@barassociation.az

münasibətlərin formalaşmasını qaçınılmaz edir. Əlaqələrin qurulmasının ilk və ən mühüm şərti bu sahədə müvafiq müqavilə əsasının mövcud olmasıdır. Müqavilə əsası qismində universal sənədlər, ikitərəfli müqavilələr, birtərəfli bəyanatlar, yumşaq hüquq noprmaları və s. çıxış edir. Yalnız bundan sonra təcrübədə beynəlxalq əməkdaşlığın realizəsindən söhbət gedə bilər.

II. Layiqli həyat hüquqları sferasında beynəlxalq əməkdaşlığın qurulmasının forma və istiqamətləri

Sosial sahədə əməkdaşlığın qurulması ideyalarına daha çox Hume, Marksist və Kantçı fikirli tədqiqatlarda rast gəlirik. Lakin bu müəlliflər əməkdaşlığı yalnız cəmiyyətin üzvləri, başqa sözlə insanlar arasında əməkdaşlıq formasında tədqiq edirlər. Bu əməkdaşlığın beynəlxalq forması daha yayqındır. Çünki yalnız qarşılıqlı münasibətlər zəminində daha effektiv rifah halına nail oluna bilər. Layiqli həyat hüququ sferasında qurulan beynəlxalq əməkdaşlıqlar müxtəlif forma və istiqamətlərdə həyata keçirilir. Araşdırdığımız tədqiqat materialında beynəlxalq əməkdaşlıq əlaqələrinin üç istiqamətini vurğulamağın tərəfdarıyıq:

- Dövlətlərin daxili maraqlarını əks etdirən daxili istiqamətli əməkdaşlıq;
- Xarici siyasət və dövlət xaricindəki maraqların birləşdirən xarici istiqamətli əməkdaşlıq;
- Başqa dövlətlərlə əməkdaşlıq əlaqələrini mümkün qədər az quran neytral dövlətlərin qurduğu qarşılıqlı münasibətlərin minimumu.

Beynəlxalq əməkdaşlığın əsas istiqamətlərindən əlavə onlar həm də aşağıdakı formalarda həyata keçirilir: 1) Danışıqlar; 2) siyasətlərin uzlaşdırılması; 3) gizli əməkdaşlıq; 4) məcburi əməkdaşlıq; 5) reqlamentasiya, ekspertiza, subsidiya fəaliyyəti ilə məşğul olan xüsusi institutların yaradılması [1, s. 182].

Layiqli həyat hüquqları ilə bağlı ekterritorial və ya üçüncü dövlətin insan hüquqları öhdəliklərivəni, daxili iştirakçı dövlətdən başqa digər iştirakçı dövlətlər üçün öhdəliklər də yarana bilir ki, bu cür öhdəliklərin araşdırılmasına tədqiqatlarda hələ çox müraciət edilməmişdir. Bununla belə, üçüncü dövlətin öhdəlikləri tənzimləmə prosesində siyasi baxımdan ən mübahisəlivə hüquqi baxımdan isə sübut edilməsi ən çətin olan öhdəliklərdir ki, bunlara da hörmət etmək və qorumaq kimi öhdəliklər aid edilir. Bu öhdəliklərə tədqiqatlarda nisbətənaz yer ayrılır. Belə əlaqələrin həyata keçirilməsində üçüncü dövlətin daşıdığı öhdəliklərəyer ayrılmasıəslində qarşılıqlı beynəlxalq əlaqələrin qurulması və əməkdaşlıq münasibətlərindən irəli gəlir. Buna hüquq ədəbiyyatlarında *inkişaf əməkdaşlığı* adı verilmişdir. Bəzi müəlliflərin fikrincə, inkişaf əməkdaşlığı beynəlxalq əməkdaşlığın ünsür komponentini ifadə edir. Belə əlaqələr xüsusiləİnsan Hüquqları Komitələri tərəfindən donor-iştirakçı dövlətlərin yerinə yetirməli olduğu məcburi öhdəliklər kimi nəzərdə tutulur.

Əksər beynəlxalq konvensiyalarda digər ölkələrdə mövcud olanlayiqli həyat hüquqlarına müdaxilədən çəkinmək vəüçüncü şəxslərin bu hüquqlara müdaxiləsinin qarşısını almaq öhdəliyi təsbit olunmuşdur. Bəzi hallarda isə "inkişaf naminə beynəlxalq əməkdaşlıq" termini altında diqqətin yalnız inkişaf

yardımına yönəldiyinin və üçüncü dövlətin yerinə yetirməli olduğu öhdəliyə uyğun gələn reduksionist yanaşma və ya sadəcə üçüncü dövlətin hörmət və müdafiə öhdəlikləri anlayışları başa düşülür. Burada daha çox onlar ərazidənkənar öhdəliklər ifadəsi kimi işlədilir. Fikrimizcə, hüquq ədəbiyyatlarında, ümumiyyətlə, indiyədək istifadə edilməyən *ərazidənkənar öhdəliklər* termininin üçüncü dövlət öhdəlikləri termini ilə əvəzlənməsi daha məqsədəmüfaviq olacaqdır. Lakin qeyd edilməlidir ki, hər iki termin bir-birini əvəz edir. Başqa bir müstəvidən yanaşıldıqda isə dövlətin öhdəliklərinin, əsasən, daxili dövlət öhdəliklərini əhatə etdiyi fikrini irə sürə bilərik. Məhz buna görə də bu öhdəliklər *ikinci dərəcəli* və ya *köməkçi öhdəliklər* adlandırılırlar. Məhz buna görə də, üçüncü dövlətin əsas öhdəliklərini əhatə edən hörmət və müdafiə öhdəlikləri dövlətin daxili öhdəlikləri ilə eyni vaxtda tətbiq olunur.

III. Layiqli həyat hüququnu təsbit edən beynəlxalq aktlarda əməkdaşlıq öhdəlikləri

1945-ci il tarixli Birləşmiş Millətlət Təşkilatı Nizamnaməsinin Beynəlxalq iqtisadi və sosial əməkdaşlıq adlanan IX fəsli birmənalı olaraq bu istiqamətdə qurulmuş əməkdaşlığı ehtiva edir. Sənədin 55-ci maddəsində xalqların bərabər hüquqlu və öz müqəddəratını təyinetmə prinsipinə hörmət əsasında xalqlar arasında dinc və dostluq münasibətləri üçün zəruri olan sabitlik və rifah şəraitinin yaradılması məqsədilə daha yüksək həyat səviyyəsi, tam məşğulluq, iqtisadi və sosial tərəqqi, inkişaf şəraiti, beynəlxalq iqtisadi, sosial, səhiyyə və əlaqəli problemlərin həlli mədəni və təhsil sahəsində beynəlxalq əməkdaşlıq,həmçinin irqindən, cinsindən, dilindən və dinindən asılı olmayaraq hamı üçün insan hüquqlarına və əsas azadlıqlarına universal hörmət və riayət edilməsini ehtiva etdiyi qeyd olunur. 58-ci maddədə isəBMT-nin ixtisaslaşmış qurumların siyasət və fəaliyyətlərinin əlaqələndirilməsi üçün tövsiyələr verdiyi, lazım gəldikdə, 55-ci maddədə göstərilən məqsədlərə nail olmaq üçün tələb olunan hər hansı yeni ixtisaslaşmış qurumların yaradılması üçün maraqlı dövlətlər arasında danışıqlara başladığı göstərilir.

Mühüm əhəmiyyətli beynəlxalq sənədlərdə isə əməkdaşlığa xüsusi yer ayrılır. 1948-ci il Ümumdunya İnsan Hüquqları Bəyannaməsinin 28-ci maddəsində hər bir insanın bu Bəyannamədə ifadə edilən hüquq və azadlıqların tam şəkildə həyata keçirilməsinə şərait yaradan sosial və beynəlxalq idarə üsulu hüququna malik olduğu göstərilir. Bu isə dövlətlərarası əməkdaşlığı təşviq edən əsas faktorlandandır [17].

1950-ci il Avropa İnsan Hüquqları Konvensiyası və onun protokolları da özündə bir sıra sosial aspektləri birləşdirərək layiqli həyat hüququnun tənzimlənməsi mexanizmini nəzərdə tutur. Digər əsas hüquqlar kimi sosial hüquqlar çərçivəsində əməkdaşlığa nail olunması Konvensiyanın preambulasında öz əksini tapır. Burada Bəyannamənin məqsədi kimi bəyan etdilmiş hüquqların hamılıqla və səmərəli tanınmasının və həyata keçirilməsinin təmin edilməli olduğunu nəzərə alaraq Avropa Şurası üzvləri arasında böyük

birliyə nail olmaqla vahid səylərlə hərəkət edən və siyasi ənənələrin, idealların, azadlığın və hüququn aliliyinin ümumi irsinə malik olan Avropa ölkələrinin hökumətləri kimi Ümumi Bəyannamədə təsbit olunmuş bəzi hüquqların kollektiv həyata keçirilməsinin təmin edilməsi barədə razılığa gəldikləri qeyd edilir. Konvensiyanın 1-ci maddəsində isə razılığa gələn Yüksək Tərəflərin yurisdiksiyası altında olan hər kəs üçün bu Konvensiyanın 2-ci bölməsində müəyyən olunmuş hüquq və azadlıqları təmin edildiyi göstərilir [9]. Konvensiyanın 1 iyun 2010-cu ildə qüvvəyə minən 11 və 14 saylı Protokollarına müvafiq olaraq dövlətlərarası işlər Razılığa gələn hər hansı Yüksək Tərəf Razılığa gələn digər Yüksək Tərəfin Konvensiyanın və ona dair Protokolların müddəalarını hər hansı şəkildə pozması iddiası ilə Məhkəməyə müraciət edə bilmələri də göstərilir [10].

Sosial, İqtisadi və Mədəni Hüquqlar haqqında 1966-cı il Paktının 2-ci maddəsində Paktda iştirak edən hər bir dövlətlərin fərdi şəkildə, xüsusilə də iqtisadi və texniki sahələri əhatə edən beynəlxalq yardım və əməkdaşlıq qaydasında hüquqların tam həyata keçirilməsini bütün vasitələr, o cümlədən, qanunverici tədbirlərin görülməsi və mümkün ehtiyatların maksimum səviyyəsində istifadəsi ilə təmin etmək üçün addımlar atması yolu ilə təmin etməli olduqları qeyd edilir. Paktın 23-cü maddəsində isə iştirak edən dövlətlər Paktda nəzərdə tutulan hüquqların həyata keçirilməsinə yardım edən beynəlxalq tədbirlər sırasına konvensiyaların bağlanması, tövsiyələrin qəbulu, texniki yardımın göstərilməsi, məsləhətləşmələrin aparılması məqsədilə keçirilən regional və texniki iclasların çağırılması, həmçinin maraqlı hökumətlərlə birlikdə təşkil olunan tədqiqatların aparılması kimi vasitələrin tətbiqinin daxil olduğu göstərilir [12, s. 3].

Tədqiqatlar apararkən Sosial, İqtisadivə Mədəni Hüquqlar Haqqında Beynəlxalq Paktın iştirakçısı olan 159 dövlətin üzərinə götürdüyü beynəlxalq yardım və əməkdaşlıq öhdəlikləri diqqətimizi çəkir. Burada iştirakçı dövlətlərin bu Konvensiyada tanınan hüquqların həyata keçirilməsi üçün bütün müvafiq qanunvericilik, inzibati və digər tədbirləri gördüyü göstərilir. İqtisadi, sosial və mədəni hüquqlara gəldikdə isə İştirakçı Dövlətlər mövcud resursların maksimum həddi daxilində və lazım gəldikdə beynəlxalq əməkdaşlıq çərçivəsində belə tədbirlər görməlidirlər.

Hər şeydən əvvəl qeyd olunmalıdır ki, bu Pakt nəinki yurisdiksiya bəndinə malikdir, o, həmçinin Paktda əks olunan hüquqların həyata keçirilməsi üçün beynəlxalq yardım və əməkdaşlığa açıq istinadları da özündə ehtiva edir. 1966-cı il Paktın 2-ci maddəsində hüquqların tam şəkildə həyata keçirilməsinə nail olmaq üçün addımlar atmaq üzrə ümumi öhdəliyinin təsbit edilməsi, əslində, beynəlxalq yardım və əməkdaşlığa istinadın bariz nümunəsidir.Bu ekstraterritorial və ya üçüncü dövlət öhdəlikləri daha çox üçüncü dövlətlərin əməlləri (hərəkət vəhərəkətsizliyi) nəticəsində yaranır. Yemək hüququ da daxil olmaqla, adekvat layiqli həyat səviyyəsi hüququnu özündə ehtiva edən 11-ci maddədə də beynəlxalq əməkdaşlıqdan bəhs edilir, 22 və 23-cü prosedur maddələrdə isə beynəlxalq tədbirlər və beynəlxalq fəaliyyətlər öz əksini tapır [12, s. 3].

Müəlliflərin fikrincə, Paktın hazırlanmasında üçüncü dövlət öhdəliklərinin açıq şəkildə daxil edilib-edilməməsi ilə bağlı fərqli fikirlər mövcud olub. Alston və Quinnin fikrincə, dövlətlərin üzərinə hər hansı formada yardım göstərmək və ya əməkdaşlıq etməklə bağlı heç bir hüquqi-məcburi öhdəlik qoyula bilməz [14, s. 191]. Müəlliflərin bu fikirləri yerinə yetirmək öhdəliyinə diqqət çəkərək üçüncü dövlətin hörmət və qoruma öhdəliklərini istisna etmir.

Kamminga, Coomans və Skogly adlı tədqiqatçılar isə bildirirlər ki, Paktın müəllifləri məhz elə ekstraterritorial öhdəlikləri nəzərdə tutaraq, onları Sənədə daxil etmək fikrində idilər [11, bənd 2; 15, s. 83-98]. Bununla belə, layihəni hazırlayanların niyyəti nə olursa olsunbu gün diqqəti Sosial, İqtisadivə Mədəni Hüquqlar Haqqında Paktın üçüncü dövlət öhdəliklərini təsbit etməsi ilə bağlı mübahisələrin yaranması cəlb edir [18, s. 53].

Layiqli həyat hüquqlarını dolayısıyla tənzimləyən sənədlərdə beynəlxalq əməkdaşlıq məsələlərinə diqqət yetəri qədər ayrılmamışdır. Belə sənədlərdən biri olan 1988-ci il tarixli Uşaq hüquqları haqqında Konvensiyanının mətni hazırlanarkən beynəlxalq əməkdaşlıq barədə olduqca böyük fikir ayrılıqları mövcud olmuşdur. Lakin müəlliflərdən Skoqli qeyd edir ki, beynəlxalq sənədlərdə beynəlxalq əməkdaşlığa istinad layihələrin hazırlanması zamanı heç vaxt şübhə altına alınmamış və 1981-ci ildən etibarən Konvensiyanın hazırlanması haqqında müzakirələrlə 1988-ci ildə qəbul edilən Konvensiya arasındakı mətnlərdə heç bir dəyişiklik mövcud deyildir [15, s. 102]. Bundan başqa müəllif iddia edir ki, Konvensiya hazırlanarkən sosial, iqtisadi və mədəni hüquqlara dair beynəlxalq əməkdaşlığa istinadın məhdudlaşdırılması texniki baxış mərhələsində qoyulmuşdur və yalnız resursların mövcudluğuna istinadı məhdudlaşdırmaq xaraqteri daşıyırdı [15, s. 104].

Uşaq hüquqları haqqında 1989-cu il Konvensiyası isə uşaqların layiqli həyat hüquqlarını təsbit etməklə bərabər, preambula və 4-cü maddədə digər müddəalarla yanaşı, uşaqların sosial, iqtisadi və mədəni hüquqların həyata keçirilməsi üçün beynəlxalq əməkdaşlığa istinad edir. Bu maddədə İştirakçı dövlətlərin Konvensiyada tanınan hüquqların həyata keçirilməsi üçün bütün lazımi qanunvericilik tədbirlərini, inzibati və digər tədbirləri gördüklərini vurğulayır, onların iqtisadi, sosial və mədəni hüquqlar barəsində belə tədbirləri malik olduqları ehtiyatların maksimum çərçivəsində və lazım gəldikdə, beynəlxalq əməkdaşlıq çərçivəsində gördükləri qeyd edilir [7]. Konvensiyanın səmərəli həyata keçirilməsini təşviq etmək və Konvensiyanın əhatə etdiyi sahədə beynəlxalq əməkdaşlığı təşviq etmək üçünİxtisaslaşmış qurumlar, Birləşmiş Millətlər Təşkilatının Uşaq Fondu və Birləşmiş Millətlər Təşkilatının digər orqanlarının səmərəli əməkdaşlığa təşviq edilməsi göstərilir [18, s. 41].

Xüsusilə layiqli sağlamlıq hüququ sahəsində beynəlxalq əməkdaşlıqlar geniş yer alır. Uşaq Hüquqlarına dair 1998-ci il Konvensiyasının iştirakçısı olan dövlətlər beynəlxalq əməkdaşlıq ruhunda, xüsusilə Birləşmiş Millətlər Təşkilatının Uşaq Fondu, Ümumdünya Səhiyyə Təşkilatı və Ümumdünya Ərzaq Proqramı tərəfindən vaxtaşırı hazırlanacaq fəaliyyət proqramlarını dəstəkləməyi

öhdələrinə götürürlər Sənədin 84-87-ci bəndində isə əməkdaşlığa dair öhdəliyin məcburi xaraqter daşıdığı qeyd olunurdu [18, s. 33]. Bütünlükdə isə əməkdaşlığa dair müddəalar Konvensiyanın ümumi icra tədbirləri ilə bağlı 1980-ci ildə yenidən işlənmiş Polşa layihəsi müddəalarında, daha sonra əlil uşaqla bağlı İşçi Qrupunun 1983-cü il və səhiyyə/təhsil hüquqları ilə əlaqədar 1985-ci ilməruzələrində və nəhayət 1988-ci ildə preambulada yer aldı [18, s. 34].

Qadınlara qarşı Ayrıseçkiliyin Bütün Formalarının Ləğv Edilməsi Haqqında 1979-cu il Konvensiyasının (CEDAW) 3-cü maddəsində İştirakçı dövlətlərin bütün sahələrdə, o cümlədən, sosialsahədə qadınların insan hüquqlarını və əsas azadlıqları kişilərlə bərabər əsasda həyata keçirmələrinə və onlardan istifadə etmələrinə təminat vermək üçün müvafiq tədbirləri həyata keçirməyə razılıq verdikləri qeyd edilir. Konvensiyanın 5, 10, 11, 12, 13-cü maddələri isə müvafiq olaraq qadınların layiqli həyat hüquqlarını müəyyən edir [5].

Avropa Şurası Nazirlər Komitəsinin 2010-cu il tarixli 7 nömrəli tövsiyəsi çərçivəsində qəbul olunmuşAvropa Şurası Demokratik Vətəndaşlıq və İnsan Huquqları Təhsili Xartiyasında Avropa Şurası vasitəsilə bir-biri ilə müvafiq məqsədlər və prinsiplər yürüdən üzv dövlətlərə xitabən beynəlxalq əməkdaşlığa dair aşağıdakı müddəaları irəli sürmüşlər:

- Ümummənafe mövzuları və eyniləşdirilmiş prioritetlər yürüdülməsi;
- Çoxşaxəli və sərhədlərarası fəaliyyətlər demokratik vətəndaşlıq cəmiyyəti və insan hüquqları təhsilinin mövcud olan şəbəkə koordinatorları daxil edilməklə dəstəklənməsi;
- Müsbət təcrübələrin mübadiləsinin, inkişafının, sistemləşdirilməsinin və yayılmasının təmin edilməsi;
- Xartiyanın məqsədləri və həyata keçirilməsi haqqında ictimaiyyət də daxil olmaqla bütün maraqlı tərəflərin məlumatlandırılması;
- Avropa qeyri-hökumət təşkilatları şəbəkəsi, gənclər təşkilatları, təhsil mütəxəssisləri və onlar arasındakı əməkdaşlığın dəstəklənməsi;
- Üzv dövlətlərin demokratik vətəndaş cəmiyyəti və insan hüquqları təhsilinə dair tədqiqat işlərinin nəticələrini Avropa Şurasının digər beynəlxalq təşkilatları arasında paylaşmaları [4].

Əlillərin Hüquqları üzrə Konvensiyada da layiqli həyat hüququ istiqamətində beynəlxalq əməkdaşlığı koordinasiya edilir. 13 dekabr 2006-cı ildə BMT Baş Assambleyası tərəfindən qəbul edilən bu Konvensiyada beynəlxalq əməkdaşlığa dair müxtəlif yanaşmalar mövcuddur. Konvensiyanın qəbulunda əsas fikir ayrılığı inkişaf etməkdə olan ölkələr üçün texniki əməkdaşlıq və iqtisadi yardımdan bəhs edən spesifik paraqrafın necə tənzimlənməsi məsələsi idi [6]. Sənədin hazırlanmasında iştirak edən üzvlər arasında beynəlxalq əməkdaşlıq müstəvisində fikir ayrılığı mövcud olmuşdur. Çinə görə, əlillik hüquqları təkcə insan hüquqları deyil, həm də inkişaf hüquqlarını özündə əks etdirməli, Yəmənə görə isə varlı ölkələr inkişaf etməkdə olan ölkələrə kömək etməlidir. Avropa İttifaqı isə müəyyən dövlətlərə məcburi öhdəlik yaradacaq beynəlxalq əməkdaşlığa dair müddəaları

Konvensiyayasalınmasından imtina etmişdir [18, s. 59]. Lakin bununla belə əməkdaşlığa dair müddəalar Konvensiyaya əlavə edilmişdir.

Baş Assambleyanın 11 iyul 2022-ci il tarixli Yetmiş yeddinci sessiyasında "Yoxsulluğun aradan qaldırılması və digər inkişaf məsələləri: sənayenin inkişafı üzrə əməkdaşlıq" adlı Sənəd qəbul edilmişdir. Birləşmiş Millətlər Təşkilatının Sənaye İnkişafı Təşkilatının Baş Direktorunun sənayenin inkişafına istiqamətlənmiş əməkdaşlıq sahəsində Baş Assambleyanın 75/231 saylı qətnaməsinə uyğun olaraq təqdim etdiyi hesabatının giriş hissəsində deyilir ki, cari tədqiqat və əvvəlki A/75/158 və A/73/121 saylı iki hesabat beynəlxalq əlaqəli sənaye əməkdaşlığı yoxsulluğun aradan qaldırılması, məşğulluğun yaradılması, inklüzivlik və iqlimin üçqat planetar böhranının həllinə müsbət təsirinin aydın sübutununa yönəlmişdir [8].

IV. Layiqli həyat hüquqları sferasında əməkdaşlığı təşviq edən orqanlar


Layiqli həyat hüquqları sahəsində əməkdaşlıq ilk öncə müqavilə əsasına malik olmalı və müvafiq sənədlərdə öz əksini tapmalıdır. Lakin əməkdaşlığın real olaraq mövcudluğu üçün müqavilə müddəalarına uyğun olaraq təcrübədə realizə edilməsi də vacib faktorlardandır. Layiqli həyat hüquqları istiqamətində əməkdaşlığın koordinasiya mexanizmi – sosial müdafiə üzrə beynəlxalq təşkilatların, dövlətlərin, tərəfdaş agentliklərin və ikitərəfli institutların nümayəndələrinin iştirakı ilə aparılır.

Layiqli həyat hüquqları sahəsində əməkdaşlıq həm dövlətlərin qarşılıqlı münasibətləri zəminində, həm də beynəlxalq təşkilatlar çərçivəsində həyata keçirilir. Beynəlxalq təşkilatlar bu əməkdaşlığı koordinasiya edərək dövlət üçün müvafiq öhdəliklər formalaşdırırlar. Belə təşkilatlardan ən birincisi Birləşmiş Millətlər Təşkilatıdır. Təşkilatın Nizamnaməsinin 55 və 56-cı maddələrinə, həmçinin beynəlxalq hüququn ümumi prinsiplərinə uyğun olaraq sosial, iqtisadi və mədəni hüquqların həyata keçirilməsi üçün beynəlxalq əməkdaşlıq bütün dövlətlərin öhdəliyi xarakteri daşıyır. Belə ki, digər dövlətlərə yardım etmək iqtidarında olan dövlətlər mövcud çoxtərəfli, regional, ikitərəfli və ya digər proqramlar vasitəsilə maliyyə, texniki və ya digər yardım göstərməlidirlər [3].

Layiqli həyat hüquqları istiqamətində əməkdaşlıqdan danışarkən hər şeydən əvvəl Sosial Müdafiə Mərtəbəsi (SFP) konsepsiyasına diqqət yetirilməlidir. Milli sosial siyasətlərin birinci müdafiə səviyyəsi olan Sosial Sosial müdafiə mərtəbəsi insanların səhiyyə, təhsil, mənzil, su və kanalizasiya və digər əsas xidmətlərə çıxış imkanlarını özündə ehtiva edən hüquqlar toplusudur [16]. Müəlliflərin fikrincə, o sosial-iqtisadi inkişaf siyasəti konsepsiyası və böhranın idarə edilməsi vasitəsi olmaqla bərabər, iqtisadi təhlükəsizliyə, ərzaq təhlükəsizliyinə, adekvat qidalanmaya və əsas xidmətlərə çıxışa zəmanət verir [19]. O Birləşmiş Millətlər Təşkilatının Koordinasiya üzrə Baş İcraçı Şurası (UNCEB) tərəfindən 2009-cu ilin aprelində doqquz böhran təşəbbüsündən biri kimi yaradılmışdır ki, müasir dövrdə əksər dövlətlər də milli fəaliyyət proqramlarında ona əsaslanırlar. Birləşmiş Əmək təşkilatı SPF-nin

inkişafı üçün iki ölçülü yanaşma təklif etmişdir: 1) üfüqi əhatə və ya Sosial Müdafiə Mərtəbəsi və 2) birinci mərtəbədə şaquli əhatə dairəsi olan və daha geniş və əhatəli sosial müdafiə əhatəsi.

Müəlliflərdən bəziləri Birləşmiş Millətlər Təşkilatının sosial sahədə insan hüquqlarının müdafiəsi strategiyası kimi Üç Sütunlu Strategiyanı (TPS) təklif edirlər. Buradakı sütünlar aşağıdakı formalarda təcəssüm etdirilə bilər:



Layiqli həyat jüququnun beynəlxalq müdafiə mexanizmlərinin həyata keçirilməsinə də məhz bu kontekstdən yanaşmaq tərəfdarıyıq [2].

Dünya dövlətləri içində xüsusilə Avropa regionunda layiqli həyat hüquqları istiqamətində beynəlxalq əməkdaşlıq möhkəm tellərlə bağlıdır. Avropa İttifaqında xarici beynəlxalq siyasət əməkdaşlığı 1957-ci ildən başlanılmış, lakin xarici əlaqələrdə daha geniş koordinasiya və ümumi xarici siyasət formalaşdırmaq məqsədilə 1970-ci ildə Avropa Siyasi Əməkdaşlıq Təşkilatının yaradılması ilə möhkəmlənmişdir [13, s. 291].

Afrika regionunda da layiqli həyat hüquqlarının təminatı istiqamətində dövlətlərarası əməkdaşlığın qurulması sahəsində fəal addımlar atılır. Xüsusilə 1999-cu ildə Sirt Bəyannaməsinin qəbul olunması ilə Afrika Birliyi Təşkilatının yaranması bu sahədə mühüm addımlardan idi. Birliyin əsas məqsədlərindən biri Afrika Dövlətləri arasında birlik və həmrəyliyi təşviq etmək, inkişafı üçün əməkdaşlığı əlaqələndirmək və intensivləşdirməkdən ibarət idi. Qitədə həyata keçirilən Laqos Fəaliyyət Planı (LPA) və 1080-cı il tarixli Laqosun Yekun Aktı Afrika ölkələri arasında özünə güvənən inkişaf və əməkdaşlıq üçün proqram və strategiyaları özündə birləşdirərək bu istiqamətə mühüm təkan vermişdir.

V. Nəticə

İnkişaf etmiş dövlətlər və beynəlxalq təşkilatlar digər ölkələrlə əlaqələrində iqtisadi, sosial və mədəni hüquqların realizəsi məqsədilə onlara hörmətlə yanaşaraqhəmin hüquqları qorumaq və yerinə yetirmək məqsədilə müvafiq öhdəliklər götürürlər ki, bunlar da kənd təsərrüfatı, ticarət, yardım, sosial və ya digər adekvat fəaliyyətlər çərçivəsində müəyyən oluna bilər.

Etiraf edilməlidir ki, insanların layiqli həyat hüquqları sahəsində inkişaf əməkdaşlığı öhdəlikləri tamamilə rədd edilməsə də, amma onların effektivliyi də

şübhə altındadır. Hər şeydən əvvəl bu istiqamətdə həyata keçirilən tədbirlərin dövlətlərin vətəndaşlarının layiqli həyat hüquqlarına necə təsir etməsi kontekstində təhlil edilməli, insanların layiqli həyatlarına hörmət, onları qorumaq və yerinə yetirmək üçün hüquqi öhdəliklərə bərabər olub-olmaması müəyyənləşdirilməlidir. Xüsusilə bu istiqamətdə müqavilə əsasının möhkəmləndirilməli, layihə və proqramların hazırlanmalı, layiqli həyat hüquqları istiqamətində əməkdaşlığı koordinasiya edən orqanların səlahiyyət və fəaliyyəti təkmilləşdirilməli, sonda isə əməkdaşlığın effektivliyinə nail olmaq üçün bu sahədə təşviqat xarakterli fəaliyyətlər həyata keçirilməlidir.

Belə ki, mövcud təşkilatı bütün qurumlar və xarici dövlətlər beynəlxalq əməkdaşlığı və texniki yardımı təşviq edərkən birinci hissədə sadalanan aktları rəhbər tutmalı və öz fəaliyyətlərində bunu təcəssüm etdirməlidirlər. Başqa sözlə, dövlətlərə beynəlxalq əməkdaşlığın Konvensiya üzrə öhdəliklərini yerinə yetirmələri üçün dəstək olmaq məqsədi daşımasını təmin etməyə çalışmalıdırlar.

Onlar ən yüksək maraqla əsaslanmanı təmin etməli və müvafiq sənədlərin tam həyata keçirilməsinə kömək etməlidirlər. Yalnız bu halda effektiv beynəlxalq əməkdaşlığın güclənməsindən söhbət gedə bilər.

Şimal dövlətlərinin, məsələn, ticarət, kənd təsərrüfatı və ya inkişaf yönəlmiş əməkdaşlıq sahəsində fərdi və kollektiv fəaliyyətləri cənubda fərdlərin insan hüquqlarının həyata keçirilməsinə böyük təsir göstərə bilər. Avropa İttifaqının sosial təminat koordinasiyasında səmimi əməkdaşlıq, qarşılıqlı etimad və qarşılıqlı tanınmanın nisbəti formasında nəzərdən keçirilməlidir.

Regional və beynəlxalq səviyyələrlə müqayisədə milli standartlar və fəaliyyət proqramlarının daha çox birbaşa təsirə malik olması və milli prosedurların daha əlçatanlığı səbəbindən beynəlxalq müstəvidə bu proseslər təşviq edilməli, dövlətdaxili sistemlər insan hüquqlarının müdafiəsini adekvat şəkildə təmin edə bilmədikdə beynəlxalq əməkdaşlığa istinad etməli və onun effektiv həyata keçirilməsi üçün bütün imkanlarını səfərbər etməli, son məqsəd olaraq ən yüksək nəticəyə istiqamətlənməlidirlər.

REFERENCES:

1. Abbasbeyli Aghalar, Najafov Etibar. Theory of international relations. Textbook. Baku: Mutercim, 2007, 208 pages (in Azerbaijani).
2. Alizadeh H. A Proposal for How to Realize Human Rights at the National and Regional Level: A Three-Pillar Strategy. URL:https://www.semanticscholar.org/paper/A-Proposal-for-How-to-Realize-Human-Rights-at-the-A-Alizadeh/41627fe63c9fdac9e2279a801b867018534260db (last access: 22.04.2024)
3. Charter of the United Nations. 1945. URL:https://treaties.un.org/doc/Publication/CTC/uncharter.pdf (last access:15.05.2024)

4. Charter on Education for Democratic Citizenship and Human Rights Education. 2010. https://www.coe.int/az/web/compass/council-of-europe-charter-on-education-for-democratic-citizenship-and-human-rights-education (last access: 28.12.2023)
5. Convention on the Elimination of All Forms of Discrimination against Women New York, 18 December 1979. By United Nations General Assembly.
URL:https://www.ohchr.org/en/instruments-mechanisms/instruments/convention-elimination-all-forms-discrimination-against-women(last access:06.06.2024)
6. Convention on the Rights of Persons with Disabilities. 2 December 2006. By Sixty-first session of the General Assembly by resolution A/RES/61/106.
URL:https://www.ohchr.org/en/instruments-mechanisms/instruments/convention-rights-persons-disabilities (last access:21.06.2024)
7. Convention on the Rights of the Child. 1989.
URL:https://www.migration.gov.az/content/pdf/5acb09f3100d0_Uşaq%20hüquqları%20haqqında%20Konvensiya.pdf (last access:28.03.24)
8. Eradication of poverty and other development issues: industrial development cooperation. General Assembly. Seventy-seventh session. 11 July 2022.
URL:https://www.unido.org/sites/default/files/files/2022-10/DG%20report_Industrial%20Development%20Cooperation.pdf(last access:17.04.2024)
9. European Convention on Human Rights. 1950.
URL:https://prd-echr.coe.int/documents/d/echr/Convention_ENG(last access: 22.04.2024)
10. European Convention on Human Rights and its protocols.
URL:https://www.coe.int/az/web/compass/the-european-convention-on-human-rights-and-its-protocols).(last access:17.04.2024)
11. Fons C., Menno T.K. Extraterritorial application of human rights treaties. 2004. 281 pages.
URL:https://lawcat.berkeley.edu/record/299807 (last access:08.05.2024)
12. International Covenant on Economic, Social and Cultural Rights. 16 December 1966. United Nations, Treaty Series, vol. 993, p. 3
13. Jeppe von Platz. Social Cooperation and Basic Economic Rights: A Rawlsian Route to Social Democracy. JOURNAL OF SOCIAL PHILOSOPHY, Vol. 47 No. 3, Fall 2016, 288–308. VC 2016 Wiley Periodicals, Inc.
14. Philip Alston and Gerard Quinn.The Nature and Scope of States Parties' Obligations under the International Covenant on Economic, Social and Cultural Rights. Journal article.Human Rights Quarterly. Vol. 9, No.2

(May, 1987), Pp. 156-229. 74 pages. Published By: The Johns Hopkins University Press.
15. Sigrun Skogly. Beyond National Borders: States' Human Rights Obligations in International Cooperation. 2006. 222 pages
16. The concept of the social protection floor. URL:https://www.ilo.org/universal-social-protection-department/areas-work-social-protection-department/policy-development-and-applied-research/social-protection-floor(last access:12.04.2024)
17. Universal Declaration of Human Rights. United Nations. 1948. URL: https://www.un.org/en/about-us/universal-declaration-of-human-rights (last access: 22.06.2024)
18. Vandenhole W. Economic, Social and Cultural Rights in the CRC: Is There a Legal Obligation to Cooperate Internationally for Development? / International Journal of Children's Rights 17 (2009) 23–63.30 pages
19. Victoria Giroud-Castiella; Clara van Panhuys. Social Protection Floor. URL:https://web.archive.org/web/20180622162253/http:/www.socialsecurityextension.org/gimi/gess/ShowTheme.do?tid=1321(last access:15.06.2024)

Legal regulation of international cooperation in the sphere of the rights to a decent life

MALAKKHANIM RAHIMOVA*

Abstract

Ensuring the right to a decent life, which is considered one of the basic human rights, is one of the main obligations of the world community and individual states in the modern era. It is for this reason that international organizations and developed countries are supporters of the process of promoting aid and establishing relations with developing or relatively low-income states. One of the most important issues in this promotion process is the availability of its contractual basis. Only after that, international organizations and individual states will be able to implement certain programs and action plans through the appropriate organizational mechanisms. The article examines the forms and directions of international cooperation implemented by the author in the direction of rights to a decent life, analyzes international acts containing this problem, and also puts forward certain proposals and recommendations. Also the author analyzed the implementation of international relations from the point of view of the minimum level of social protection and defended the idea of replacing the term "extraterritorial obligations" with the term "obligations of the third state".

Keywords: *the right to a decent life, adequate standards, the international act, Social protection floor, extraterritorial obligations, obligations of the third state, international relations, international cooperation, the Strategy of Three Pillars.*

* Academy of Azerbaijani Bar Association / email:malakkanim.rahimova@barassociation.az

Правовое регулирование международного сотрудничества в сфере права на достойную жизнь

МЕЛЕКХАНЫМ РАХИМОВА*

Резюме

Обеспечение права на достойную жизнь, считающегося одним из основных прав человека, является одной из основных обязанностей мирового сообщества и отдельных государств в современную эпоху. Именно по этой причине международные организации и развитые страны выступают сторонниками процесса продвижения в области помощи и установления отношений с развивающимися государствами и государствами с низким уровнем благосостояния. Одним из наиболее важных вопросов в этом процессе продвижения является наличие его договорной основы. Только после этого международные организации и отдельные государства смогут реализовать определенные программы и планы действий через соответствующие организационные механизмы. В статье автором исследованы формы и направления международного сотрудничества, реализуемого в направлении прав на достойную жизнь, проанализированы международные акты, содержащие данную проблему, а также выдвинуты отдельные предложения и рекомендации. Также автор проанализировал реализацию международных отношений с точки зрения минимального уровня социальной защиты и отстоял идею замены термина «экстерриториальные обязательства» термином «обязательства третьего государства».

Ключевые слова: *право на достойную жизнь, адекватные стандарты, международный акт, уровень социальной защиты, экстерриториальные обязательства, обязательства третьего государства, международные отношения, международное сотрудничество, стратегия трех столпов.*

Redaksiyaya daxil olma tarixi: 24.06.2024
Çapa qəbul: 23.09.2024

* Академия Коллегии Адвокатов Азербайджанской Республики/ email:malakkanim.rahimova@barassociation.az

Siyavuş Bağırov. Azərbaycanlıların Ermənistan SSR-dən 1988-1991-ci il deportasiya edilməsinə Ermənistan Dövlət Müstəqilliyi haqqında Bəyannamə və Ermənistan Konstitusiyası prizmasından qiymət verilməsi: Ermənistan Respublikasının konstitusion aktlarının şərhi // Azərbaycan Hüquq Jurnalı. 2024 (№2), s. 106-116. DOI: 10.61638/SBMF2743

LEGAL EVALUATION OF THE DEPORTATION OF AZERBAIJANIS FROM THE ARMENIAN SSR IN 1988-1991 FROM THE PERSPECTIVE OF THE DECLARATION ON INDEPENDENCE OF ARMENIA AND THE CONSTITUTION OF ARMENIA: INTERPRETATION OF THE CONSTITUTIONAL ACTS OF THE REPUBLIC OF ARMENIA

SIYAVUSH BAGHIROV*

Abstract

The subject of the article is the return of Azerbaijanis to their native territories, a topic that has gained enough attention recently in the legal community and in both Azerbaijani and Armenian society, particularly after the 2020 clashes between the two states. The article's study direction, in contrast to many other scientific and journalistic works already in existence, addresses this return to the national level rather than the international ground. As a result, the constitutional acts of the Armenian Soviet Socialist Republic and the Republic of Armenia are interpreted. To support this interpretation, the relevant legislation from the USSR at that time, as well as the Azerbaijan SSR's analogical citizenship acts are also evaluated. The article's goal is to assess the 1988–1991 deportation from the perspective of Armenian legislation. It was determined that the 1988–1991 deportation described in the article violated Armenia's constitutional acts in addition to other theoretical aspects and public legal relations.

Keywords: *citizenship, deportation, constitutional law, declaration of state independence, fall of the USSR, Azerbaijan-Armenia relations, Karabakh conflict.*

I. Introduction

The problem of the return of Azerbaijanis who were forcibly removed from the Armenian SSR in the late 1980s and early 1990s to their motherland has become real as a result of the drastic change in circumstances following the war between the Republics of Azerbaijan and Armenia in September 2020. First of all, our stance has always been that, from a theoretical and practical standpoint, a collaboration between the states is the only way to actually realize return, even though there are both national and international grounds for it. because it is illogical to view of the return as a one-sided phenomenon in the framework described, which involves multiple subjects of international law. In this article, we tried to interpret the 47th and related articles of the Constitution of the Republic of Armenia, in contrast to writings, which have more populistic ground than legal one with "Western Azerbaijan" content and mainly based on international legal norms in the Azerbaijani press [1, 7, 8, 9, 10, 12], and studied the possibility of return in the national law of the other party at the constitutional level.

* LL.M. candidate / University College London / email: siyavush.bagirov.mehdi@bsu.edu.az

II. Brief history

If we examine the historical facts of the recent past, we will see that Azerbaijanis were repeatedly driven from the area that is now the Republic of Armenia through forced migration, armed warfare, and other means (1905, 1918, 1948-53, etc.) [2, p. 34-70, 94-136; 4, p.1-22; 6, p. 110-128; 11, p. 58-61; 15]. Official data indicates that about 250,000 Azerbaijanis were deported from their homeland between 1988 and 1991 [20]. In the deportation issue, we will give priority to the group of victims from 1988 to 1991 based on the time factor and the second republic period.

In a nutshell the previously negative attitude toward the Azerbaijanis residing in the Armenian SSR intensified throughout the second half of the 1980s due to the national conflicts that exploded in the Soviet Union. In keeping with this, they were driven away from their ancestral lands between 1988 and 1991. According to data from the latter years of the Soviet Union, there were 84,860 Azerbaijanis residing in the Armenian SSR, ranking second only to Armenians and accounting for 2.56% of the Armenia SSR's total population [19].

The adoption of constitutional acts and successive declarations of independence by the union republics in 1991 made the repatriation of Azerbaijanis increasingly challenging. The Republic of Armenia's position within the scope of citizenship relations was once again made clear with the adoption of its Constitution in 1995.

III. Interpretation of the related paragraphs of the Declaration on Independence of Armenia

Our aim in beginning with the interpretation of the Declaration on Independence of Armenia [3] (henceforth referred to as the Declaration) is to comprehend the foundation upon which the Constitution is formed. It is important to remember that, in the case of the post-Soviet states, the initial constitutions were drafted using the pertinent document — also referred to as a declaration or constitutional act — that verified the states' independence from the Soviet Union. This conclusion is made possible by the preamble sections of the constitutions. Azerbaijan is in an analogous situation, too. The Azerbaijani people, "*continuing their centuries-old traditions of statehood, based on the principles reflected in the Constitutional Act On the State Independence of the Republic of Azerbaijan ...*" [14] as stated in the preamble of the Azerbaijani constitution, declare their intention and introduce the constitution. According to it, the values embodied in that foundational act ought to serve as the basis for the Constitution. The perspective established here, which applies to the entire legal system, is that other laws must comply with the Constitution in the same way that the Constitution itself must comply with the constitutional act. This will continue to be the case for as long as the people do not express their desire to alter it.

This compatibility requirement is explained in the preamble of the Armenian Constitution with reference to the 1990 Declaration [13]. The preamble reads: "*The Armenian people adopt the Constitution of the Republic of Armenia based on the fundamental principles of Armenian statehood and the national goals established in the Declaration of Independence of Armenia*".

Here is where the first distinction between Armenian and Azerbaijani approaches become apparent: although Azerbaijan refers of "tradition", Armenia specifies a position at the level of "principle". We do not dispute that tradition is necessary for the establishment of principles, general or special, but from the perspective of statehood, we might assert that the Armenian side has a more nationalistic approach. If the ratio of law to nationality is measured in the principles of the Azerbaijani Constitutional Act, the legality is more, even though the principles in the Act, which Azerbaijan refers to as the basis, do not exclude the existence of Azerbaijan's national ambitions. As we observe, the Declaration on Independence of Armenia went so far as to turn the objective into an ideological claim, namely that "the Armenian people can turn everything into a principle in order to achieve their goal".

According to paragraph 4 of the 1990 Declaration, the following is the norm for citizenship:

4. For *all citizens living in the territory of the Republic of Armenia* citizenship of the Republic of Armenia is established. *The Armenians living outside the Republic of Armenia* have the right to citizenship of the Republic of Armenia. Citizens of the Republic of Armenia are under its protection and protection. The Republic of Armenia provides free and equal development of the citizens irrespective of nationality, race and religion.

The declaration specifies two distinct groups at the time of its entry into force (1990) by establishing the Armenian SSR's borders[1] based on the following criteria:

a. Inside Armenian SSR – the citizens of the USSR – criteria of *citizenship* and *territory*;

b. Outside Armenian SSR – only ethnicly armenians – *nationality*.

Several disputable aspects are derived from here:

a. The emergence of Armenian citizenship is debatable because, regardless of registration, people of the union were regarded as citizens of the USSR and

[1] ***Author's note***: The former Nagorno Karabakh Autonomous Oblast, which was a part of Azerbaijan SSR during soviet rule under the legitimate basis formed by the soviet constitution and other legislative acts, was reflected as a subordinate / indivisible unit of the Republic of Armenia in the text of 1990 Declaration. Therefore, such a separatist position of 1990 Declaration is out of scope when the 4th paragraph of 1990 Declaration is interpreted. Because the subject of the article is not to discuss the claims of Azerbaijan SSR and Armenian SSR, it is related to the citizenship issues.

did not obtain the particular citizenship of the union state. Members of the union began enacting these particular laws just before the USSR collapsed. For example, the Law on Azerbaijan SSR Citizenship (1990) [16] is the best example. Although this law has numerous positive sides like the institution of "Citizenship of Azerbaijan SSR" (art.1) or inadmissibility of the extradition of any Azerbaijani SSR's citizen to any union republic (art.8), it was not contrary to the USSR legislation (The Union Law 1518-I on the USSR Citizenship, 23 may 1990) [17] and in fact, mostly repeated it. In contrast to the Soviet Union's previous legislation on citizenship (1938 and 1978), the 1990 law of the Azerbaijan SSR was unique in that the citizen's affiliation to a specific union member was reflected. We are confident that a modification in the Union's framework was the cause of this, as the 1st article of the Union Law 8497-X on the USSR Citizenship, 01 december 1978 [18] which carried on the 1938 citizenship act's tradition, was founded on the idea of "single union citizenship" (*Единое союзное гражданство*), the 1st article The Union Law 1518-I on the USSR Citizenship, 23 may 1990 left this term stating this position: "*Union citizenship was established in the USSR. Every citizen of the Union Republic is also a citizen of the USSR. Every citizen of an autonomous republic is at the same time a citizen of the union republic to which the autonomous republic belongs and a citizen of the USSR*". Thus, although the citizenship was formerly limited to USSR citizenship (union level), since 1990 we had been able to discuss *dual* or even *triple* citizenship (example: individual X could be a citizen of the USSR, the union republic and the autonomous republic at the same time).

In contrast to Azerbaijan, Armenia's Law on Citizenship was passed in 1993, a long time after this. Therefore, the USSR legislation may be enforced *mutatis mutandis* (in situations where there was no conflict of norms), because the institution of "citizenship of the Republic of Armenia" was only regulated by the 1990 Declaration.

Armenia gained full independence when the USSR collapsed in December 1991, but the Declaration, which was adopted in 1990, proclaims the emergence of the "Citizenship of the Republic of Armenia". This is where the issue of dual citizenship arises. For instance, in 1990, should A., a person living in Armenia, be regarded as *a citizen of the Soviet Union or of independent Armenia?;*

b. Undoubtedly, there were individuals living in Armenia in 1990 who had registrations in other union republics. It appears from the declaration's phrase that citizenship was granted upon everyone residing on Armenian SSR territory automatically?;

c. Is the right to become a citizen denied to a person who is registered on Armenian SSR territory, is currently outside of Armenia, and is not of Armenian nationality?;

d. Most notably, a sizable portion of Azerbaijanis remained on Armenian SSR territory in 1990, and the final group of them departed in August 1991, about a year after the Declaration had been adopted. To put it another way, during this one-year period, ethnic-Azerbaijani citizens of Armenia who were on Armenian SSR's territory and eligible for newly-emerged citizenship of independent Armenia were forcibly removed by Armenian officials and citizens, in violation of a Declaration adopted based on the will of the Armenian people. Consequently, it went against their citizenship and any associated rights.

Point D is the first evidence that the rights of Azerbaijanis, who were deported from their homeland between 1988 and 1991—*or, in the worst case scenario, between 1990 and 1991*—were violated. It is the confirmation of actions contradicting the Declaration, which is an expression of the desire of the Armenian people, whose values are superior to the Constitution, *without even making reference to any international act.*

Additionally, the principles set out in the Declaration are superior to the Constitution, as both Article 12 of the Declaration and the preamble to the Constitution reflects. Second, the requirement of a legal instrument superior to the Constitution has been violated. As a result, the relevant requirements of the Constitution were also violated, because the Declaration acts as the basis of the Constitution.

IV. The interpretation of the related parts of the Constitution of the Republic of Armenia

Following the Declaration, the Republic of Armenia's Constitution is another legal document whose interpretation is deemed necessary. The Constitution's Article 47 holds particular significance in regulating the relationships of citizenship.

Article 47. The right to citizenship

47.1. *Individuals born to citizens of the Republic of Armenia* are considered citizens of the Republic of Armenia.

47.2. *An individual whose at least one of his parents* is a citizen of the Republic of Armenia has the right to become a citizen of the Republic of Armenia.

...

47.6. The procedure for realizing the citizenship of the Republic of Armenia, this article, other grounds for obtaining citizenship, including the grounds for relinquishing citizenship, are determined by the legislation [13].

We could argue, with reference to Article 47.1, that Azerbaijanis who were forcibly expelled from the Soviet Armenia in 1988–1991 were deprived of their citizenship rights, as stipulated by Article 47 of the Constitution. First, we can infer that there were a sizable number of Azerbaijanis based on the demographics of the

